# Azərbaycanda siyasi məhbusların siyahısı

**Dekabr-2015**

**MÜNDƏRİCAT**

**Xülasə............................................................................................................ 3-4**

**A. Jurnalistlər və bloggerlər...........................................................................4-20**

**B. Hüquq müdafiəçiləri.....................................................................................21-28**

**C. Gənc fəallar...................................................................................................29-34**

**D. Müxalif siyasətçilər.......................................................................................35-45**

**E. İnanclı fəallar.................................................................................................46-77**

**a. Səid Dadaşbəyli və onunla birgə tutulan şəxslərin işi......................46-52**
**b. Azərbaycan İslam Partiyasının sədri və onunla birlikdə tutulan şəxslərin işi.........................................................................53-57**
**c. 2012-ci ilin mayında tutulan inanclı fəalların işi..............................58-63**
**d. 2012-ci ildə Masallı rayonunda tutulan inanclı fəalların işi.........................................................................................63-66**
**e. 5 oktyabr 2012-ci il tarixli "Hicaba azadlıq" aksiyasına görə tutulan şəxslərin işi..........................................................................66-70**
**f. İlahiyyatçılar .........................................................................................70-73**
**g. "Nurçular"..............................................................................................73 -77**

**F.Ömürlüklər......................................................................................................78-85**

**G.Digər işlər........................................................................................................86-104**

**a. İsmayıllı hadisələri zamanı həbs edilənlər........................................86-87**
**b. Keçmiş dövlət məmurları.....................................................................88-94**
**c. Siyasi girovlar.........................................................................................94-104**

## *XÜLASƏ*

Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti qurumları daha da dərinləşən siyasi məhbus probleminə diqqəti cəlb etmək üçün bu hesabatla çıxış edirlər. Siyasi motivli həbslərin və azadlıqdan məhrum edilmələrin sayı 26 yanvar 2013-cü il tarixdə Avropa Şurası Parlament Assambleyasında “Azərbaycanda siyasi məhbus məsələsinə baxış” üzrə Qətnamənin qəbul edilməməsindən sonra daha da artmış [1] və Azərbaycanın 14 may 2014-cü ildən Avropa Şurası Nazirlər Komitəsinə sədrliyə başlaması da vəziyyəti müsbətə doğru dəyişməmişdir.

Hesabatın 12 avqust 2014-cü il tarixinə qədər siyasi motivli saxta ittihamlarla həbs edilən və azadlıqdan məhrum edilən və göstərilən tarixə qədər azadlığa buraxılmayan siyasi məhbusların işləri əsasında hazırlanıb. Həmin vaxt siyahıda 98 nəfərin adı olub.

2015-cü ilin may ayında isə hesabat yenilənib, azadlığa çıxan siyası məhbusların adı siyahıdan çıxarılıb, hesabat hazırlanıb yayılandan sonra isə həbs edilənlərin (siyasi məhbus sayılanların) adları hesabata daxil edilib. Həmin vaxt siyahıda 80 nəfərin adı olub.

**2015-ci ilin dekabr ayında siyahı 3-cü dəfə (sonuncu) yenilənib,** yeni həbs edilmiş və siyasi məhbus hesab edilən şəxslərin adları siyahıya əlavə edilib. Sonuncu yeniləməyə görə siyahıda 93 nəfərin adı olub.

Siyasi məhbuslar Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 3 oktyabr 2012-ci il tarixli 1900 saylı Qətnaməsində təsbit edilmiş kriteriyalar əsasında müəyyən edilib[2].

Hesabat hazırlanarkən siyasi məhbus məsələsi ilə məşğul olan çoxsaylı yerli və beynəlxalq təşkilatlarla məsləhətləşmələr aparılıb, o cümlədən nüfuzlu beynəlxalq insan haqları təşkilatlarının hesabatları, Azərbaycanın üzvü olduğu və qarşısında öhdəlikləri olan təşkilatların, xüsusən də Avropa Şurasının müvafiq sənədləri öyrənilib, mətbuatın monitorinqi aparılıb, məhkəmələrin müşahidəsi həyata keçirilib, məhkəmə hökmləri və digər hüquqi sənədlər təhlil edilib, hesabata daxil edilən siyasi məhbusların vəkilləri və ailə üzvləri, müdafiə komitələri ilə görüşlər təşkil edilib. Hesabat hər bir siyasi məhbus barədə detallı məlumatları, həmçinin hər bir həbsin əsl səbəblərini, bu zaman yol verilmiş qanun pozuntularını, siyasi məhbusların fotoşəkillərini (bəzilərini tapmaq mümkün olmayıb) özündə əks etdirir.

Hesabatda siyasi məhbuslar aşağıdakı kateqoriyalar üzrə bölünmüşdür:

a. Jurnalistlər və bloggerlər;

---

[1] http://bit.ly/P8Z2Qy
[2] http://bit.ly/1piq992

b. Hüquq müdafiəçiləri;
c. Gənc fəallar;
d. Müxalifət fəalları;
e. İnanclı fəallar;
f. Ömürlüklər;
g. Digər işlər .

Bir neçə kateqoriya da öz növbəsində alt kateqoriyalara bölünmüşdür ki, bunlarla hesabatdan tanış ola bilərsiniz.

**Hesabat tanınmış hüquq müdafiəçiləri Leyla Yunus və Rəsul Cəfərovun ekspertlər, hüquqçular, vəkillər, hüquq müdafiəçiləri və ictimai şəxslərin daxil olduğu İşçi Qrupunun iştirakı ilə hazırladığı birgə siyasi məhbuslar siyahısından ibarətdir, eyni zamanda ümumilikdə 28 QHT təmsilçisi, hüquqşünas və vəkilinn vahid mövqeyini əks etdirən sənəddir.**

## A. Jurnalistlər və bloggerlər

### 1. Əbilov Əbdül Əbdülmanaf oğlu

**Saxlanma tarixi:** 22 noyabr 2013-cü il
**İttiham:** CM-nin 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*) maddəsi



**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** 31 yaşlı cənab Əbilov həbsindən əvvəl Facebook sosial şəbəkəsində populyar olan və populyarlığı artan “Yaltaqlara Dur Deyək” səhifəsinin, o cümlədən digər sosial şəbəkələrdə müxtəlif tənqidi səhifələrin admini olub. Cənab Əbilov 9 oktyabr 2013-cü il tarixdə keçirilən Prezident seçkilərindən sonra Facebook-da seçki saxtakarlıqları ilə bağlı səhifə də yaradıb və onu həbs edilənə qədər idarə edib, bu səhifədə seçkilərdə saxtakarlıqları göstərən foto və video materiallar, o cümlədən digər sənədlər geniş şəkildə yayılmışdır. Noyabrın 22-də Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həbs edilən sosial şəbəkə fəalı bu idarəyə aparılıb. Onun barəsində 3 aylıq həbs qətimkan tədbiri saxlanmasından bir gün sonra, yəni noyabrın 23-də Nərimanov rayon Məhkəməsi tərəfindən seçilib, o bu qərardan sonra istintaq təcridxanasına göndərilməli olan halda yenidən polis idarəsinə gətirilib və qanunsuz olaraq noyabrın 27-ə kimi burada saxlanılıb. Bakı Apellyasiya Məhkəməsinin hakimi Həsən Əhmədov noyabrın 29-da həbs tədbirinin seçilməsi barədə qərarı qüvvədə saxlayıb.
Cənab Əbilovun evdə olan gödəkçəsinin cibindən narkotik maddə - 4 qram heroinin tapıldığı iddia olunub (bu ittiham son bir neçə il ərzində çoxsaylı fəallara qarşı istifadə edilir) və evdə axtarış aparan polislər evə gəldikdən sonra ilk olaraq cənab Əbilova məxsus noutbuku götürüblər. Bir neçə saat sonra isə Facebook-da cənab Əbilovun admini olduğu “Yaltaqlara Dur Deyək” səhifəsi bağlanıb. Əbilov həbs olunan gün onun evdə olan qaynı Ramil Əhədov da polis idarəsinə aparılıb. İdarədə ondan Facebook-da olub-olmadığını soruşublar, lakin sonradan heç bir izahat almadan sərbəst buraxıblar.
Noyabrın 29-da keçirilən məhkəmə zamanı cənab Əbilov çıxış edərək bildirib ki, ona açıq şəkildə Facebook-dakı yazılarına görə həbs edildiyini deyiblər. O, küçədə qandallanaraq polis tərəfindən evlərində axtarış aparmaq üçün ora gətirildiyini, evdə çox adamın olduğunu görüb narkotik maddəni evə yox, evdə otaqlardan birində asılan gödəkçədən tapıldığını iddia edərək sənədləşdirdiklərini, polis idarəsində psixoloji təzyiqlərə məruz qaldığını, döyüldüyünü və bununla da öz əleyhinə etirafedici ifadələr verməyə məcbur olunduğunu vurğulayıb. Əbilovun yaxınları və vəkili Elçin Sadıqov da işin siyasi olduğunu, cənab Əbilovun heç bir mötəbər sübut olmadan həbs edildiyini bildiriblər.
***Cənab Əbilov Bakı Ağır Cinayətlər Məhkəməsinin 27 may 2014-cü il tarixli qərarı ilə 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdir*.**

## 2. Əliyev Nicat Nazim oğlu

**Saxlanma tarixi:** 21 may 2012-ci il

**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*), 234.1 (*qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma*), 281.2 (*bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri




**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Cənab Əliyev dini yönümlü tənqidi www.azadxeber.az veb-səhifəsinin baş redaktorudur. Cənab Əliyevin həbsindən qabaq bu saytda hökumətin dini sahədə apardığı siyasətini, habelə Avroviziya-2012 mahnı yarışmasına həddən artıq maliyyənin ayrılmasını, o cümlədən Bakıda gey-paradın keçirilmə ehtimalını tənqid edən materiallar çap edilmişdir. Mahnı yarışması ərəfəsində bu materialları, o cümlədən ruhanilər Abgül Süleymanov və Tale Bağırovun çıxışlarını əks etdirən diskləri şəhərin müxtəlif yerlərində yaydıqdan dərhal sonra cənab Əliyev və onunla birlikdə daha bir neçə nəfər şəxs həbs edilib.

Jurnalistə qarşı ilkin olaraq adətən fəallara qarşı "növbətçi" ittiham kimi istifadə edilən narkotik maddə ittihamı irəli sürülmüşdür. Həbsindən yalnız 8 ay sonra, 2013-cü ilin yanvarın 23-də Avropa Şurası Parlament Assambleyası (AŞPA) siyasi məhbuslar üzrə məruzəçi cənab Ştrasserin siyahısının əleyhinə səs verdikdən və nəticədə məruzəçi mandatı dayandırıldıqdan 2 gün sonra, yanvarın 26-da cənab Əliyevə qarşı daha ağır 3 yeni ittiham irəli sürülmüşdür. Bakı Ağır Cinayətlər Məhkəməsinin 9 dekabr 2013-cü il tarixli qərarı ilə cənab Əliyev ***10 il azadlıqdan məhrumetmə cəzasına*** məhkum edilmişdir (prokuror öz çıxışında jurnalistin məhz 10 il azadlıqdan məhrum edilməsini istəmişdi ki, məhkəmə də bu istəyi olduğu kimi təmin etmişdir). Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişdirmədən qüvvədə saxlamışdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Nahid Məmmədov ekspert kimi işə cəlb edilib və yayılan disklərdəki çıxışlarda milli ədavəti qızışdıran nüanslar olduğunu müəyyən edib, bununla belə ekspert bu nüansların detallarını məhkəmədə izah edə bilməyib. Belə nüansların olduğu təqdirdə həmin çıxışlar jurnalist tərəfindən

deyil, işdə adı keçməyən başqa şəxslər tərəfindən edilib, bununla belə jurnalist bu cür çıxışlar etməkdə təqsirli bilinib. Jurnalistin evindən götürülən və dini ekstremizmi təbliğ edildiyi iddia edilən Ərşad Əzimzadənin “Möcüzəsiz möcüzə” kitabı isə insan orqanizminin ac qalmaqla müalicəsi barədədir, kitab Azərbaycanda çap edilib və rəsmi şəkildə qadağan olunmayıb, bununla belə ekspertiza bu kitabın idxal edildiyini və dini ekstremizmə çağırışları əks edildiyi barədə jurnalistin əleyhinə olan rəy verib. Məhkəmə prosesində ekspertiza rəyi elan edilərkən və ekspert suallara cavab verərkən rəyin sifarişlə hazırlandığı açıq şəkildə müşahidə edilib. Məhkəmə prosesləri zamanı jurnalistin özü, o cümlədən vəkili Yalçın İmanov da cənab Əliyevin həbs edilən zaman polis tərəfindən işgəncəyə məruz qaldığını, ağır xəsarətlər verildiyini bəyan etsələr də, bu iddialar araşdırılmayıb.
Cənab Əliyev ailəlidir, toyundan cəmi 23 gün sonra həbs edilib. Amnesty İnternational təşkilatı jurnalistə qarşı ittihamları şübhəli adlandırıb[3].

---

**3. Həşimli Pərviz Kamran oğlu**

**Saxlanma tarixi:** 17 sentyabr 2013-cü il
**İttiham:** CM-nin 206.3.2-ci (*qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sursatının qaçaqmalçılığı*) və 228.2.1-ci (*qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini və döyüş sursatını əldə etmə, saxlama, daşıma*) maddələri



**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** “Bizim yol” qəzetinin əməkdaşı və www.moderator.az xəbər saytının, o cümlədən hüquq müdafiə təşkilatı olan Siyasi və Mülki Hüquqların Müdafiəsi Mərkəzinin rəhbəri olan cənab Həşimli sentyabrın 17-i axşam saatlarında Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən saxlanılıb, onun evində və əməkdaşı olduğu “Bizim yol” qəzetinin redaksiyasında axtarış aparılıb, jurnalistin redaksiyadakı kompüteri və digər əşyaları müsadirə edilib. MTN jurnalistin evində axtarış zamanı silah-sursatın tapıldığını bildirib. Yayılan rəsmi məlumatda o da bildirilib ki, cənab Həşimli digər təqsirləndirilən şəxs Təvəkkül Qurbanovla birlikdə qabaqcadan əlbir olaraq satış məqsədilə İran vətəndaşlarından külli miqdarda silah və döyüş sursatını qaçaqmalçılıq yolu ilə gömrük nəzarətindən kənar İran ərazisindən Azərbaycana keçirib, qanunsuz olaraq daşıyıb, gəzdirib və saxlayıblar.
Jurnalistin (eyni zamanda hüquq müdafiəçisi) barəsində sentyabrın 18-də Səbail rayon Məhkəməsinin qərarı ilə 2 aylıq həbs qətimkan tədbiri seçilib, o, məhkəməyə nümayişkaranə tərzdə - başına torba salınmış vəziyyətdə gətirilib. Bu məhkəmə zamanı cənab Həşimli saxlanılarkən kobud rəftar nəticəsində ayağından zədə aldığını, MTN-də işgəncə veriləcəyi ilə hədələndiyini bildirib. Jurnalistin həbs edildiyi gün onun evində axtarışı MTN-nin çoxsaylı əməkdaşı aparıb, evdə cənab Həşimlinin hamilə həyat yoldaşının və onun 5 yaşlı qızının olmasına baxmayaraq, MTN

3 http://bit.ly/P8Z9vo

əməkdaşları silahlı olublar və axtarış zamanı silahları yığışdırmayıblar, axtarış haqqında məhkəmə qərarı olsa da, axtarışa gələnlər qapını döymək əvəzinə ilk öncə pəncərədən içəri keçməyə cəhd göstəriblər. Mənzilin yerləşdiyi həyətdə və mənzilin içində işlək vəziyyətdə təhlükəsizlik kameralarının olduğunu aşkarladıqdan sonra bu kameralar sındırılıb. Axtarış zamanı jurnalistin həyat yoldaşı qonşularının, o cümlədən artıq mənzilin yaxınlığına gələn jurnalistlərin evə dəvət olunmasına çağırışlar etsə də, buna məhəl qoyulmayıb. Axtarış bitdikdən və evin qapıları dərhal açıldıqdan sonra jurnalistin həyat yoldaşı çöldə olan və axtarışın bitməsini gözləyən jurnalistlərə və hüquq müdafiəçilərinə onların evinə silah-sursatın atıldığını bildirib.
Jurnalist onun barəsində seçilmiş həbs qətimkan tədbirinin artırılması və verilən şikayətlər zamanı keçirilən bütün məhkəmə proseslərində MTN-nin İstintaq Təcridxanasında tək kamerada saxlandığını, ona qarşı müxtəlif təzyiqlərin olduğunu, prinsipial mövqeyi olan vəkildən imtina etməsi üçün ərizə yazdırmaq istədiklərini, gecə otaqda işığın söndürülmədiyini bildirmişdir. Bununla belə, Amnesty International təşkilatı tərəfindən vicdan məhbusu kimi tanınan jurnalistin bütün bu şikayətlərinə həm məhkəmə tərəfindən, həm də jurnalistin və onun yaxınlarının müraciət etdiyi rəsmi şəxslər tərəfindən məhəl qoyulmamışdır[4].
Cənab Həşimlinin işi Bakı Ağır Cinayətlər Məhkəməsinə 2014-cü ilin fevralında göndərilmişdir və bu işə baxmaq üçün hakim kimi əvvəllər MTN-nin müstəntiqi olmuş Novruz Kərimov təyin edilib.
Cənab Həşimli bu hakimin 15 may 2014-cü il tarixli qərarı ilə ***8 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir.

**4. İsmayılova Xədicə Rövşən qızı.**



**Saxlanma tarixi :** 05 dekabr 2014 cü il.
**İttiham:** CM-nin 125-ci (özünüöldürmə həddinə çatdırma), 179.3.2 (mənimsəmə və israf etmə- külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1(vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui istifadə) maddələri maddəsi ilə ittiham irəli sürülüb.
**Saxlandığı yer:** 4 saylı Cəzaçəkmə Müəssisəsi (qadınlar üçün)
**İş üzrə qısa arayış:** Xədicə İsmayılova 20 ilə yaxındır ki, jurnalist fəaliyyəti ilə məşğul olub, bir sıra müstəqil Kütləvi İnformasiya Vasitələrində çalışıb. O, Azadlıq Radiosunun Bakı bürosunun rəhbəri, sonra isə büronun ictimai-siyasi verlişinin aparıcısı olub.
Öz yazılarına görə 2001-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin Zərdabi mükafatına layiq görülmüşdür. 24 oktyabr 2012-ci il "Jurnalistikada Qəhrəmanlıq" mükafatına layiq görülüb. 2012-ci ilin fevralında "Gerd Buserius" adına mükafatı alıb.

[4] http://bit.ly/1jDfTch

Xədicə İsmayıl "Exo", "Caspian Business News", "Eurasinaet.org", "Washington Times", "BBC", "Deutche Welle", "Voice of America" (Amerikanın Səsi) kimi kütləvi informasiya vasitələri üçün siyasi və iqtisadi mövzularda yazılar yazıb.

Bundan əlavə o, Azərbaycan prezidenti İlham Əliyevin və ailə üzvlərinin gizli bizneslәri haqda, həmçinin digər yüksək çinli məmurların gizli biznesi haqda onlarla araşdırma yazılarının müəllifidir.
X.İsmayılın həbsi Tural Mustafayevin intihara cəhdinin istintaqı ilə əlaqədardır. 1984-cü təvəllüdlü Mustafayev Tural Bulud oğlu "siçan dərmanı" adlanan maddəni içərək özünə qəsd etməyə çalışıb. Tural Mustafayev sonra bir necə dəfə video açılama yayaraq, Xədicə İsmayıla qarşı olan şikayətindən imtina etdiyini və şikayət ərizəsini prokurorluq orqanlarının təzyiqi altında yazdığını bildirib. O, qeyd edib ki, X.İsmayılın əleyhinə ifadə vermək üçün hüquq mühafizə və xüsusi xidmət orqanları ona təzyiqlər ediblər.
**Qeyd:** X.İsmayılova ilə əlaqədar başqa istintaq və məhkəmə işləri də olub. Belə ki, 2014-cü ilin fevral ayının 17-də Xədicə İsmayılova "Facebook" şəbəkəsində Milli Təhlükəsizlik Nazirliyinin xidməti fəaliyyətinə aid olduğu ehtimal edilən material yayıb. Materialda MTN-in müxalifət partiyalarına casus yerləşdirməsindən bəhs olunur. Jurnalist materialı ona hazırda Fransada yaşayan sabiq MTN zabiti Ramin Nağıyevin 2011-ci ildə ötürdüyünü deyir. Sözügedən materialla əlaqədar Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 284.2-ci (dövlət sirrini yayma) maddəsi ilə cinayət işi başlanıb. İstintaqın gedişi zamanı Xədicə İsmayılovanın ölkədən çıxmasına məhdudiyyət də qoyulmuşdu.
Həbsindən sonra X.İsmayıla qarşı yeni ittihamlar - Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə- külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1(vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui istifadə) maddələri maddəsi ilə ittiham irəli sürülüb.

**X.İsmayıl, onun vəkilləri ona qarşı irəli sürülən ittihamları rədd edirlər və siyasi xarakterli olduğunu bildirirlər.**

1 sentyabr 2015-ci il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən prosesdə X.İsmayıla hökm oxunub. Məhkəmə Xədicə İsmayıla Cinayət Məcəlləsinin 125-ci (Özünü öldürmə həddinə çatdırma) maddəsi üzrə bəraət verilib. Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə - ağır nəticələrə səbəb olduqda) maddələri ilə yekun olaraq 3 ay müddətinə rəhbər vəzifə tutmaqdan məhrum edilməklə 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi həmin hökmü qüvvədə saxlayıb.

**5. Seymur Həzi Məşgül oğlu.**



**Saxlanma tarixi:** 29 avqust 2014 cü il.
**İttiham:** CM-nin 221.3-cü (Xuliqanlıq, silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddəsi.
**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** "Azadlıq" qəzetinin şərhçisi, "Azərbaycan saatı" proqramının aparıcısı, AXCP Rəyasət Heyətinin üzvü Seymur Həzi 2014-cü ilin avqust ayının 29-da saxlanılıb. Ceyranbatan qəsəbəsində Məhərrəm Həsənova adlı şəxs S.Həziyə yaxınlaşaraq sosial şəbəkədə göndərdiyi mesaja cavab verməməsinin səbəbini soruşub və "cavab gözləmədən" S.Həziyə hücum edib.
Bundan bir neçə dəqiqə sonra S.Həzi əraziyə gələn polislər tərəfindən saxlanılıb.
2014-cü ilin avqust ayının 30-da Abşeron rayon Məhkəmənin qərarı ilə S.Həzi barəsində 2 ay həbs-qətimkan tədbiri seçilib.

2015-ci ilin yanvar ayının 29-da Abşeron Rayon Məhkəməsində hakim Şövkət Nəcəfovanın sədrliyi ilə keçirilən prosesdə S.Həzi haqqında 5 il azadlıqdan məhrumetmə hökmü çıxarılıb. S.Həzinin əleyhinə ifadə verən Məhərrəm Həsənov isə 6 ay azadlıqdan məhrum edilib.

5 sentyabr 2015-ci il tarixdə Sumqayıt Apellyasiya Məhkəməsi Seymur Həzinin birinci instansiya məhkəməsinin hökmündən verdiyi apellyasiya şikayətini təmin etməyib.

Məhkəmə prosesi zamanı vəkilləri və S.Həzi ona qarşı irəli sürülən ittihamı qəbul etməyib, ittihamı siyasi sifarişli olduğunu bildiriblər.

---

**6. Quliyev Araz Faiq oğlu**

**Saxlanma tarixi:** 9 sentyabr 2012-ci il
**İttiham:** CM-nin 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*), 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür*



*hərəkətlərdə fəal iştirak etmə*), 283.1 (*milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 14 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab Quliyev Masallıda yerləşən www.xeber44.com internet qəzetin baş redaktorudur, bu saytda yayılan məqalələr əsasən hakimiyyətin din sahəsində apardığı siyasətin tənqidinə, o cümlədən Masallı rayonunda olan sosial problemlərə həsr edilirdi. Bu saytdakı fəaliyyətinə görə cənab Quliyev həbs edildiyi tarixdən əvvəl də dəfələrlə polis bölməsinə aparılıb, ona fəaliyyətinin dayandırmalı olduğu barədə xəbərdarlıq edilib. Bu cür xəbərdarlıq yerli icra hakimiyyəti tərəfindən də dəfələrlə olunub. Həbsindən 2 gün əvvəl, yəni 2012-ci il sentyabrın 6-da cənab Quliyev və onunla birlikdə olan Masallı sakini cənab Ağalı Rza Qorxmaz oğlu polis və mülki geyimdə olan şəxslər tərəfindən saxlanılaraq döyülüblər və Masallı rayon Polis Şöbəsinə aparılıblar. Onlar rəis müavini Əlifağa Kazımovun göstərişi ilə gecə saat 03.00 radələrində sərbəst buraxılıblar.
Sentyabrın 8-də isə saat 21 radələrində cənab Quliyev digər Masallı sakini Tahirov Ziya İbrahim oğlu ilə birlikdə Masallıda keçirilən folklor festivalı çərçivəsində Nizami parkında təşkil edilmiş diskotekaya etiraz ediblər və tənqidi material hazırlamaq məqsədilə əlavə məlumat almaq üçün təşkilatçıları axtarmağa başlayıblar. Lakin ərazidə olan polislər hər iki şəxsi ərazidən uzaqlaşdırıb. Bundan 2 saat sonra yenə həmin əraziyə qayıdan cənab Quliyev və cənab Tahirov diskotekanın sona çatdığını və park ətrafında yalnız polis maşınının olduğunu görmüşlər. Polis maşını onlara yaxınlaşmış və rəis müavini Əlifağa Kazımov onlarla 30 dəqiqəyə qədər söhbət etdikdən sonra ərazini tərk etmişdir. Bundan dərhal sonra 25-30 nəfərlik mülki geyimli dəstə əraziyə gələrək onları təhqir etməyə və daş atmağa başlamışdır, az sonra hadisə ərazisinə gələn polislər hər iki şəxsi döyərək həbs etmişlər. Jurnalistə qarşı xuliqanlıq və polisə müqavimət maddələri ilə ittiham irəli sürülmüşdür. Jurnalistin həbsindən yalnız 11 gün sonra, yəni sentyabrın 20-də onun evində axtarış aparılmış və evdən cənab Quliyevə məxsus olan qumbaranın tapıldığı iddia edilmişdir. 2012-ci ilin dekabrında cənab Quliyevə qarşı baş redaktoru olduğu internet qəzetdə yayılan məqalələrdə dini düşmənçiliyin salınması, ictimai asayişin pozulması, silah saxlama, dövlət bayrağının təhqir edilməsi kimi maddələrlə ittiham irəli sürülmüşdür. Jurnalist Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 05 aprel 2013-cü il qərarı ilə ***8 il müddətinə azadlıqdan məhrum etmə*** cəzasına məhkum edilmişdir. Şirvan Apellyasiya Məhkəməsi 09 yanvar 2014-cü il, Ali Məhkəmə 04 iyul 2014-cü il tarixində hökmü dəyişdirmədən qüvvədə saxlamışdır.
Jurnalistin evində axtarış məhkəmə qərarı olmadan və özünün iştirakı təmin edilmədən aparılıb, axtarış zamanı hal şahidi kimi iştirak etmiş şəxslərin məhkəmədə verdiyi izahatlarla istintaqa verdiyi izahatlar arasında ciddi fərqlər olub, məhkəmə araşdırması zamanı məlum olub ki, hal şahidlərindən biri Şirəliyev Nahid nə oxumağı, nə də yazmağı bacarır (halbuki axtarış haqqında protokola imza atıb və qumbaranın aşkar edildiyini təsdiqləyib), o, işlədiyi fəhlə bazarından həmkarı ilə birgə hal şahidliyi etmək üçün polislər tərəfindən aparıldıqlarını və bunun əvəzində onların hər birinə 20 AZN verildiyini Şirvan Apellyasiya Məhkəməsində bildirib.

Zərərçəkmiş kimi tanınan şəxslərin heç biri cənab Quliyevlə istintaq zamanı üzləşdirməyiblər, onların çoxu polis əməkdaşlarıdır və hamısı məhkəmədə eyni ifadəni verməklə kifayətləniblər, buna baxmayaraq, faktiki olaraq jurnalistin polislərə xəsarət yetirdiyini sübut edən heç bir dəlil ortaya çıxmayıb. Cırılaraq təhqir edildiyi iddia olunan dövlət bayrağı da maddi sübut kimi cinayət işinin materiallarında aşkarlanmayıb.

---

**7. Həsənov Tofiq Xasay oğlu**



**Saxlanma tarixi:** 12 oktyabr 2015-ci il

**İttiham:** Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma külli miqdarda törədildikdə) maddəsi.

**Saxlandığı yer:** Kürdəxanı İstintaq Təcridxanası.

**İş üzrə qısa arayış**: Tofiq Həsənli 12 oktyabr 2015-ci ildə, axşam saat 9 radələrində oğurlanaraq naməlum istiqamətə aparılıb. Beş gün sonra qohumları onun Bakı İstintaq Təcridxanasında (Kürdəxanıda) olmasını biliblər.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə Azadlıq Radiosuna deyib ki, şair Tofiq Həsənli qanunsuz olaraq külli miqdarda narkotik satmaqda şübhəli bilindiyinə görə saxlanılıb və onun barəsində Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə cinayət işi başlanıb, məhkəmə qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

45 yaşlı şair Tofiq Həsənli Lənkəranda yaşayıb. O, dükanda satıcılıq edirmiş. Şairin anası Zərifə Cəlalova bildirib ki, oğlu saxlanıldığı gün dükandan çıxmağa hazırlaşırmış. O dükanı bağlayıb çıxmaq istəyəndə içəri narkotik istifadəçisi olan şəxs girib. Ananın sözlərinə görə oğlu həmin şəxsi küçəyə çıxarıb dükanı bağlayıb. Tofiq Həsənli Lənkərandakı bazarın qarşısına gələndə isə bir neçə nəfər onu saxlayıb Lənkəran rayon Polis Şöbəsinə aparıb.

Zərifə Cəlalova oğlunun yazdığı satirik şeirlərə görə həbs edildiyini bildirir. "Söz azadlığıdırsa, mənim də balam söz deyib, şeir yazıb. Bundan ötrü adamı tutarlar? Mənim balamı tutublar. Ayıb olsun onu tutanlara. Mənim balamın üstünə şər atırlar", deyə o, bildirib.

Tofiq Həsənlinin yaxınları onun şeirlərinə görə həbs olunduğunu bildirirlər. Şair 2015-ci ilin yanvarında Azadlıq Radiosuna müsahibəsində demişdi ki, şeirlərinə görə hədələnir və onu həbs etmək istəyirlər.

Tofiq Həsənli hakimiyyəti tənqid edən satiriq şeirləini videoya çəkərək www.**youtube**.com-a yerləşdirib öz facebook səihəsində paylaşırmış.

## 8. Kərimov Fərəc Raqif oğlu



**Saxlanma tarixi:** 23 iyul 2014-cü il
**İttiham:** CM-nin 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*) maddəsi
**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Müxalif Müsavat Partiyasının Gənclər Təşkilatının üzvü olan (Həbsindən sonra partiyanın başqan müavini təyin edilib) cənab Kərimov partiyanın rəsmi saytı www.musavat.org.az-un idarəçisidir. Bundan başqa o sosial şəbəkələrdə fəallığı ilə seçilmiş və tənqidi materialların yayılması üçün çoxsaylı üzvləri əhatə edən qrupların yaradıcısı və idarəçisi olmuşdur. Cənab Kərimov Facebook-da 100000-dən artıq üzvü olan və təxminən bir il əvvəl bağlanan "İstefa" qrupunun idarəçisi olmuş, bu qrup bağlandıqdan sonra "BASTA" qrupunu yaratmışdır. Hakimiyyəti tənqid edən bu qrupun 116000-ə qədər üzvü var.
Cənab Kərimov iyulun 23-də anasını xəstəxanaya apararkən (qardaşı bir neçə gün əvvəl həbs edildiyi üçün anası iflic olmuşdur) qara maskalı şəxslər tərəfindən saxlanılaraq aparılmış, onun barəsində saatlarla heç bir məlumat almaq mümkün olmamışdır, nəticədə cənab Kərimovun yaxınlarına və vəkilinə saxlanması barədə məlumat vermək hüququ pozulmuşdur. Nərimanov rayon Məhkəməsi iyulun 25-də sosial şəbəkə fəalı barədə onun vəkilinə xəbər etmədən 3 aylıq həbs qətimkan tədbirinin seçilməsi barədə qərar qəbul edib, qərarda cənab Kərimovun Bakı İstintaq Təcridxanasına köçürülməli olduğu vurğulansa da, o, həbsi həyata keçirmiş Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə qaytarılmışdır, vəkili onunla yalnız

avqustun 1-də məhkəmədə görüşə bilmiş, vəkilə müdafiə etdiyi şəxslə görüş hüququ isə yalnız avqustun 2-də tanınmışdır. Fərəc Kərimov yalnız iyulun 30-da dörd gün aclıq aksiyası keçirdikdən sonra Bakı İstintaq Təcridxanasına köçürülmüşdür.
Fərəc Kərimov Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində saxlanılarkən fiziki təzyiqə və şantaja məruz qaldığını, zorla ifadə verməyə məcbur edildiyini bildirmişdir. 6 may 2015-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə F.Kərimov 6 il 6 ay azadlıqdan məhrum edilib.
Cənab Kərimovun həbsindən bir neçə gün öncə onun qardaşı Sirac Kərimov da eyni ittihamla həbs edilmiş, evdə axtarış zamanı atalarına məxsus noutbuk da götürülmüş və müstəntiqlə söhbət zamanı atasına müxalif mövqeyi ilə bağlı suallar vermişlər.

## 9. Məmmədov Hilal Əlif oğlu

**Saxlanma tarixi:** 21 iyun 2012-ci il




**İttiham:** CM-nin 234.4.3 (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*), 274 (*Dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə)* və 283-cü (*Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri
**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab Məmmədov talış dilində dərc edilən "Tolışi Sədo" qəzetinin baş redaktorudur və eyni zamanda həbsinə qədər hüquq müdafiə fəaliyyəti ilə də məşğul olurdu. Həm qəzetdə, həm də sosial şəbəkələrdə, xüsusən Facebook-da hakimiyyətin yürütdüyü siyasətlə bağlı sərt tənqidi fikirlər səsləndirmişdir. Cənab Məmmədova qarşı ilkin olaraq narkotik maddə ittihamı irəli sürülsə də, sonradan ona qarşı narkotik ittihamı ilə heç bir əlaqəsi olmayan daha ağır ittihamlar irəli sürüldü. Bakı Ağır Cinayətlər Məhkəməsinin 27 sentyabr 2013-cü il tarixli qərarı ilə ***5 il***

***müddətinə azadlıqdan məhrum edilmişdir***. Bakı Apellyasiya Məhkəməsi 2013-cü il dekabrın 25-də bu qərardan verilən şikayəti təmin etməyib.
Jurnalist Amnesty Internaional təşkilatı tərəfindən vicdan məhbusu kimi tanınıb[5], onun saxta ittihamlarla həbs edilməsi və azadlığa buraxılmasının zəruriliyi ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin bəyanatında[6] və Avropa Şurası İnsan Haqları Komissarının hesabatında öz əksini tapıb[7].

---

## 10. Məmmədov Ömər Elyar oğlu



**Saxlanma tarixi:** 24 yanvar 2014-cü il
**İttiham:** CM-nin 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*) maddəsi
**Saxlandığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** Sosial şəbəkələrdə, xüsusən Facebook-da fəal olan cənab Məmmədov bu sosial şəbəkədə satirik "AzTV-dən seçmələr" səhifəsinin yaradıcılarından və adminlərindən biri olub. Bloqu[8] olan cənab Məmmədov bir qrup gənclə "Axın" Hərəkatını təsis edib. 1995-ci il doğumlu cənab Məmmədov Vətəndaş Həmrəyliyi Partiyasının da üzvüdür.
Cənab Məmmədov 2014-cü il yanvarın 20-də axşam saatlarında Bakıya qayıdıb (o Şimali Kipr Türk Respublikasında yerləşən Beynəlxalq Kipr Universitetinin tələbəsidir), yanvarın 21-də səhər saatlarında Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb, onun noutbukuna baxış keçirilib və sosial şəbəkədəki fəaliyyətini bir daha yoxlayıblar, müəyyən ediblər ki, onun artıq heç bir fəal onlayn fəaliyyəti yoxdur və bundan sonra cənab Məmmədov sərbəst buraxılıb. Yanvarın 24-də isə, o, mülki geyimli şəxslər tərəfindən saxlanılaraq Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparılıb, burada onun üzərindən 6 qram heroin aşkarlandığı iddia edilib və ona qarşı ittiham sürülüb. Həmin günü Nəsimi rayon Məhkəməsinin qərarı ilə blogger barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib.
2013-cü ilin noyabrında Facebook-da olan "Yaltaqlara dur deyək" səhifəsinin admini Əbdül Əbilov həbs edilən zaman cənab Məmmədov polis tərəfindən axtarılıb, onun

---

5 http://bit.ly/1gJG6nt
6 http://bit.ly/O5n8Lm
7 http://bit.ly/1gpkKdm
8 http://bit.ly/1o7W7rs

Bakıda olmadığı müəyyən edildikdən sonra bloggerin atası Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılıb. Bloggerin Facebook-dakı fəaliyyətinə görə onun atasına təzyiqlər edilib, hətta atasının telefonu ilə Kiprdə olan cənab Məmmədovla telefon əlaqəsi yaradılıb, ondan bütün işlətdiyi səhifələrdən uzaqlaşması tələb olunub. Cənab Məmmədov hazırda 7 üzvü saxta ittihamlarla həbsdə olan "NİDA" Hərəkatının fəal üzvlərindən biri olub, özünə və yaxınlarına edilən təzyiqlər nəticəsində bu təşkilatdan uzaqlaşsa da, həbs edildikdən sonra yenidən ora qayıtdığını bəyan edib. Blogger 4 iyul 2014-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***5 il müddətinə azadlıqdan məhrum edilmişdir.***

## 11. Mirqədirov Rauf Həbibulla oğlu



**Saxlanma tarixi:** 19 aprel 2014-cü il
**İttiham:** CM-nin 274 (*Dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi,*

*ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə) maddəsi*
**Saxlandığı yer:** Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanası
**İş üzrə qısa arayış:** Uzun illər ərzində rus dilində çap edilən "Zerkalo" qəzetinin əməkdaşı olan cənab Mirqədirov 2010-cu ildən Türkiyədə bu qəzetin müxbiri kimi işləməyə başlayıb. Cənab Mirqədirov regiondakı vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Rusiyanın müdaxiləsi, Azərbaycan hakimiyyətinin mövqeyinin analiz edildiyi yazılarla tanınıb.

Cənab Mirqədirov 2014-cü il aprelin 19-da "deportasiya" adı ilə Türkiyədən çıxarılaraq Azərbaycana göndərilib. Türkiyə rəsmiləri cənab Mirqədirovun deportasiyasına qərar verməmişdən bir neçə gün əvvəl jurnalistin Türkiyədə akkreditasiyasını ləğv ediblər. Cənab Mirqədirov Azərbaycana çatan kimi Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları tərəfindən həbs edilib. O, 2008-ci ildən Ermənistana casusluq etməkdə ittiham edilərək barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib. MTN-in istintaq təcridxanasında saxlanılan cənab Mirqədirov bəyan edib ki, o, Sülh və Demokratiya İnstitutunun Azərbaycan-Ermənistan münaqişəsinin həlli üzrə xalq diplomatiyası layihələri çərçivəsində dəfələrlə Ermənistanda olub,

həmişə də həmin tədbirlərdə Azərbaycanın maraqlarını müdafiə edib və heç vaxt Azərbaycanın maraqlarına qarşı çıxmayıb, eyni zamanda ona qarşı irəli sürülmüş ittihamları qondarma adlandırıb. Hakimiyyətin həmişə hədəfində olan Sülh və Demokratiya İnstitutunun sədri Leyla Yunus da bu iş üzrə dindirilmək üçün faktiki olaraq ölkədən buraxılmayıb, onun və həyat yoldaşının pasportları əllərindən alınıb, saatlarla ifadəsi alınıb, evində və ofisində axtarış həyata keçirilib, 30 iyul 2014-cü ildə isə həbs edilib (onun həbsi barədə bu hesabatda ayrıca məlumat yerləşdirilib).

Cənab Mirqədirovun çalışdığı “Zerkalo” qəzetinin ofisində axtarış aparılıb, sənədlər və baş redaktor Elçin Şıxlının kompüteri götürülüb, bundan sonra qəzet faktiki olaraq çap versiyasının buraxılmasını dayandırıb. Jurnalistin heç vaxt yaşamadığı valideynlərinin də evində axtarış aparılıb və axtarışdan bir gün sonra onun atası Həbibulla Mirqədirov dünyasını dəyişib, jurnalist 3 gün müddətinə dəfndə və yas mərasimlərində iştirak etmək üçün evə buraxılıb.

Jurnalist barəsində həbs qətimkan tədbirinin seçilməsi və ümumilikdə ona qarşı ittihamın irəli sürülməsi qanunvericiliyin bir sıra müddəalarının pozulması ilə müşayiət edilməkdədir. Jurnalist barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı verilmiş apellyasiya şikayətinə baxılan prosesdə iş üzrə cinayət-prosessual rəhbərliyi həyata keçirən prokuror deyil, Baş Prokurorluğun başqa bir əməkdaşı iştirak etmişdir, halbuki cinayət-prosessual rəhbərliyi həyata keçirən prokurorun bu prosesdə iştirakı qanunla tələb edilir. Belə ki, həmin prokuror həbs barədə təqdimatı məhkəmə prosesi zamanı əsaslandırmalıdır. Məhkəmə həbs qətimkan tədbirini seçmək üçün istintaq orqanı tərəfindən təqdim edilən ilkin sübutlara istinad etməlidir, bu sübutlar cinayət işinin materialları hesab olunur və qanunvericiliyə görə həm təqsirləndirilən şəxsin, həm də onun müdafiəçilərinin bu materiallarla tanış olmaq hüququ olsa da, məhkəmə bu materialları nə jurnalistə, nə də onun vəkillərinə təqdim etməyib. Başqa sözlə desək, jurnalistə qarşı irəli sürülmüş bu cür ağır ittihamın nəyə əsaslanmasını və hansı ilkin sübutların olmasını müəyyən etmək mümkün olmamışdır.

Bundan əlavə jurnalistin Azərbaycana verilməsi faktiki deportasiya deyil, ekstradisiya olduğundan, cənab Mirqədirov bu məsələlərlə məşğul olmaq üçün Türkiyədən olan vəkilin tutulması üçün vəsatətlə çıxış edib, lakin jurnalistin adından etibarnamənin verilməsi üçün notariusun təcridxanaya buraxılması istintaq tərəfindən qadağan edilib, bu haldan verilən şikayətlər isə məhkəmələr tərəfindən əsassız olaraq təmin edilməyib.

Sərhədsiz Reportyorlar, Human Rights Watch, ABŞ Helsinki Komissiyası, Birləşmiş Krallığın Xarici İşlər Nazirliyi və digər təşkilatlar Rauf Mirqədirovun həbsi ilə bağlı öz narahatçılıqlarını bildiriblər. Cənab Mirqədirov ”Həsən Bəy Zərdabi" və Norveçin Fritt Ord təşkilatı ilə Almaniyanın Tsayt-Ştiftunq Fondunun təsis etdiyi “Söz azadlığı” beynəlxalq mükafatını alıb, 2005-ci ildən Azərbaycan Respublikasının

əməkdar jurnalistidir. Əvvəllər "Demokratik Azərbaycan", "Bu gün", "Millət" kimi qəzetlərdə çalışıb.

---

**12. Ramazanov Rəşad Ağaəddin oğlu**




**Saxlanma tarixi:** 9 may 2013-cü il
**İttiham:** CM-nin 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*) maddəsi
**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Dindar olan cənab Ramazanov aktiv şəkildə sosial şəbəkələrdə, xüsusən Facebook-da (https://www.facebook.com/HAQQINqulu777) hakimiyyətin apardığı siyasəti, prezident də daxil olmaqla yüksək rütbəli məmurları tənqid edən mikrobloqlar paylaşırdı. Ona da Azərbaycanda fəallara qarşı geniş şəkildə istifadə edilən narkotik maddə ittihamı irəli sürülüb. Cənab Ramazanov **həbs edildikdən sonra qanunsuz olaraq 11 gün müddətində** Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılıb, yerli və beynəlxalq təşkilatların çağırışından sonra, o, istintaq təcridxanasına köçürülüb. Tanınmış vəkil Aslan İsmayılov Ramazanovun bu idarədə işgəncələrə və döyülməyə məruz qaldığını bəyan edib və bunun araşdırılması üçün müvafiq qurumlara müraciət edib, lakin bu iddialar nəinki araşdırılıb, İsmayılovun özü polis tərəfindən saxlanılaraq ona bu cür bəyanatları verməməsi, əks halda cəzalandırılacağı ilə bağlı xəbərdarlıq edilib. Bundan bir müddət sonra isə vəkil İsmayılov Vəkillər Kollegiyasından uzaqlaşdırılıb.
Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 noyabr 2013-cü il qərarı ilə cənab Ramazanov ***9 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 16 yanvar 2014-cü il tarixində, Ali Məhkəmə isə 14 may 2014-cü il tarixində bu hökmü olduğu kimi qüvvədə saxlayıb.

Cənab Ramazanov Amnesty İnternational təşkilatı tərəfindən "vicdan məhbusu" kimi tanınıb[9].

## 13. Yaqublu Tofiq Rəşid oğlu

**Saxlanma tarixi:** 04 fevral 2013-cü il
**İttiham:** CM-nin 220.1-ci (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** Cənab Yaqublu "Yeni Müsavat" qəzetinin əməkdaşı, o cümlədən müxalifətdə olan Müsavat Partiyasının Başqan müavinidir. Mütəmadi olaraq həm çalışdığı qəzetdə, həm də sosial şəbəkələrdə, xüsusən Facebook-da tənqidi yazılarla çıxış edirdi, o cümlədən siyasi fəaliyyətlə də məşğul olurdu.




2013-cü il yanvarın 23-də İsmayılı rayonunda yerli icra hakimiyyəti başçısının istefası tələbi ilə etirazlar keçirilmiş, etirazlar qarşıdurmalara gətirib çıxarmışdır. Cənab Yaqublu hadisədən bir gün sonra yanvarın 24-də müxbir kimi İsmayıllı rayonuna səfərə gəlmiş, şəhər mərkəzində polis tərəfindən saxlanılaraq məcburi şəkildə Bakıya geri qaytarılmışdır.
Cənab Yaqublu məhz İsmayıllı hadisələri ilə bağlı bu rayona səfər etdikdən sonra həbs edilmişdir. Yanvarın 26-dan etibarən ölkədə yayımlanan telekanalların əksəriyyəti Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin yaydığı məlumata istinad edərək İsmayıllı hadisələrinə REAL Hərəkatının sədri İlqar Məmmədov və jurnalist, Müsavat Partiyasının Başqan müavini Tofiq Yaqublunun səbəb olduğunu bildirərək təqsirsizlik prezumpsiyasını pozmuş və cənab Yaqublunu cinayətkar adlandırmışlar.
Yanvarın 29-da cənab Yaqublu Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə çağırılıb, onun İsmayıllı səfəri ilə bağlı izahatı alındıqdan sonra sərbəst buraxılıb. Fevralın 4-də yenidən istintaqa çağırılan cənab Yaqublu barəsində Nəsimi rayon Məhkəməsinin qərarı ilə 2 aylıq həbs qət-imkan tədbiri seçilib, bu həbs indiyə qədər davam edir.
Cənab Yaqublu İsmayıllı rayonuna "Yeni Müsavat" qəzetinin təqdim etdiyi ezamiyyə vərəqəsi əsasında bu qəzetin müxbiri kimi səfər edib, şəhərin mərkəzində digər

[9] http://bit.ly/1jYMJQI

jurnalistlərlə birgə müşahidə apardıqdan sonra polis tərəfindən saxlanılaraq İsmayıllı rayon Polis Şöbəsinin rəis müavini Şöhrət Kərimovun yanına aparılıb, qısa söhbətdən sonra Yaqublu sərbəst buraxılıb və polisin müşayiəti ilə rayonu tərk edib. Cənab Yaqublunun şəhərin mərkəzində durması və polislər tərəfindən saxlanılması, o cümlədən həmin vaxt heç bir aksiyanın və ya zorakılığın baş vermədiyi jurnalistlər tərəfindən çəkilmiş kadrlarda da aydın şəkildə görünür. Məhkəmə zamanı istintaq cənab Yaqublu ilə eyni ittihamın irəli sürüldüyü İlqar Məmmədovla nə İsmayıllıya səfər etdikdən qabaq, nə də İsmayıllıda olarkən görüşdüyünü və cinayət planlaşdırdığını sübut edə bilməyib.
Hadisələrə görə təqsirləndirilən İsmayıllı sakinləri cənab Yaqublunu tanımadıqlarını məhkəməyə bildiriblər. Cinayət işində zərərçəkmiş kimi tanınan bütün şəxslər təqsirləndirilənlərə qarşı heç bir maddi və mənəvi tələblərinin olmadığını öz ifadələrində vurğulayıblar.
Cənab Yaqublu Şəki Ağır Cinayətlər Məhkəməsinin 17 mart 2014-cü il qərarı ilə ***5 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir.
Cənab Yaqublu Amnesty İnternational təşkilatı tərəfindən vicdan məhbusu kimi tanınıb[10]. Avropa Şurasının İnsan Haqları üzrə Komissarı öz hesabatında jurnalistə qarşı irəli sürülmüş ittihamın inandırıcı olmadığını vurğulamışdır[11]. Avropa İnsan Haqları Məhkəməsi cənab Yaqublunun həbsi ilə bağlı verilmiş şikayəti icraata götürüb.

5 noyabr 2015-ci il tarixdə Avropa İnsan Hüquqları Məhkəməsi T.Yaqublunun işi üzrə qərarını açıqlayıb. Məhkəmə Avropa İnsan Haqları Konvensiyanın 5-ci maddəsinin birinci bəndinə əsasən Tofiq Yaqublunun dərhal həbsdən azad olunmasına və ona 24 min avro təzminat ödənilməsi barədə qərar verib.

---

[10] http://bit.ly/1gJG6nt
[11] http://bit.ly/1gpkKdm

## B) *Hüquq müdafiəçiləri*

### a. "Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi"nin işi

"Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi" (SMDT) İctimai Birliyi partnyor olduğu Könüllülərin Beynəlxalq Əməkdaşlığı İctimai Birliyi (KBƏİB) ilə 2013-cü ilin oktyabrında Azərbaycanda keçirilən prezident seçkilərinin monitorinqini aparmış və səsvermə günündən 1 gün sonra, yəni oktyabrın 10-da seçkinin nəticələri barədə ilkin rəy[12] təqdim etmişdir. Rəydə azad və ədalətli seçkilərin keçirilməsi üçün zəruri olan seçkiqabağı şəraitin olmadığı və səsvermənin ciddi qanun pozuntuları ilə keçirildiyi qeyd olunub. ATƏT İnsan Haqları və Demokratik Təsisatlar Bürosu da Azərbaycanda keçirilən seçkilərlə bağlı verdiyi ilkin tənqidi Rəyində öz müşahidələri ilə yanaşı SMDT-nin rəyindən də istifadə edib.
Bu rəyin açıqlanmasından qısa müddət sonra, oktyabrın 31-də SMDT-nin ofisində Baş Prokurorluğun Ağır Cinayətlər üzrə İstintaq İdarəsi tərəfindən axtarış aparılıb, SMDT-yə və partnyor təşkilatlara aid olan maliyyə və hüquqi sənədlər və iki ədəd kompüter götürülüb. Baş Prokurorluq açıqlama yayaraq, SMDT-də yol verilmiş qanun pozuntuları ilə bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində müvafiq araşdırmalara başlanıldığını bəyan edib. Cənab Məmmədlinin, o cümlədən SMDT-nin icraçı direktoru Bəşir Süleymanlı və partnyor təşkilat olan KBƏİB-nin rəhbəri Elnur Məmmədovun ölkədən çıxması qadağan edilib.
SMDT təkcə 2013-cü il prezident seçkiləri zamanı deyil, ondan qabaq da Azərbaycanda keçirilmiş seçkilər zamanı bütün ölkə boyu müşahidələrin aparılmasını təşkil etmiş, yol verilmiş nöqsan və saxtakarlıqlar barədə yerli və beynəlxalq ictimaiyyəti mütəmadi şəkildə məlumatlandırmışdır. Hökumətyönlü mətbuatda SMDT-yə və onun aparıcı şəxslərinə qarşı mütəmadi şəkildə qarayaxma kampaniyaları aparılmış, onlar xain adlandırılmışlar. SMDT 2012-ci ilin mayında Bakıda keçirilmiş Avroviziya mahnı yarışması ərəfəsində keçirilmiş Sing for Democracy kampaniyasının təşəbbüskarlarından və fəal iştirakçılarından biri olmuşdur.

## 14. Məmmədli Anar Asəf oğlu

---
12 http://bit.ly/1p60p0e



**Saxlanma tarixi:** 16 dekabr 2013-cü il
**İttiham:** CM-nin 179.3.2 (*mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama, külli miqdarda törədildikdə),* 192.2.2 (*qanunsuz sahibkarlıq külli miqdarda gəlir əldə etməklə törədildikdə*), 213.1 (*xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma*), 308.2 (*vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə*) və 313-cü (*vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə*) maddələri
**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** "Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi" İctimai Birliyinin (SMDT) sədri olan Anar Məmmədli yerli və beynəlxalq ictimaiyyət arasında tanınan hüquq müdafiəçisi, seçkilər və siyasi azadlıqlar üzrə ekspertdir. SMDT işi üzrə açılmış cinayət işinin nəticəsində cənab Məmmədli bir sıra beynəlxalq tədbirlərə, xüsusən 2013-cü ilin noyabrında Vilnüsda keçirilmiş Avropa Birliyi Şərq Tərəfdaşlığı Sammitinə qatıla bilməyib.
Cənab Məmmədli oktyabrın sonlarından (cinayət işinin açıldığı vaxtdan) mütəmadi olaraq istintaqa çağırılıb və ifadə vermək üçün hər dəfə istintaqa gedib, bununla belə dekabrın 16-da növbəti dindirilmədən sonra cənab Məmmədli İstintaq İdarəsi tərəfindən saxlanılıb və elə həmin gün Nəsimi rayon Məhkəməsi cənab Məmmədli barəsində 3 aylıq həbs qətimkan tədbiri seçib. 2014-cü il martın 6-da Nəsimi rayon Məhkəməsi istintaq orqanının vəsatətini təmin edərək cənab Məmmədli barəsində seçilmiş həbs qətimkan tədbirinin vaxtını 2014-cü il iyunun 16-dək artırıb. Martın 19-da isə cənab Məmmədliyə qarşı iki yeni ittiham – mənimsəmə və ya israf etmə və vəzifə saxtakarlığı irəli sürülüb.
Cənab Məmmədlinin həbsindən dərhal sonra Amnesty İnternational təşkilatı onu vicdan məhbusu kimi tanıyıb[13], bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə həmməruzəçiləri cənab Məmmədlinin həbsi ilə bağlı narahatçılıqlarını ifadə ediblər və onun azad edilməsinin zəruriliyini vurğulayıblar[14].
Cənab Məmmədli Bakı Ağır Cinayətlər Məhkəməsinin 26 may 2014-cü il tarixli hökmü ilə ***5 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdir.***
Cənab Məmmədli və onun vəkilləri ona qarşı irəli sürülən ittihamları rədd edərək bunun siyasi xarakterli olduğunu bildiriblər.

---

[13] http://bit.ly/1fCF7kn
[14] http://bit.ly/1hKTcP1

## 15. Rüstəmov Əliabbas Fəxrəddin oğlu

**Saxlanma tarixi:** 28 iyun 2014-cü il
**İttiham:** CM-nin 312.2-ci (*vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə*) maddəsi
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** Əliabbas Rüstəmov “Yasavul” hüquq şirkətinin rəhbəri və tanınmış vəkildir. Həbsindən əvvəl cənab Rüstəmov hakimiyyətin açıq tənqidçilərindən biri kimi çıxış edib. Facebook profilində ardıcıl olaraq ölkədəki problemlərlə bağlı sərt tənqidlər söyləyib və tənqidi yazıları paylaşıb. Əliabbas Rüstəmov Azərbaycanda 2013-cü ildə keçirilən prezident seçkilərində müxalif blok olan Milli Şuranın namizədi Cəmil Həsənlini dəstəkləyib və onun mitinqlərində iştirak edib. Seçkidən sonra da Milli Şuranın keçirdiyi tədbirlərə, ictimai dinləmə və marafonlara qatılıb.

Əliabbas Rüstəmov həbsindən öncə vicdan məhbusu Anar Məmmədlinin (SMDT rəhbəri) vergi ittihamı ilə bağlı məhkəmə prosesində onun nümayəndəsi olmaq üçün müraciət edib. Xatırladaq ki, o, bu sahə üzrə çox məşhur vəkil sayılır, lakin inzibati yollarla onun Anar Məmmədlinin müdafiəsində iştirak etməsinə əngəl yaradılıb. Həbsxanada olan Anar Məmmədli Əliabbas Rüstəmovun nümayəndə olmasına razılıq imzasını notariusun iştirakı ilə təsdiq etməli idi, lakin saxlanıldığı təcridxananın rəhbərliyi ona bu şəraiti yaratmayıb.

17 mart 2014-cü ildə isə Əliabbasov Rüstəmov prezident İlham Əliyevə ölkə ictimaiyyətinin diqqətini özünə çəkən çox sərt məzmunlu müraciət ünvanlayıb. Müraciət ilk öncə açıq məktub kimi “Azadlıq” qəzetində dərc edilib, sonradan digər KİV-lərdə və sosial mediada yayılaraq böyük rezonans yaradıb [15]

Dövlət başçısına “ətrafınızda olan yüksək rütbəli şəxslərin faktiki olaraq quldurluq fəaliyyəti barədə dolğun məlumat” sözləri ilə başlayan həmin müraciətdə 100 milyonlarla məbləğdə büdcə vəsaitinin oğurlanması barədə faktlar sadalanır. Bu məktubdan sonra Əliabbas Rüstəmovun həbs ediləcəyi deyilirdi və 28 iyun 2014-cü ildə, bu, doğrudan da baş verdi. Əliabbas Rüstəmov həbs olunan gün yalnız “Azadlıq” qəzetinin müxbiri ilə danışmağa macal tapıb. “Saxlanılan gün Əliabbas Rüstəmov mənə zəng elədi və rüşvət almaqda ittiham olunduğunu dedi. O özünün saxlanılmasını sifarişli və prezidentə müraciətlə bağlı olduğunu düşünür” - Azadlıq qəzetinin müxbiri Vidadi Məmmədov həmin gün BBC Azərbaycancaya vəkilin sözlərini çatdırıb.[16]




---
[15] (Müraciətin mətni: http://www.azadliq.info/xeberler-menu/311-son-xbrlr/
mueracit.html).
[16] ( http://www.bbc.co.uk/azeri/azerbaijan/2014/06/140630_aliabbas_rusta

"Vəkilin öz müştərisindən necə rüşvət ala bilər və bunu necə iddia etmək olar?!" deyə yerli mətbuat Əliabbas Rüstəmova qarşı irəli sürülən rəsmi ittihamı "absurd" adlandırıb. Əliabbas Rüstəmovun həbsi tənqidi mövqeyi, müxalif mövqeli insanları müdafiə etməsi və dövlət başçısına sərt açıq məktub yazması ilə bağlıdır.

6 noyabr 2015-ci il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsində Əliabbas Rüstəmovun cinayət işi üzrə məhkəmə başa çatıb. Hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hakimlər kollegiyasının hökmünə əsasən Əliabbas Rüstəmov 7 il müddətinə azadlıqdan məhrum edilib.

**16. Cəfərov Rəsul Ağahüseyn oğlu**

**Saxlanma tarixi:** 2 avqust 2014-cü il



**İttiham:** *Cinayət Məcəlləsinin 192.2.2-ci(qanunsuz sahibkarlıq külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.1-ci Xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma), 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə)*
**Saxlandığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** 17 avqust 1984-cü ildə Bakı şəhərində anadan olub. Hüquqşünas ixtisası üzrə bakalavr və magistr təhsili alıb. 2007-ci ildən Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunda (RATİ) hüquqşünas kimi fəaliyyətə başlayıb. 2009-cu ilin avqustundan Televiziya və Alternativ Media İnkişaf Mərkəzi İctimai Birliyinin sədri olub. REAL birliyinin İdarə heyətinin üzvüdür.

2010-cu ildə İnsan Haqları Klubunun təsisçilərindən olub və hüquq müdafiəsi ilə məşğul olan bu ictimai təşkilata rəhbərlik edib. Həbs olunarkən Rəsul Cəfərov Hüquqi Müdafiə və Maarifləndirmə Cəmiyyətinə rəhbərlik edirdi. Gənc fəalların və siyasi məhbusların hüquqlarının ardıcıl müdafiəsi ilə məşğul olan Rəsul Cəfərov bir çox kampaniyaların koordinatorlarından olub. 2012-ci ildə Bakıda keçirilən «Eurovision» mahnı yarışması ərəfəsində keçirilən «Sing for Democracy» kampaniyası (bu kampaniya beynəlxalq mükafata da layiq görülüb) da ölkədə insan haqlarının durumunun yaxşılaşdırmağa yönəlmişdi və beynəlxalq miqyasda maraq yaradan bu kampaniya hakimiyyət tərəfindən qəzəblə qarşılanmışdı. Rəsul Cəfərov həmin kampaniyanın təşkilatçılarından biri idi və sonradan onu "Art for Democracy" adı ilə davam etdirirdi. Onun "Art for Democracy" çərçivəsində təşkil etdiyi tədbirlərə qadağa qoyulmuşdu. Bakıdakı xarici mehmanxanalar da hakimiyyətin təzyiqi ilə bu tədbirlərə verdiyi yerdən sonradan imtina etmişdilər. Rəsul Cəfərov eyni zamanda 2012-ci ildə Azərbaycanda keçirilən BMT-nin İnternet İdarəçiliyi Forumu ərəfəsində Azərbaycanda internet azadlığının real durumunu beynəlxalq diqqətə çatdırmaq üçün başladılan "Onlayn İfadə Təşəbbüsü" kampaniyasının koordinatoru olub və hazırlanmış geniş hesabatın müəlliflərindən biridir.

Rəsul Cəfərov son illərdə Azərbaycanda insan haqlarının ağır durumu ilə bağlı beynəlxalq miqyasda ən fəal iş aparan hüquq müdafiəçilərindən biri idi. Sərt tənqidləri və hesabatları ilə beynəlxalq təşkilatların tribunalarından çıxış edirdi. Azərbaycanda siyasi məhbus problemi ilə çox ciddi şəkildə məşğul olmağa başlayan Cəfərov siyasi məhbusların dolğun və əsaslı siyahısını tərtib etməyə başlamışdı. 24 iyun 2014-cü ildə Rəsul Cəfərov siyasi məhbus siyahısını AŞ PA-nın sessiyasında təqdim etdi. Bundan sonra isə Cəfərov ondan bir neçə gün öncə həbs həbs edilən tanınmış hüquq müdafiəçisi Leyla Yunusla birlikdə siyasi məhbusların vahid siyahını tərtib etməyə başlamışdılar. Bu işdə prinsipal mövqedə duran hüquq müdafiəçiləri və təşkilatlar da iştirak edirdi. Bu sahədə vahid siyahının və mövqeyin olması ona görə lazım idi ki, hakimiyyət beynəlxalq ictimaiyyəti çaşdıra bilməsin və özünə yaxın hüquq müdafiəçiləri vasitəsi ilə siyasi məhbus problemini arxa plana keçirə bilməsin. Bu siyahı AŞ PA-nın yeni təyin etdiyi "Azərbaycanda insan haqları" üzrə məruzəçi Pedro Agramunta təqdim ediləcəkdi. Vahid siyahı üzrə razılıq əldə olunduğundan bir neçə gün sonra Leyla Yunus, ardınca isə Rəsul Cəfərov həbs edildi. Həbsindən öncə ona qarşı hər hansı ittiham irəli sürülmədiyi halda qanunsuz olaraq ona ölkədən çıxmaq qadağan edilmişdi, bank hesablarına həbs qoyulmuşdu.
Rəsul Cəfərov ona qarşı sürülən ittihamları qəbul etmir və hüquq müdafiə fəaliyyətinə görə həbs edildiyini bildirir.
Cəfərovun həbsi əsassız və onun barəsində həbs qətimkan tədbir seçilməsi isə xüsusi qərəzlidir. Onun həbsi hakimiyyətə yönələn tənqidləri ilə, insan haqlarının ağır durumu ilə bağlı çıxışları ilə, xüsusən də siyasi məhbus problemini qaldırması və bu sahədə prinsipal mövqe sərgiləməsi ilə bağlıdır.

Beynəlxalq və yerli hüquq müdafiə təşkilatları Rəsul Cəfərovun həbsini siyasi sifarişli adlandırıblar. Beynəlxalq Amnesty İnternational təşkilatı onu vicdan məhbusu elan edib.
2015-ci ilin aprel ayının 16-da Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Rəsul Cəfərov 6 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

31 iyul 2015-ci il tarixdə Bakı Apellyasiya Məhkəməsinin hakimi Həsən Əhmədovun sədrliyi ilə keçirilin prosesdə Rəsul Cəfərovla bağlı hökm qismən dəyişib, onun cəzası 3 ay azaldıb.

**17. Əliyev İntiqam Kamil oğlu**



**Saxlanma tarixi:** 8 avqust 2014-cü il
**İttiham:** *Cinayət Məcəlləsinin 192.2.2-ci(qanunsuz sahibkarlıq külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.1-ci Xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma), 308.2-ci* 308.2-ci *(Vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə)*
**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:**
"Hüquq Maarifçiliyi Cəmiyyəti" ictimai birliyinin rəhbəri, tanınan hüquq müdafiəçisi İntiqam Kamil oğlu Əliyev 20 ilə yaxındır ki, vəkillik fəaliyyəti və hüquq müdafiəçiliyi ilə məşğul olur. O, hüquqşünas kimi Avropa İnsan Hüquqları Məhkəməsinə 300-dən çox şikayət ünvanlayıb. 23 işi uğurla başa vurub. Yerli universitetlərdə mülki, mülki-prosessual, qeyri-kommersiya hüququ, insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri fənlərindən dərs deyib. Bir sıra beynəlxalq qurumların (ATƏT, Avropa Şurası, GTZ və s.) qanunvericilik və insan hüquqları məsələləri üzrə ekspertidir. 20-dən çox kitabın müəllifidir. 2013-cü il martın 4-də o, «People in Need» insan haqları təşkilatının mükafatına layiq görülüb.
Əliyev özü, vəkilləri və hüquq müdafiəçiləri ona qarşı irəli sürülmüş ittihamları qəbul etmirlər, siyasi motivi sayırlar və hesab edirlər ki, onun həbsi hüquq müdafiəçiliyi fəaliyyəti ilə bağlıdır. Əliyev 2010-cu il Parlament seçkiləri ilə bağlı Avropa Məhkəməsinə 40-dan çox şikayət göndərmiş, hazırda həmin şikayətlər üzrə hökumətlə kommunikasiya gedir. Əliyevin həbsi həmin seçki işləri üzrə Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən qərar çıxarılmasının qarşısını almağa xidmət edir. Onun rəhbəri olduğu "Hüquq Maarifçiliyi Cəmiyyəti"nin ofisində axtarış aparılarkən həmi seçkin işlərinə dair bütün sənədlər (vəkil dosyesi) istintaq orqanı tərəfindən qanunsuz olaraq və ittihama heç bir əlaqəsi olmadığı halda götürülmüşdür. Bu isə, o deməkdir ki, Əliyevi fiziki olaraq cəmiyyətdən təcrid etməklə, onun Avropa Məhkəməsi qarşısında seçki işlərinin kommunikasiyasını davam etdirməsinə maneçilik törədilməsi ilə kifayətlənməyib, seçki işlərinin dosyeləri götürülməklə həmin işlərin kommunikasiyasının "Hüquq Maarifçiliyi Cəmiyyəti"nin başqa əməkdaşları və ya şikayətçilərin özləri tərəfinən davam etdirilməsinin qarşısı alınıbdır. Avropa Məhkəməsinin prosedur qaydaları baxımından bu halda seçki işlərini şikayətçinin işin nəticəsinə marağının itməsinə görə siyahıdan çıxarılması

mümkündür. Əliyev tərəfindən Avropa Məhkəməsinə təkcə seçki işləri göndərilməyi, eyni zamanda mülkiyyət hüququnun pozuntusuna, ifadə azadlığı və sərbəst toplaşmaq hüququnun pozuntusu və digər strateji əhəmiyyətli işlərlə bağlı da çoxsaylı şikayətlər göndərilib. Həmin şkayətlərlə bağlı dosyelər də istintaq orqanı tərəfndən qanunsuz olaraq götürülüb. Bundan əlavə, nəzərə almaq lazımdır ki, indiyədək Avropa Məhkəməsi tərəfindən Azərbaycana qarşı çıxarılan qərarların əksəriyyəti Əliyevin vəkillik etdiyi işlər üzrə, yəni onun tərəfindən göndərilmiş şikayətlər əsasında çıxarılmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, Əliyevin həbsinin başlıca səbəbi onun tərəfindən Avropa Məhkəməsinə göndərilmiş şikayətlər üzrə, xüsusən də 2010-cu il Parlament seçkilərinin nəticələrinə dair göndərilmiş şikayətlər üzrə Azərbaycana qarşı qərarlar çıxmasının qarşısını almaq, başqa sözlə, hüquq müdafiəçisi Əliyevin Avropa Məhkəməsində işlərin aparılmasına yönəlik vəkillik fəaliyyətidir.

Əliyev Avropa Şurası Parlament Assambleyasının 2014-cü ilin yay sessiyasında keçirilən iclasda çıxış edərək Azərbaycan hakimiyyətinin insan haqları ilə bağlı siyasətini sərt tənqid etmiş, ölkədə siyasi məhbuslar problemindən, müstəqil qeyri-hökumət təşkilatlarına basqılardan, hakimiyyətin tənqidçilərinin saxta ittihamlarla şərlənib tutulmasından, ölkədə insan haqlarının acınacaqlı durumundan, vətəndaşların mülkiyyət hüquqlarının kütləvi pozuntusundan və s. söhbət açmışdır. Bu mənada onun həbsi həm də ifadə azadlığını pozuntusudur.

Həm "Hüquq Maarifçiliyi Cəmiyyəti" dövlət qeydiyyatına alınıbdır, həm də İntiqam Əliyev özü fiziki şəxs kimi vergi orqanında qeydiyyata alınıbdır. Onun fəaliyyəti qanunsuz sahibkarlıq sayıla bilməz. Həbsindən bir ay öncə onun ofisində vergi yoxlaması aparılmış və yoxlama nəticəsində hər hansı bir qanun pozuntusu aşkar edilməmişdir. Deməli vergidən yayınmayıb. Yaxud İntiqam müəllimin hansı vəzifə səlahiyyətini aşması aydın deyil və bütün bu ittihamlar əsassızdır.

***8 avqust 2014-cü il tarixdə Əliyevin barəsində Nəsimi rayon Məhkəməsininn qərarı ilə üç aylıq həbs-qətimkan tədbiri seçilib. Onun səhhətində ciddi problemlər də var.***

2015-ci ilin aprel ayının 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıqovun çıxardığı hökmlə İntiqam Əliyev 7 il 6 ay azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb.

İntiqam Əliyevin məhkəmə prosesində məhkəmə onun və vəkillərinin vəsatətlərinin çoxunu təmin etməyib, ədalətli məhkəmə çəkişmə prinsipinə şərait yaradılmayıb.

İ.Əliyev və vəkilləri ittihamları rədd edirlər, ittihamın və hökmün siyasi sifariş olduğunu bildirirlər.

**18. Xasməmmədov Taleh Vidadi oğlu.**



**Saxlanma tarixi**: 24 fevral 2015-ci il
**İttiham:** CM-in 221.2-ci maddəsi ilə (xuliqanlıq, təkrarən törədildikdə)
**Saxlandığı yer:** 17 saylı Cəza Çəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Həbs olunana kimi T.Xasməmmədov Göyçay şəhərində yaşayır, bölgədə hüquq müdafiəçisi kimi fəaliyyət göstərib. Yerli icra strukturlarının korrupsiya və digər qanunsuzluq əməllərini tənqid edib və bu haqda materialları mediaya ötürüb.
Həbs olunan gün o, Göyçay bazarının yaxınlığında , səhər saatlarında mebel salonuna daxil olarkən bir nəfər onlara yaxınlaşıb və Talehin üzünə tüpürüb, sonra yerə yıxılaraq qışqırmağa başlayıb və özünü huşsuzluğa vurub. Bu zaman yaxındakı polislər Talehi həbs ediblər. Göyçay rayon Məhkəməsində T. Xasməmmədov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.
Yerli fəallar T. Xasməmmədova qarşı təxribat törətmiş şəxsin kimliyini müəyyən etməyə müvəffəq olublar. Bu, polislə sıx əməkdaşlıq edən Zahir Əzizovdur. İndiyədək o, 10 işdə şahid olub.
T.Xasməmmədov 2011-ci ilin noyabrında da xuliqanlıq və polisə müqavimət maddələri ilə həbs edilmişdi. Göyçay rayon Məhkəməsi onun haqqında 4 il azadlıqdan məhrumetmə cəzası çıxarmışdı. Təxminən bir il sonra prezidentin əfv sərəncamına düşərək azad olunmuşdu. O vaxt *Amnesty International* T.Xasməmmədovu «vicdan məhbusu» elan edib.
22 iyul 2015-ci ildə Göyçay Rayon Məhkəməsnin hökmü ilə hüquq müdafiəçisinə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə, 3 il azadlıqdan məhrum etmə cəzası verilib.

## *C) Gənc fəallar*

### a. "NİDA" Vətəndaş Hərəkatının İdarə Heyəti üzvləri və fəallarının işi

### "NİDA" Vətəndaş Hərəkatı haqqında qısa məlumat:

*"NİDA" Vətəndaş Hərəkatı 2011-ci ildə bir qrup gənc tərəfindən azadlıq, ədalət və həqiqət istəyi ilə yaradılıb. "NİDA" ölkədə dəyişikliklər edilməli olduğunu, hakimiyyətin xalqın iradəsi ilə qurulmalı olduğunu bəyan edib. NİDA Hərəkatının əsas tələbləri: azad və inkişaf etmiş ölkədə yaşamaq; ordunun yüksək döyüş qabiliyyəti olan şəxslərdən ibarət olması; hakimiyyətin azad və ədalətli səsvermə yolu ilə demokratik şəkildə dəyişməsi; qanunların ədalətli və hamı üçün eyni olması; azad və müstəqil media və s. NİDA heç bir siyasi partiyadan asılı olmayan hərəkatdır və əsas istəkləri dinc demokratik yolla dəyişikliyə nail olmaqdır[17]. Hərəkat yarandığı gündən indiyə qədər demokratik dəyişikliklər üçün fəaliyyət göstərib, müxtəlif aksiyalar, fləşmoblar təşkil edib, Hərəkatın İdarə Heyətinin üzvləri 2013-cü ilin oktyabrında keçirilən prezident seçkiləri dövründə bir sıra müxalifət partiyalarını və vətəndaş cəmiyyəti təşkilatlarını birləşdirən Milli Şurada təmsil olunublar, Hərəkatın fəalları seçkilərdə müxalifətin vahid namizədi kimi çıxış edən Cəmil Həsənliyə seçki kampaniyası dövründə dəstək veriblər.*
*İctimai fəallıqlarına və tənqidi mövqelərinə görə "NİDA" Vətəndaş Hərəkatının üzvləri müxtəlif yollarla təqib olunublar. Hərəkatın əvvəlki İdarə Heyətinin üzvü Zaur Qurbanlı 2012-ci il sentyabrında təşkilatın 2013-cü il seçkiləri üçün hazırladığı materiallara görə polis tərəfindən saxlanılıb, onun barəsində 2 gün ərzində heç bir məlumat verilməyib, yalnız oktyabrın 1-də polis məlumat yayıb ki, Qurbanlı narkotik maddə əməliyyatı üzrə saxlanılıb və polisə müqavimət göstərdiyi üçün 15 sutka inzibati həbs cəzası alıb, bu müddət bitdikdən sonra Qurbanlı sərbəst buraxılıb. Hərəkatın hazırda İdarə Heyətinin üzvü və sədri olan Aygün Pəncəliyeva hakimiyyətin təzyiqləri nəticəsində 2013-cü ilin iyununda Bakıda fransız dili müəlliməsi kimi çalışdığı məktəbdən ayrılmalı olub. Hərəkatın fəalı Ömər Məmmədov (hazırda bloggerlik fəaliyyətinə görə həbsdədir) özünə və ailəsinə edilmiş təzyiqlər nəticəsində Hərəkatdan çıxmaq məcburiyyətində qalıb.*

### "NİDA" Vətəndaş Hərəkatı fəallarının və üzvlərinin həbsi

Milli Orduda çoxsaylı gənc əsgərlərin qeyri-döyüş şəraitində müəmmalı ölüm hallarına etiraz olaraq, 2013-cü ilin 12 və 26 yanvar tarixlərində Bakı şəhərinin mərkəzində gənclərin aksiyası keçirilmişdir. Bu aksiyalarda gənclərlə yanaşı əsgər valideynləri də iştirak etmişlər. Aksiyalar polisin qeyri-adekvat zor tətbiq etməsi ilə dağıdılmış, yüzlərlə iştirakçı həbs olunmuşdur. Onlardan bir qismi inzibati həbslə və ya böyük məbləğdə cərimə ilə cəzalandırılmışlar. Bu etiraz aksiyaları və onların iştirakçılarına qarşı repressiyalar ölkə və beynəlxalq ictimaiyyətdə geniş rezonans yaratmışdır. Lakin bu aksiyalardan qısa müddətdən sonra da orduda qeyri-döyüş şəraitində əsgər ölümləri davam etmişdir.
Buna etiraz edən bir qrup gənclər təşkilatlarının nümayəndələri, o cümlədən NİDA Vətəndaş Hərəkatı 1 mart 2013-cü il tarixdə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edərək 10 mart tarixdə mitinq keçirmək niyyətində olduqlarını bildirdi. Əvvəlki

[17] http://bit.ly/1f0le9w

aksiyaların kütləviliyinin qarşısını almaq üçün hakimiyyət qabaqlayıcı tədbir kimi aksiyalarda daha aktiv olan NİDA üzvlərinin həbsinə başladı.

2013-cü il martın 7-də qeyri-döyüş şəraitində əsgərlərin müəmmalı şəkildə ölməsinə etiraz olaraq Bakının mərkəzində martın 10-u üçün planlaşdırılan aksiya ərəfəsində "NİDA" Vətəndaş Hərəkatının 3 gənc fəalı – Əzizov Məmməd, Quliyev Bəxtiyar və Novruzlu Şahin axşam saatlarında Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları tərəfindən həbs olunublar və bu barədə həbs edilənlərin valideynlərinə və qohumlarına, yaxud da dostlarına məlumat verilməyib, onlar vəkillə təmin edilməyiblər. Həbsdən bir neçə saat sonra tək yaşayan Əzizovun və ailələri ilə birgə yaşayan Quliyev və Novruzovun evində axtarış aparılıb, gənclərin evindən narkotik maddə və "Molotov" kokteyllərnin tapıldığı iddia edilib. Onların ilkin dindirmələri və barələrində həbs qətimkan tədbirinin seçilməsi öz vəkillərinin iştirakı olmadan aparılmışdır. Şahin Novruzlu həbs edilərkən azyaşlı olduğu üçün qanunun tələbinə görə onun dindirilməsində mütləq qanuni nümayəndəsi iştirak etməli olduğu halda, istintaq bu tələbə əməl etməmişdir. Hər 3 gənc ilk izahatlarında heç bir qanunsuz əmələ yol vermədiklərini bildirmişlər. Lakin bir gün sonra işgəncə və psixoloji təzyiq altında, öz vəkilləri olmayan şəraitdə özlərinə və digərlərinə qarşı ifadələr verməyə məcbur ediliblər.

9 mart 2013-cü il tarixində Azərbaycanda yayımlanan bütün ümumrespublika telekanalları gənclərin martın 10-da keçiriləcək aksiya zamanı "Molotov" kokteyllərindən istifadə etməklə iğtişaş salınması kimi "cinayət törətmək istəklərinin olduğunu etiraf etmələrini" nümayiş etdirən videomateriallar yayımlayıb. Həmin videomateriallar istintaq tərəfindən hazırlanıb və bu süjetlərdə həbs edilən gənclərin "NİDA" Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvlərinin əleyhinə ifadələri, onların da "cinayət" törədilməsində iştirakı barədə "etiraflar" yer almışdır. Bu videolardan da açıq şəkildə görünür ki, gənclər qorxu içindədirlər və onlara qarşı fiziki zor işlədilib. Gənclərin Sovet hakimiyyəti dövründə olduğu tərzdə "etirafedici" videolarının yayılması bu həbsin siyasi sifariş olduğunu sübut edən amillərdən biridir. Qısa müddətdən sonra hər 3 gənc artıq öz vəkillərinin iştirakı ilə verdikləri ifadələrdə ilk ifadələrini işgəncə altında verdiklərini bəyan etmişlər və işgəncə faktlarının araşdırılması ilə bağlı prokurorluq orqanlarına şikayət ünvanlamışlar. Lakin bu şikayətlər üzrə araşdırma formal aparıldı, çünki işgəncəni törədən və onu araşdıran orqan eyni idi. Bu həbslərə və yayımlanan videolara baxmayaraq martın 10-da yüzlərlə insan, o cümlədən "NİDA" Vətəndaş Hərəkatının digər fəalları polislərin kobudluğu və güc tətbiqi ilə dağıdılan tamamilə dinc aksiyada iştirak etdilər.

Aksiyadan sonrakı günlərdə "NİDA" Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvlərinin həbsinə başlanıldı. İdarə Heyətinin üzvləri Rəşad Həsənov, Rəşadət Axundov, Üzeyir Məmmədli və Hərəkatın fəalı Zaur Qurbanlı həbs edildilər.

Gənclərə ilkin olaraq qanunsuz olaraq partlayıcı maddə və narkotik maddə saxlamaq ittihamları irəli sürülmüş, həbslərindən 6 ay sonra, yəni 2013-cü il sentyabrında onlara yeni daha ağır - kütləvi iğtişaşlar törətmə və ya belə iğtişaşlarda iştirak etmə ittihamı da verilmişdir. Məhz bu yeni ittihamın irəli sürülməsinə görə Hərəkatın İdarə Heyətinin üzvü Rəşadət Axundovun 74 yaşlı babası Əyanət Axundov damarlarını kəsərək özünə qəsd etmiş, bunun nəticəsində bir neçə gün sonra xəstəxanada vəfat etmişdir[18].

Gənclərin işi üzrə məhkəmə prosesi başlayana qədər onlar barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilməyib. 2013-cü il noyabrın 6-dan məhkəmə prosesi başladı

[18] http://bit.ly/1pBvQNz

və ilk olaraq martın 7-də həbs edilmiş 3 gənc məhkəmədə ifadə verərək, istintaqda işgəncələrə məruz qaldıqlarını və məhz buna görə etirafedici ifadələr verdiklərini bildirdilər və ilkin ifadələrindən imtina etdilər. Prosesdə ifadə verən şahidlər də gənclərin əleyhinə qiymətləndirilə bilən istintaqa verdikləri ifadələrdən imtina ediblər. Bundan əlavə şahid kimi dindirilmiş MTN əməkdaşları gənclərin və onların vəkillərinin suallarına qatışıq və dəqiq olmayan cavablar veriblər.
Telekanallarda "etirafedici" çıxışları yayımlanan və faktiki cinayətkar adlandırılan "NİDA" üzvləri təqsirsizlik prezumpsiyasını pozduqları üçün Milli Təhlükəsizlik Nazirliyini, Baş Prokurorluğu və bəzi telekanalları məhkəməyə veriblər.
Həbs edilmiş bütün "NİDA"-çılar Amnesty İnternational təşkilatı tərəfindən vicdan məhbusu elan ediliblər[19].
Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Cavid Hüseynovun 6 may 2014-cü il tarixli qərarı ilə ***Axundov Rəşadət, Qurbanlı Zaur və Rüstəmzadə İlkin 8 il, Əzizov Məmməd və Həsənov Rəşad 7 il 6 ay, Quliyev Bəxtiyar və Məmmədli Üzeyir 7 il, Novruzlu Şahin 6 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına*** məhkum ediliblər.

***Qurbanlı Zaur, Quliyev Bəxtiyar, Məmmədli Üzeyir və Novruzlu Şahin sonradan əfv sərəncamı ilə azadlığa çıxıblar.***

## 19. Axundov Rəşadət Fikrət oğlu



**Saxlanma tarixi:** 30 mart 2013-cü il
**İttiham:** CM-nin 28 (*cinayətə hazırlıq*), 220.1 (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*) və 228.3 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə*) maddələri
**Saxlandığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi.
**Şəxs barəsində qısa arayış:** Cənab Axundov Şirvan rayonunda Özəl Türk Liseyində orta təhsilini tamamladıqdan sonra Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsil alıb. Daha sonra Mərkəzi Avropa Universitetində (Macarıstan) təhsilini davam etdirib. Həbs edilənə qədər BP-Azərbaycan şirkətinin aparıcı maliyyə mütəxəssislərindən biri olub.

---

## 20. Əzizov Məmməd Rasim oğlu

[19] http://bit.ly/1gJG6nt



**Saxlanma tarixi:** 7 mart 2013-cü il
**İttiham:** CM-nin 28 (*cinayətə hazırlıq*), 220.1 (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*) və 234.1-ci (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama*) maddələri
**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi.
**Şəxs barəsində qısa arayış:** Cənab Əzizov orta təhsilini Şəki şəhərində alıb. 2010-cu ildən həbs edilənədək Bakı Dövlət Universitetinin Sosiologiya və Psixologiya fakültəsində sosiologiya ixtisası üzrə təhsil alırdı. 2012-ci ilin yayında "Nİda" Vətəndaş Hərəkatına qoşulub. Sosial şəbəkələrdə aktiv olmuş və Azərbaycanda Facebook məkanında məşhur olan satirik "Heydər Əliyev adına Səhifə"nin həmtəsisçisi və adminlərindən olmuşdur. 2013-cü il yanvarın 11-də bir gün sonra keçiriləcək "Əsgər ölümlərinə son" mitinqinə hazırlıq işləri görərkən polis tərəfindən saxlanılmış, 9-cu polis bölməsində qeyri-insani davranışa və pis rəftara məruz qalmışdır.

---

**21. Həsənov Rəşad Zeynalabdin oğlu**



**Saxlanma tarixi:** 14 mart 2013-cü il
**İttiham:** CM-nin 28 (*cinayətə hazırlıq*), 220.1 (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*) və 228.3-cü (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə*) maddələri
**Saxlandığı yer: 6 saylı** Cəzaçəkmə Müəssisəsi.
**Şəxs barəsində qısa arayış:** Cənab Həsənov orta təhsilini Lənkəran Özəl Türk Liseyində, ali təhsilini isə Türkiyənin Orta Doğu Texnik Universitetində alıb. 2010-cu il parlament seçkilərində gənc namizədlərdən Bəxtiyar Hacıyevin seçki kampaniyasında aktiv iştirak etmişdir. Gənc fəal 2010-cu ildə Müsbət Dəyişiklik Gənclər Hərəkatının təsisçilərindən biri olmuş, 2011-ci ilin mart ayından 2012-ci ilin mayına qədər 9 təşkilatın təmsil olunduğu "Gənclərin Hüquqlarını Müdafiə Komitəsi"nin (GHMK) idarə heyətində təmsil olmuş, 5 ay ərzində GHMK-nın mülkiyyət hüquqları ilə bağlı "Maddə 13 - mülkiyyət" alt komitəsinin rəhbəri olmuşdur. 2011-ci ildə Azad İqtisadiyyata Yardım İctimai Birliyinin rəhbəri Zöhrab

İsmayılla birgə Böyük Britaniyanın Bakıdakı səfirliyinin dəstəyi ilə "Bakıda mülkiyyət haqları pozuntularının xəritə və statistikası" adlı hesabat hazırlamışlar. 2012-ci il martın 17-də GHMK-nın uzun illərdən sonra keçirdiyi ilk razılaşdırılmış mitinqin təşkilatçılarından və aktiv iştirakçılarından olmuşdur. Rəşad 2012-ci ilin mayında Müsbət Dəyişiklik Gənclər Hərəkatını tərk edərək, "NİDA" Vətəndaş Hərəkatına qoşulmuşdur. 2012-ci ilin sentyabrında "NİDA" Vətəndaş Hərəkatının idarə heyətinə üzv seçilmişdir. Rəşad Həsənov 2012-ci il noyabrın 4-də yaradılan və 50-yə yaxın fəal gəncin təmsil olunduğu Gənclər Məclisinin həmtəsisçisidir.

**22. Rüstəmzadə İlkin Bakir oğlu**



**Saxlanma tarixi:** 17 may 2013-cü il
**İttiham:** CM-nin 28 (*cinayətə hazırlıq*), 220.1-ci (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*), 221.2.1 *(bir qrup şəxs tərəfindən və ya təkrar törədilən xuliqanlıq*) və 221.2.2 (*ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədilən xuliqanlıq*) maddələri
**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** Cənab Rüstəmzadə ictimai-siyasi proseslərdə fəal olan "Azad Gənclik" təşkilatının, həmçinin bir sıra müxalifət partiyalarının və vətəndaş cəmiyyəti təşkilatlarının birləşdiyi Milli Şuranın üzvüdür. "Nida" Vətəndaş Hərəkatının üzvləri ilə birgə ittiham edildiyinə görə elə həbsxanada bu hərəkata qoşulmuşdur. Həbsinə qədər Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alırdı.

12 yanvar və 10 mart 2013-cü il tarixlərində Azərbaycan Ordusunda baş almış özbaşınalıq və qanunsuzluqlara, habelə dinc şəraitdə əsgərlərin ölümlərinə etiraz olaraq Facebook vasitəsilə Bakı şəhərinin mərkəzində "Əsgər ölümlərinə son" aksiyasını təşkil etmiş, nəticədə bu aksiyalara çoxsaylı etirazçı qatılmışdır. Məhz bu aksiyalar təşkil etdiyi üçün ona qarşı təzyiqlər başlamış, o polisə çağırılmış, bir neçə dəfə barəsində inzibati həbs seçilmişdir. İlkin Rüstəmzadə Azərbaycan Dövlət Neft Akademiyasında baş vermiş terror nəticəsində həlak olmuş şəxslərin anım günü - 2013-cü il 30 aprel tarixində gənclər tərəfindən təşkil edilən "Terrora yox" aksiyasında saxlanılaraq 15 sutka inzibati həbs cəzası almışdı. Bu həbs müddəti bitdikdən bir neçə gün sonra isə Rüstəmzadə Bakıda Dənizkənarı Parkda "Harlem Shake" musiqisi altında rəqsin videoçəkilişlərini apararaq və Youtube-da yerləşdirərək xuliqanlıq törətməkdə ittiham edilmiş və həbs edilmişdir. Sentyabrın 12-də həbsdə olan "Nida" Vətəndaş Hərəkatının üzvləri ilə bərabər ona qarşı da

iğtişaşları təşkil etmə və ya iştirak etmə maddəsi ilə yeni ittiham irəli sürülmüş və onun işi “NİDA” Hərəkatının fəallarının cinayət işinə birləşdirilmişdir.
Cənab Rüstəmzadə Amnesty İnternational təşkilatı tərəfindən vicdan məhbusu kimi tanınıb[20].

[20] http://bit.ly/1gJG6nt

## D. *Müxalif siyasətçilər*

### 23. Məmmədov İlqar Eldar oğlu



**Saxlanma tarixi:** 4 fevral 2013-cü il
**İttiham:** CM-nin 220.1-ci (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi.
**İş üzrə qısa arayış:** Cənab Məmmədov Azərbaycan müstəqillik əldə etdikdən sonra fəal şəkildə siyasətlə məşğul olan şəxslərdən biridir, artıq 10 ildən çox müddətdə mövcud olan və Azərbaycanda ilk sayılan siyasi bloqun müəllifidir. O, Avropa Şurasının Bakı Siyasi Biliklər Məktəbinin direktoru, iki nüfuzlu beynəlxalq təşkilatın – German Marşal Fondunun və Revenue Watch təşkilatının Məsləhət Şurasının üzvüdür[21].
Cənab Məmmədov 2009-cu ildə yaranan və son illər ərzində yeni nəsil siyasi müxalif qüvvə kimi populyarlaşan Respublikaçı Alternativ Hərəkatının (REAL) sədridir. Hərəkatın əsas məqsədi Azərbaycanda cümhuriyyətçilik ənənələrini bərpa etmək, parlamentli respublikaya keçid, effektiv hökumət qurmaq, hüquq və azadlıqların birmənalı təminat etmək və s. amallardır. Yarandığı vaxtdan indiyə kimi REAL mövcud hakimiyyətin apardığı siyasəti və bu siyasətə məsul olan şəxsləri, o cümlədən prezident İlham Əliyevi tənqid etməklə yanaşı, həm də alternativ proqramlar təklif edib.
Cənab Məmmədov 2009-cu ilin martında bir nəfərin 2 dəfədən artıq prezident seçilməsi qadağasının götürülməsi ilə nəticələnən referendumdan sonra ANS telekanalının canlı yayımında bu qadağanın aradan qaldırmaqla prezident Əliyevi ölkəni uçuruma sürükləməkdə, İranda Şah Rza Pəhləvinin yolu ilə getdiyində ittiham etmişdi. 2010-cu ilin Parlament seçkilərində namizəd olmuş cənab Məmmədov seçki platformasında, xüsusən efir vaxtı zamanı hakimiyyəti yaramaz siyasət aparmaqda ittiham etmişdi. Cənab Məmmədov 2012-ci il martın 1-də Quba şəhərində yerli icra başçısının əleyhinə keçirilmiş etiraz aksiyası zamanı vəziyyətin yerində öyrənilməsi üçün Qubaya getmiş və hadisələrin baş verməsinə görə hakimiyyəti tənqid etmişdir. 2012-ci ilin noyabrında cənab Məmmədov parlamentin qeyri-effektiv fəaliyyət göstərdiyini və saxta seçkilər nəticəsində seçilən adamlardan ibarət olduğunu bildirərək parlamenti zooparka bənzətmişdi. Bundan sonra parlamentin üzvü və hakimiyyəti yaxınlığı ilə seçilən Adil Əliyev cənab Məmmədov barəsində verdiyi

[21] http://bit.ly/1fsL2aR

müsahibədə "bu cür danışanların başının kəsilib atılması" ifadəsini işlədərək, faktiki olaraq ona qarşı ölüm təhdidi səsləndirmişdir. Hakim partiyadan olan deputat, sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli Məmmədovun həbs edilməsi üçün məhkəməyə göndəriləcək iddia ərizəsinin artıq hazır olduğunu və ərizənin deputatlar tərəfindən imzalanma prosesinin davam etdiyini bildirmişdi (amma son olaraq məhkəməyə müraciət edilmədi). 2013-cü il yanvarın 19-da Bakıda yerləşən Binə Ticarət Mərkəzində çalışan şəxslər sosial tələblərlə etiraz aksiyası keçirmişlər, nəticədə polislə qarşıdurma yaranmışdır. Cənab Məmmədov etiraz aksiyasının keçirildiyi yerə gedib, etirazçılarla görüşüb və onların tələblərini öyrənib. O, həm öz bloqunda, həm də mətbuata verdiyi müsahibələrdə aksiya iştirakçılarına dəstək ifadə etmiş, tələblərin tamamilə doğru olduğunu bildirmiş, hakimiyyəti korrupsiyanın qarşısının alınmasında maraqlı olmamaqda günahlandırmışdı.
2013-cü il yanvarın 23-də İsmayılı rayonunda yerli icra hakimiyyəti başçısının istefası tələbi ilə etirazlar keçirilmiş, etirazlar qarşıdurmalara gətirib çıxarmışdır. Cənab Məmmədov hadisədən bir gün sonra yanvarın 24-də İsmayıllı rayonuna səfərə gəlmiş, rayon mərkəzində jurnalistlər və bəzi sakinlərlə söhbət etdikdən sonra Bakıya qayıtmışdır. Bakıya qayıdarkən cənab Məmmədov Azadlıq Radiosuna müsahibə vermiş və etirazların haqlı olduğunu bildirmişdir, eyni zamanda öz bloqunda insanların səbrinin tükəndirilməsinə görə yerli icra qurumlarını tənqid etmişdir. Bundan əlavə, cənab Məmmədov hadisələrin baş verməsinə səbəb olmuş şəxslərin kimliyini dəqiqləşdirərək onların Əmək və Əhalinin Sosial Müdafiə naziri Füzuli Ələkbərovun (hazırda vəzifədən uzaqlaşdırılıb) qohumları və yaxınları olduğunu müəyyən etmiş, hadisənin baş verməsinə səbəb olan şəxslərin işlədiyi otelin nazirin oğluna məxsus olduğunu göstərən rəsmi sənədləri taparaq yaymışdır (həmin vaxt otelin heç bir vəzifəli şəxsə və ya onun qohumlarına məxsus olmaması ilə bağlı yerli icra başçısı və digər rəsmilər açıqlamalar vermişdilər).
Cənab Məmmədov REAL Hərəkatının 2013-cü il prezident seçkilərinə namizəd idi və bu barədə onun həbsindən qabaq təşkilat daxilində razılıq əldə edilmişdi. Həbsdə olmasına baxmayaraq, cənab Məmmədov seçkilərdə namizədliyini vermiş, yaradılan ciddi maneələrə rəğmən namizədliyi ilkin olaraq qeydə alınmış, xeyrinə 40000-dən çox imza toplanaraq təqdim edilmişdir. Lakin Mərkəzi Seçki Komissiyası əsassız şəkildə imzaların saxta olduğunu iddia edərək, onun namizədliyini qeydə almamışdır.
Cənab Məmmədov məhz İsmayıllı hadisələri ilə bağlı bu rayona səfər etdikdən sonra həbs edildi. Yanvarın 26-dan etibarən ölkədə yayımlanan telekanalların əksəriyyəti Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin yaydığı məlumata istinad edərək İsmayıllı hadisələrinə REAL Hərəkatının sədri İlqar Məmmədov və jurnalist, Müsavat Partiyasının Başqan müavini Tofiq Yaqublunun səbəb olduğunu bildirərək təqsirsizlik prezumpsiyasını pozmuş və cənab Məmmədovu cinayətkar adlandırmışlar.
Yanvarın 29-da cənab Məmmədov Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə çağırılıb, İsmayıllı səfəri ilə bağlı izahatı alındıqdan sonra, o, sərbəst buraxılıb. Fevralın 4-də yenidən istintaqa çağırılan cənab Məmmədov barəsində Nəsimi rayon Məhkəməsinin qərarı ilə 2 aylıq həbs qət-imkan tədbiri seçilib, bu həbs indiyə qədər davam edir.
Cənab Məmmədov İsmayıllı rayonuna hadisələrin başladığı gün deyil, yalnız bir gün sonra gedib və İsmayıllıda şəhərin mərkəzi hissəsində cəmi 45-50 dəqiqə çoxsaylı jurnalistlərin və İsmayıllıya birlikdə getdiyi REAL Hərəkatının icra katibi Natiq Cəfərlinin yanında olub. Məhkəmədə ifadə vermiş Natiq Cəfərli və jurnalistlər bunu bir daha təsdiq etmişlər, o cümlədən cənab Məmmədovun şəhər mərkəzində olmasını və heç bir iğtişaşa çağırmadığını, sadəcə jurnalistlərlə söhbət etdiyini və bu vaxt

ümumiyyətlə heç bir aksiyanın, yaxud zorakılığın olmadığını göstərən videomaterial da nümayiş etdirilmişdir.
Mobil telefon danışıqları üzrə əldə edilən çıxarışlardan görünür ki, istintaqın cənab Məmmədovun qanunsuz hərəkətlər etdiyi iddia edilən saatlarda o artıq İsmayıllı rayonu ərazisində olmamışdır.
Hadisələrə görə təqsirləndirilən İsmayıllı sakinləri cənab Məmmədovu tanımadıqlarını məhkəməyə bildiriblər. Prosesə şahid kimi cəlb edilmiş 2 İsmayıllı sakini - İsrafil Verdiyev və Rövşən Novruzov cənab Məmmədovu gördüklərini və onun gəncləri polisə müqavimət göstərməyə çağırdığını bildiriblər, lakin bu şahidlər vəkillərin suallarını cavablandırarkən çoxsaylı ziddiyyətlər ortaya çıxmış, şahidlər cənab Məmmədovun istintaqın iddia etdiyi yerdə deyil, başqa yerdə olduğunu bildirmişlər. Mehdiyev soyadlı şahid həmin ərazidə təsadüfən olduğunu və İsmayıllı hadisələri zamanı başqa heç bir hadisənin şahidi olmadığını bildirmişdir, lakin cinayət işinin materiallarından məlum olmuşdur ki, Mehdiyev artıq yanvarın 23-dən həbs edilən şəxslərə qarşı ifadələr vermişdir.
Cinayət işində zərərçəkmiş kimi tanınan bütün şəxslər təqsirləndirilənlərə qarşı heç bir maddi və mənəvi tələblərinin olmadığını öz ifadələrində vurğulayıblar.
Cənab Məmmədov Şəki Ağır Cinayətlər Məhkəməsinin 17 mart 2014-cü il qərarı ilə ***7 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir.
Cənab Məmmədovun həbsi Amnesty İnternational təşkilatı tərəfindən siyasi motivli təqib adlandırılıb[22] və o vicdan məhbusu kimi tanınıb[23]. Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycan üzrə həmməruzəçiləri cənab Məmmədovun həbsi barədə narahatlıqlarını ifadə ediblər, Bakıya səfərləri zamanı onunla görüşüblər. Avropa Şurası İnsan Haqları Komissarı Azərbaycana səfəri ilə bağlı hesabatında cənab Məmmədovun azad edilməsinin vacibliyini vurğulayıb[24]. Avropa Parlamenti onun dərhal və qeyd-şərtsiz azad edilməsi üçün 2 qətnamə qəbul edib. Avropa İnsan Haqları Məhkəməsi 22 may 2014-cü il tarixində cənab Məmmədovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı göndərilmiş şikayət üzrə öz qərarını açıqlayaraq, Avropa İnsan Haqları Konvensiyasının 5.1 və 5.4 (azadlıq hüququ), 6.2 (təqsirsizlik prezumpsiyası) və 5-ci maddə ilə əlaqədar 18-ci (hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) maddələrinin pozulmasını, nəticə etibarilə cənab Məmmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin seçilməsini və bu tədbirin müddətinin artırılmasını əsassız hesab edib. Məhkəmə qərarın 143-cü bəndində qeyd edir ki, cənab Məmmədov tənqidi siyasi mövqeyinə görə cəzalandırmaq məqsədilə həbsə atılıb.

---

[22] http://bit.ly/QnDAbI
[23] http://bit.ly/1gJG6nt
[24] http://bit.ly/1gpkKdm

**24. Sadıqov Yadigar Sadıq oğlu**



**Saxlanma tarixi:** 27 iyun 2013-cü il

**İttiham:** CM-nin 221.3-cü (*xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə*) maddəsi

**Saxlandığı yer:** 14 saylı Cəzaçəkmə Müəssisəsi.

**İş üzrə qısa arayış:** Müxalifətdə olan Müsavat Partiyasının Başqanının müşaviri olan cənab Sadıqov həm partiya fəaliyyəti, həm də sosial şəbəkələrdə aktivliyi, konkret olaraq hakimiyyətə qarşı sərt tənqidi fikirləri ilə fərqlənib. Cənab Sadıqov cənub bölgəsində yerləşən Lənkəranda yaşadığı üçün partiyanı bu bölgədə təmsil edib. Cənab Sadıqov 2013-cü ilin yanvar ayında Müsavat Partiyasının Başqanını Lənkərana dəvət etmiş və bu səfərin təşkilatçılığında fəal rol oynamış (təşkil edilmiş təxribatlar və maneələr nəticəsində İsa Qəmbər Lənkərana buraxılmamışdır), ümumiyyətlə, həm cənub bölgəsində, həm də digər regionlarda insan haqlarının pozulması faktlarının yayılmasında və hüquqların müdafiə edilməsində fəal iştirak etmişdir.
Cənab Sadıqov Lənkəranda çayxanada mobil telefonla həmin rayonun sakini Rəşid Kərimovu vuraraq xuliqanlıq törətməkdə ittiham edilib, onun şikayəti əsasında saxlanılıb və barəsində həbs qətimkan tədbiri seçilib.
Cənab Sadıqov 13 yanvar 2014-cü il tarixdə Lənkəran rayon Məhkəməsinin qərarı ilə ***6 il müddətinə azadlıqdan məhrum edilib***. Şirvan Apellyasiya Məhkəməsi 22 iyul 2014-cü il tarixdə bu müddəti azaldaraq cəza müddətini 4 ilə endirib.
Sadıqovun döydüyü iddia edilən şəxsin şikayət ərizəsi polis tərəfindən verilən açıqlamadan da əvvəl dövlət informasiya agentliyi olan AzərTac-da yayımlanıb. Həmin müraciətdə deyilir ki, müharibə əlili çayxananın qarşısından keçərkən cənab Sadıqov və daha iki nəfər məsləkdaşı onu küçə söyüşləri ilə təhqir edib və sonradan hər kəsin gözü qarşısında təpikləyiblər. Bununla belə şikayətçi istintaqa fərqli ifadə verərək onu ancaq cənab Sadıqovun döydüyünü bildirib, məhkəmə istintaqı zamanı isə vəkillərin suallarına əsasən "xatırlamıram" cavabını verib. Bundan əlavə, hadisənin şahidləri kimi təqdim edilmiş şəxslər hadisə yeri kimi istintaqın qeyd etdiyi çayxananı deyil, yaxınlıqda olan digər çayxananı qeyd ediblər ki, bu da həmin şahidlərin səhv təlimatlandırıldığını göstərir. Hadisənin baş verdiyi iddia edilən çayxananın sahibi məhkəmədə ifadəsi zamanı hadisəni tam görmədiyini bildirib, şikayətçini sonradan artıq polislərlə çayxanaya gələndə gördüyünü, amma onun üzündə heç bir xəsarət görmədiyini söyləyib.
Müdafiə tərəfinin xəsarətin yetirildiyi barədə rəy vermiş ekspertin məhkəməyə gətirilərək dindirilməsi, yeni ekspertizanın təyin edilməsi, ittiham tərəfinin şahidlərinin hadisə yerində olub-olmadığını dəqiqləşdirmək üçün məlumatlarının əldə edilməsi və cənab Sadıqovun təqsirsizliyini sübut edə biləcək bu kimi digər vəsatətləri

hakim tərəfindən təmin edilməyib. Dövlət ittihamçısı isə məhkəmədən bu maddə ilə nəzərdə tutulan ən maksimum cəzanı – 7 il azadlıqdan məhrum etmə cəzasını istəyib (minimum cəza 3 ildir).

## 25. Qəhrəmanlı Fuad



**Saxlanma tarixi**: 8 dekabr 2015-ci il

**İttiham:** Cinayət Məcəlləsinin 281-ci (dövlət hakimiyyəti əleyhinə çağırışlar etmə) və 283-cü (milli, irqi, sosial, dini nifrət və ya düşmənçiliyin salınması)

**Saxlanıldığı yer:** 1 saylı Bakı (Kürdaxanı) İstintaq Təcridxanası.

**İş üzrə arayış:** Müxalif Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Fuad Qəhrəmanlı 8 dekabr 2015-ci ildə Baş Prokurorluğun Ağır Cinayətlər üzrə İstintaq İdarəsinə çağırılıb, rəsmi dəvət tələb etdikdə zorla evindən idarəyə aparılıb. Evində axtarış aparılıb və ona məxsus kompüter götürülüb. Həmin gün Qəhrəmanlı Nəsimi rayon məhkəməsinə aparılıb və barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib. İttihama görə, onun Facebook səhifəsindəki **qeydləri** Cinayət Məcəlləsinin 281-ci (dövlət hakimiyyəti əleyhinə çağırışlar etmə) və 283-cü (milli, irqi, sosial, dini nifrət və ya düşmənçiliyin salınması) maddələrinin təsiri altına düşür. Həmin qeydlər onun həbsindən təxminən 10 gün əvvəl yazılıb, sosial şəbəkələrdə və cəmiyyətdə heç bir nəzərə çarpan reaksiya doğurmayıb.

Fuad Qəhrəmanlıya Cinayət Məcəlləsinin 281.1 maddəsi ilə ittiham irəli sürülsə də, məhkəmə həbs qətimkan tədbiri seçərkən görünməmiş qanunsuzluğa yol verərək, ittihama daha ağır olan 281.2 maddəsini də əlavə edib.
Vəkili Fəxrəddin Mehdiyev bəyan edib ki, Qəhrəmanlının Facebook səhifəsindəki qeydləri politoloji ümumiləşdirmələr və özünün siyasi fikirləridir, həmin fikirlər qanuna və demokratiyaya hörmət ifadə edir və bu qeydlərə görə onu ittiham etmək əsassız və qərəzlidir.
Hüquqşünas Xalid Bağırov hadisədən dərhal sonra qeyd edib ki, Qəhrəmanlı siyasi məhbus sayılmalıdır.

Fuad Qəhrəmanlıdan daha öncə AXCP-nin daha 9 üzvü siyasi motivlə həbs edilib. Fuad Qəhrəmanlı özü isə həbsindən öncə hədələndiyini mətbuata bildirmişdi.

**26. Məmməd İbrahim Əziz oğlu**




**Saxlanma tarixi:** 30 sentyabr 2015-ci il.
**İttiham: Öncə CM-nin 221.1-ci maddəsi (xuliqanlıq)** daha sonra CM-nin 221.2.2-ci maddəsi (Xuliqanlıq ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədildikdə)
**Saxlandığı yer:** Şüvəlan İstintaq Təcridxanası.
İş üzrə qısa arayış: Məmməd İbrahim müxalifət partiyası Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədirinin müşaviridir. Eyni zamanda o facebook sosial şəbəkəsində aktiv olub, hakimiyyəti tənqid edib. M.İbrahim sentyabrın 30-da Nərimanov Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin (CM) 221.1-ci maddəsi (xuliqanlıq) üzrə şübhəli şəxs kimi saxlanılıb. Oktyabrın 1-də bu maddə üzrə ona ittiham irəli sürülüb. Oktyabrın 3-də Nərimanov Rayon Məhkəməsi onu barəsində 2 ay həbs qətimakan tədbiri seçib.

M.İbrahimin cinayət məsuliyyətinə cəlb olunmasına AXCP sədrinin keçmiş müavini Razi Nurullayevlə birlikdə partiyanı tərk etmiş Mikayıl Kamil oğlu Quliyevin şikayəti səbəb olub. Belə ki, sentyabrın 29-da M.İbrahim və M.Quliyev arasında münaqişə olduğu və sonuncunun köynəyinin cırıldığı iddia olunur.

AXCP hesab edir ki, partiyanın gözdən salınması və zəiflədilməsi məqsədilə M.İbrahimə qarşı təxribat törədilib.

10 noyabr 2015-ci il tarixdə Şüvəlandakı 3 saylı istintaq təcridxanasında M.İbrahimə qarşı yeni ittiham elan olunub. Belə ki, ona qarşı CM-nnin 221.2.2-ci (vəzifəsini yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsi, yaxud digər şəxsə müqavimət göstərməklə xuliqanlıq) maddəsilə yeni ittiham irəli sürülüb. Buna qədər M.İbrahim Razi Nurullayevin dəstəsindəki Mikayıl Quliyevi döyməkdə ittiham olunurdusa, sonra daha iki nəfər ortaya çıxıb. Oruc

Vəliyev və Məhəmməd Qurbanov adlı bu adamlar iddia edirlər ki, guya, M.İbrahimlə M.Quliyev arasında insident zamanı onları ayırmağa çalışıblar. Amma M.İbrahim onlara qarşı da fiziki zorakılıq edib, ictimai qaydanı pozub. Adları çəkilən şəxslər M.İbrahimlə üzləşdirilərkən AXCP sədrinin müşaviri onları ümumiyyətlə tanımadığını, ilk dəfədir gördüyünü bildirib. M. İbrahimin vəkili Yalçın İmanovun sözlərinə görə, yeni ittiham elan olunarkən M.İbrahim onun saxta olduğunu bildirib və bu barədə qeydlərini protokolda da yazıb. Vəkil özü də hesab edir ki, yeni ittiham M.İbrahimin həbsdə saxlanılmasına qanuni don geyindirmək və ona veriləcək cəzanın müddətini artırmaq məqsədi daşıyır.

Qeyd edək ki, əvvəl M.İbrahim CM-nin yalnız 221.1-ci (xuliqanlıq) maddəsilə təqsirləndirilirdi. Bu maddədə üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub. CM-nin 221.2.2-ci maddəsində isə iki ilədək islah işləri və ya beş ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

“Cinayət Məcəlləsinin 221.1-ci maddəsindəki əməl böyük ictimai təhlükə törətməyən cinayət sayılır və maksimum bir ilə qədər azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Başa düşürlər ki, Məmməd İbrahimi bu maddə ilə həbsdə saxlaya bilməzlər. Ona görə də bu yeni ittihamı irəli sürdülər. Amma açıq-aşkar görünür ki, bu ittiham saxtadır”, – deyə Yalçın İmanov bildirib.

**27. Yusifov Asif Qəmbər oğlu**



**Saxlanma tarixi:** 25.12.2014-cü il.
**İttiham :** CM-nin 178. (Dələduzluq), 320.1 (rəsmi sənədləri saxtalaşdırma) maddələri.
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müşaviri, partiyanın Rəyasət Heyətinin üzvü, Qarabağ əlilidir.
Həbs olunan gün A.Yusifov AXCP-nin Nərimanov şöbəsinin sədri Hacı Abbaslının avtomobili ilə birlikdə ofisə gedib, qayıdarkən sürücü yolda siqaret almaq üçün mağazaya gedib və ordan qayıdanda görüb ki, A. Yusifov avtomobildə yoxdur.

Sonradan məlum olub ki, A.Yusifov Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və Nərimanov rayon Məhkəməsinin qərarı ilə Asif Yusifli barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.
DİN yaydığı məlumatda bildirir ki, Asif Yusifov vətəndaş Fəridə Zülfüqarovanın 7 min 700 manatını dələduzluq yolu ilə ələ keçirməkdə ittiham olunur.
A.Yusifov müharibə əlil olmasına və avtomobil qəzasında ağır xəsarətlər almasına baxmayaraq kütləvi aksiyalarda fəal iştirak edib. A.Yusifov, onun vəkili və AXCP onun həbsini siyasi motivli sayır.
İşçi Qrupu apardığı araşdırmalara görə, A.Yusivofun həbsinin əsl səbəbi DİN-in yaydığı məlumatda göstərilən məsələ ilə bağlı deyil, siyasi fəaliyyət ilə bağlıdır.
31 iyul 2015-ci il tarixdə AXCP Rəyasət Heyətinin üzvü, Qarabağ qazisi, vəkil Asif Yusiflinin məhkəməsi başa çatıb. Məhkəmə onun barəsində 7 il 6 ay həbs qərarı çıxarıb.

**28. Xudabaxşıyev Qadir Nadir oğlu.**



**Saxlanma tarixi:** 11 fevral 2015-ci ildə
**İttiham: 228.1 (**Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə**)** maddəsi.
**Saxlandığı yer:** Salyan rayonundakı (Xələc) 5 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 28 yanvar 1972-ci ildə Ağdam şəhərində anadan olub, Ağdamın işğalından sonra qaçqın kimi Mingəçevirdə məskunlaşıb. II qrup Qarabağ müharibəsi əlilidir. Həbs olunana kimi yaşadığı ünvan: Mingəçevir şəhəri, Yeni Həyat qəsəbəsi, ev, B103. 11 fevral 2015-ci ildə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Mingəçevir Şəhər Polis Şöbəsi əməkdaşlarının birgə əməliyyatı nəticəsində Mingəçevirdə Vaqif küçəsindəki 17 saylı ünvanda yerləşən kafedə həbs olunub, guya üzərinə baxış keçirilərkən ondan "TT" markalı tapança və güllə sandıqçası tapılıb. Amma İşçi Qrup apardığı araşdırmaya uyğun olaraq hesab edir ki, Q. Xudabaxışova qarşı irəli sürülən ittiham əsassızdır və siyasi sifarışlıdır.
O, həbsindən öncə dəfələrlə siyasi fəaliyyətinə görə, Mingəçevir Polis İdarəsinə çağırılıb, xəbərdarlıq olunub. Qadir Xudabaxşıyevdə heç bir tapança və güllə olmayıb.

1991-ci ildən AXCP üzvüdür. İşsizdir. Ailəlidir, 3 məktəb yaşlı - 10, 13 və 15 yaşlı qızı var, həyat yoldaşı Gülxanım Həsənova II qrup əlildir.

14 oktyabr 2015-ci il tarixdə Mingəçevir şəhər Məhkəməsində hakim Hüseyn Mirzəyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində prokuror ona 3 il istəyib, hakim 1,5 il azadlıqdan məhrum etmək haqda hökm çıxardıb.

**29. Abdullayev Elvin Rəşadət oğlu.**



**Saxlanma tarixi** : 08 yanvar 2015-ci il.
**İttiham**: Cinayət Məcəlləsinin 234.3 və 234.4 (narkotik maddələrin qanunsuz dövriyyəsi) maddəsi
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış**: Bakı Dövlət Universitetinin tələbəsidir (2-ci ali təhsilidir), yanvarın 8-də universitetdə imtahan verib. O, evə telefon edərək imtahan suallarına yaxşı cavab verdyini bildirib və bir qədər sonra özünün Facebook profilində həbs olunduğunu yazıb. Lakin gəncin doğmalarına onun saxlandığı yer barədə 2 gün rəsmi məlumat verilməyib.

Elvin Abdullayev 2 gün ərzində Nərimanov rayon polis təcridxanasında saxlanılıb.
Gənc fəalın anası Zülfiyyə xanım da oğlunun AXCP üzvü olduğuna, sosial şəbəkələrdəki aktivliyinə görə şərlənərək həbs olunduğuna şübhə etmir: "Oğlum cəbhəçidir, "facebook" fəalıdır. Elvin şərlənib və onun həbsi sifarişlidir, əvvəlcədən hazırlanıb. "
Yanvarın 10-da Elvin Abdullayev barəsində Xətai rayon Məhkəməsi 4 aylıq həbs qətimkan tədbiri seçib.

1 iyun 2015-ci il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə Elvin Abdullayev 6 il müddətinə azadlıqdan məhrum edilib.

**30. Bağırzadə Zeynalabdin Bağır oğlu**



**Saxlanma tarixi:** 17 noyabr 2015-ci.

**İttiham:** CM-nın 315-ci maddəsi (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə)
**Saxlandığı yer:** Kəngərli rayonunun Böyükdüz kənd ərazisindəki müvvəqqəti saxlama təcridxanasında.
**İş üzrə qısa arayış:** Noyabrın 14-də Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 5 nəfər yerli işçisi Naxçıvan Muxtar Respublikasının Babək rayon Nehrəm kənd sakini, müxalifət partiyası Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) fəalı Zeynalabdin Bağırzadə yaşadığı ünvana gedərək, onun həyat yoldaşına sosial sığırta haqqı ödəməli olduqlarını deyiblər. Həyat yoldaşı cavab verib ki, Z. Bağırzadə evdə yoxdur, gələndə özünə deyərlər. Bu zaman DSMF işçiləri Z.Bağırzadənin həyat yoldaşına qonşusunun yanında təhqir ediblər. Sonra bundan xəbər tutan Z.Bağırzadə həmin işçilərlər görüşərək, niyə belə etdiklərinə cavab istəyib. Lakin onun həyat yoldaşını təhqir edən DSMF-nın işçiləri Z.Bağırzadənin özünə qarşı da eyni hərəkəti edib. Z.Bağırzadə elə həm gün Babək rayon prokurorluğuna şikayət ərizəsi ilə müraciət edib. Onunla yanaşı onu təhqir edən adam da prokurorluğa şikayət edib. Noyabrın 16-da isə Z.Bağırzadə prokurorluğa çağırılıb. Onun ərizəsinin qəbulundan imtina edilib, özü isə axşama qədər prokurorluqda saxlanılıb. Prokurorluqda ona işgəncə verilib və barəsində şübhəli şəxs kimi saxlanma qərarı çıxarılıb.

Noyabrın 18-də Babək Rayon Məhkəməsinin sədri Səxavət Bəylərlinin sədrliyi ilə keçirilən məhkəmə iclasında Z.Bağırzadə barəsində vəzifəli şəxsə müqavimət ittihamı (CM-in 315.1 maddəsi) ilə 3 ay həbs-qətimkan tədbiri seçilib.

Z.Bağırzadənin qardaşı, AXCP regional təşkilatının rəhbəri Yaşar Bağırsoy bildirib ki, DSMF-nun nümayəndələrindən Z.Bağırzadənin evinə gələnlərdən birinin adı Faiq İsmayılovdur. Z.Bağırzadəni döyənlərdən biri də odur. Qardaşı qeyd edib ki, Z.Bağırzadə heç bir sahibkarlıq fəaliyyəti ilə məşğul olmayıb. Xüsusən, onun malik olduğu torpaq sahəsi becərilmir, çünki kəndə su verilmir.

Yaşar Bağırsoy deyib ki, qardaşının məhkəməsi onlardan xəbərsiz, faktiki gizli keçirilib. O, hesab edir ki, buna səbəb Z.Bağırzadənin bədənində işgəncə izlərinin

qalması ola bilər. Yəni istəməyiblər ki, ailə üzvləri Z.Bağırzadənin işgəncə verilmiş vəziyyətini görsünlər. Bundan başqa, Zeynalabdinin təhqir edildiyi və döyüldüyünə şahid olanlar nə dindirilib, nə də onların ifadəsi alınıb.

### 31. Mahmudov Nazim Əzim oğlu

**Saxlanma tarixi:** 15 noyabr 2015-ci.
**İttiham:** CM-nın 315-ci maddəsi (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə)
**Saxlandığı yer:** Kəngərli rayonunun Böyükdüz kənd ərazisindəki müvvəqqəti saxlama təcridxanasında.
**İş üzrə qısa arayış:** Müxalifət partiyası Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) fəalı Nazim Mahmudov noyabrın 15-də Sədərək Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. Yaxınlarının dediyinə görə, o, üç gün Naxçıvan Daxili İşlər Nazirliyinin zirzəmisində saxlanılıb və işgəncəyə məruz qalıb.
Noyabrın 20-də Sədərək Rayon Polis Şöbəsinə gətirilən Nazim Mahmudova qarşı Cinayət Məcəlləsinin 315-ci maddəsi ilə ittiham elan olunub, həmin gün Sədərək rayon Məhkəməsinin hakimi (sədr) Zülüqar Əhmədovun sədrliyi ilə keçirilən məhkəmə iclasında onun barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib.

AXCP Naxçıvan şöbəsinin sədri Yaşar Bağırsoy hesab edir ki, Nazim Mahmudovun həbsi siyasi sifarişdir və onların fəallığı ilə əlaqədardır: "Elə ittiham verilən maddə də hər şeyi göstərir".

## E. İnanclı fəallar

### *a. Səid Dadaşbəyli və onunla birgə tutulan şəxslərin işi*

Cənab Dadaşbəyli Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat və istehsalın idarə olunması" ixtisası üzrə təhsil alıb. 1992-1998-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətində çalışıb. 1998-ci ildən "Azəri EM-AY Drillinq Flyuids" Azərbaycan-ABŞ birgə müəssisəsində material-texniki təchizat üzrə koordinator vəzifəsində çalışıb. Kanada hökuməti mütəxəssis fəaliyyəti ilə əlaqədar olaraq ona daimi yaşayış haqqında pasport təqdim etmişdir. Evlidir, 2 azyaşlı uşağı var.

13-18 yanvar 2007-ci il tarixlərində "Səid Dadaşbəyli işi" üzrə təxminən 30 nəfər həbs edilib. Bir müddət sonra həbs edilənlərin bəziləri Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında saxlanılan 11 nəfərin əleyhinə izahat vermək şərti ilə azadlığa buraxılıb. Həbslərin ilkin mərhələsindən etibarən ciddi qanun pozuntularına yol verilib. İttiham olunanların mənzillərində axtarış aparılması barədə məhkəmə qərarları olmadan Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları güc tətbiq edərək mənzillərə daxil olub. Həbs edilənlərin valideynləri və qohumlarının etirazlarına baxmayaraq, MTN əməkdaşları nümayişkaranə şəkildə həbsi əsaslandırmaq üçün silah və lazım olan digər "maddi sübut"ları mənzillərə qoyublar. Baş verən hərəkətlər Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin kobud şəkildə pozulmasıdır. Bununla yanaşı, həbsin ilk günlərində saxlanılanlara vəkilləri ilə əlaqə yaratmaq imkanı verilməyib.
İstintaqın ilk yeddi ayı ərzində ittiham olunanlardan heç biri məhkəmə önünə çıxarılmayıb. Onların istintaq dövründə həbs edilmələri barədə məhkəmə qərarları qəbul edilməyib və həbslər qanuni şəkildə rəsmiləşdirilməyib. İttiham olunan şəxslər həbsdən 8 ay sonra 17 sentyabr 2007-ci il tarixində Ağır Cinayətlərə Dair Məhkəməyə gətirilib. Həbs edilənlər istintaq zamanı məhkəməyə qədər - 13 yanvar 2007-ci il tarixindən 11 dekabr 2007-ci il tarixinədək Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında tək adamlıq kameralarda saxlanılıblar. Onlar mütəmadi olaraq döyülüb, yatmaqdan, yeməkdən və sudan məhrum ediliblər. Eyni zamanda həbs edilənlərə psixotrop maddələr verilib. Həbs edilənləri istintaqa lazım olan etiraf izahatları verməyəcəkləri təqdirdə azadlıqda olan qohumlarına işgəncə veriləcəyi ilə hədələyiblər.

2007-ci ilin mart ayında vəhşicəsinə edilən işgəncə zamanı Emin Məmmədov adlı məhbus dünyasını dəyişib. Emin Məmmədovun ölümünün səbəbləri barədə tibbi arayış var. Bir neçə ay ərzində Emin Məmmədovun ölümü valideynlərindən və ictimaiyyətdən gizlədilib. Onun ailəsi hüquq müdafiəçilərinə Emin Məmmədovun ölümü ilə bağlı müraciət edəcəkləri, ictimaiyyət qarşısında öldürülmüş şəxsin taleyi ilə bağlı məsələ qaldıracaqları təqdirdə yeni repressiyalara məruz qalacaqları ilə hədələnib. Vəkilin məhbus E. Məmmədovun saxlandığı yer barədə verdiyi sorğusuna cavab verən MTN bildirilib ki, bu adam haqqında heç bir məlumata malik deyillər və E. Məmmədov MTN-də heç bir zaman olmayıb. MTN təcridxanasında işgəncələrə məruz qalaraq həyatını itirən E. Məmmədov məhkəmə prosesləri zamanı xatırlanmayıb. E. Məmmədov məhkəmə və ictimaiyyət üçün izsiz olaraq yoxa çıxıb.

Məhkəmə prosesləri qapalı keçirilib və həbs edilənlərin ailə üzvləri proseslərə buraxılmayıb. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 200-cü maddəsinə əsasən dövlət sirlərinin yayılmasının qarşısını almaq məqsədilə məhkəmə prosesləri qapalı keçirilə bilər. Lakin cinayət işində dövlət sirri barədə hər hansı bir qeyd yoxdur və CPM-nin 200-cü maddəsinə istinad edilərək məhkəmə proseslərinin qapalı keçirilməsi əsaslandırılmayıb. Bu cinayət işi üzrə məhkəmə proseslərinin qapalı keçirilməsi qanuna zidd idi. Məhkəmə prosesi zamanı ittiham edilənlər, onlara qarşı irəli sürülən ittihamları qəbul etməyiblər. Eyni zamanda həbs müddətində işgəncələrə və digər qanuna zidd hərəkətlərə məruz qaldıqlarını bəyan ediblər. Məhkəmə prosesi zamanı məlum olub ki, terror təşkilatı yaratmaqda günahlandırılanların əksəriyyəti həbsə qədər bir-birlərini tanımayıblar. Eyni zamanda irəli sürülən ittihamların heç birini məhkəmə zamanı sübuta yetirmək mümkün olmayıb. Məhkəmə prosesi ittiham tərəfinin istəyinə uyğun şəkildə yekunlaşıb.

**32. Ağayev Fərid Nadir oğlu**



**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il
**İttiham:** CM-nin 28.2 (*yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 (soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə); 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**33. Dadaşbəyli Səid Ələkbər oğlu**



**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il

**İttiham:** CM-nin 28.2 (*yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 (soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə); 204.3.1 (*satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, mütəşəkkil dəstə tərəfindən törədildikdə),* 204.3.2 (*satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, külli miqdarda törədildikdə*), 218.1 (*ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədilə cinayətkar birlik (təşkilat) yaratma, habelə belə birliklərə (təşkilatlara) və ya onların tərkib hissəsi olan struktur bölmələrinə rəhbərlik etmə, həmçinin ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün plan və şərtlərin işlənib hazırlanması məqsədilə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyini yaratma),* 228.1 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 228.4 (*qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla),* 234.1 (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama),* 274 (*dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə)* və 278-ci (*Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**34. Əliyev Ceyhun Saleh oğlu**



**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il
**İttiham:** CM-nin 28.2 (yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq), 180.3.1 (*soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə*); 218.2 (*cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə*), 228.1 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və*

*həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*), 274 (*dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə*) və 278-ci (*Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 35. Əliyev Rəşad İsmayıl oğlu



**Saxlanma tarixi:** 13 yanvar 2007-ci il
**İttiham:** CM-nin 28.2 (*yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq*), 180.3.1 (*soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə); 204.3.1 (satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, mütəşəkkil dəstə tərəfindən törədildikdə*), 204.3.2 (*satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, külli miqdarda törədildikdə*), 218.2 (*cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə*) və 278-ci (*Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 36. İdrisov Mikayıl Qərib oğlu



**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il
**İttiham:** CM-nin 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə),* 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**37. Kərimov Cahangir Ramiz oğlu**



**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il
**İttiham:** CM-nin 28.2 (*yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq*), 180.3.1 (*soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə);* 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə),* 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 274 *(dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

**38. Kərimov Rasim Rafiq oğlu**



**Saxlanma tarixi:** 20 yanvar 2007-ci il
**İttiham:** CM-nin 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

**39. Qocayev Samir Edik oğlu**



**Saxlanma tarixi:** 17 yanvar 2007-ci il
**İttiham:** CM-nin 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**40. Quliyev Bəybala Yəhya oğlu**



**Saxlanma tarixi:** 13 mart 2007-ci il
**İttiham:** CM-nin 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə),* 228.1 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 228.2.1 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə),* 228.4 (*qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

**41. Möhbalıyev Emil Nurəddin oğlu**



**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il
**İttiham:** CM-nin 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri
**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

### *b. Azərbaycan İslam Partiyasının sədri və onunla birlikdə tutulan şəxslərin işi*

1991-ci ildə Bakıda təsis edilən Azərbaycan İslam Partiyası 1992-ci ildə dövlət qeydiyyatına alınıb. 1995-ci ildə qeydiyyatı Ali Məhkəmə tərəfindən ləğv edilən partiyanın fəaliyyəti faktiki olaraq qadağan edilməyib və qeydiyyat olmadan hazırda da fəaliyyət göstərir. Partiyanın 2007-ci ildə keçirilən qurultayında Hacı Mövsüm Səmədov partiyanın sədri seçilib və qeydiyyat üçün Ədliyyə Nazirliyinə müraciət edilib (partiya qeydiyyata alınmayıb).
Partiya və cənab Səmədov Azərbaycanda islam dininin tələblərinə riayət edilməli olduğunu, Azərbaycan hakimiyyətinin islama qarşı yönələn siyasət apardığını, ABŞ və İsraili işğalçı ölkə kimi tanıdığını bəyan edib. Cənab Səmədov 2009-cu ilin dekabrında İran radiosuna verdiyi müsahibəsində Azərbaycanda bir neçə məscidin sökülməsi ilə bağlı qərara etirazını bildirmiş və dini sahəni tənzim edən bəzi qanunlara edilən dəyişiklikləri pisləmişdir. 2010-cu ilin aprelində cənab Səmədov Prezident İlham Əliyevə müraciət göndərmiş və ona prezident seçildikdən sonra Konstitusiya ilə yanaşı "Qurani-Kərim"ə də and içdiyini, lakin bəzi əməllərinin həm Konstitusiyaya, həm də "Quran"a zidd olduğunu bildirmişdir. Cənab Səmədov həmin il Beynəlxalq Qüds Günündə İsrail səfirliyinin qarşısında keçirilən dinc aksiyada iştirak edib və saxlanılıb, sonradan sərbəst buraxılıb. Partiya 2010-cu ilin noyabrında "Alma" qəzetində Məhəmməd Peyğəmbərlə bağlı yazılara etiraz olaraq Qafqaz Müsəlmanları İdarəsi ilə birgə Mətbuat Şurasına müraciət edir, partiya sonradan Milli Televiziya və Radio Şurasına da telekanallarda açıq-saçıq verilişlərin yığışdırılmasının zəruriliyi ilə bağlı müraciət edir. Partiya və cənab Səmədov 2010-cu ilin noyabrında keçirilmiş parlament seçkilərində iştirak etsə də, mandat qazana bilmir. 2010-cu ilin dekabrında Təhsil Nazirliyi tərəfindən məktəblərdə hicabın qadağan edilməsi ilə bağlı qərarın əleyhinə təşkil edilmiş ilk dinc etiraz aksiyasında partiya fəalları iştirak ediblər.
2011-ci il yanvarın 2-də Partiyanın Baş Məclisində cənab Səmədov çıxış edərək hicaba qadağa ilə bağlı təhsil naziri Misir Mərdanovu, ölkədəki ictimai və sosial vəziyyətə görə isə prezident İlham Əliyevi sərt tənqid edib[25]. Çıxışı zamanı cənab Səmədov Dubayda prezident İlham Əliyevə və oğluna məxsus olan villalar barədə bir müddət əvvəl Washington Post və New York Times qəzetlərində dərc edilən məqalələrə istinad edərək, Azərbaycan xalqının və dövlətinin sərvətlərinin oğurlandığını, bu qədər sərvətlərin olmasına baxmayaraq Azərbaycan gənci üçün iş yerinin olmadığını, ölkədə ədalətsizlik və rüşvətin tüğyan etdiyini, keçmiş prezident Heydər Əliyevin doğum günü keçirilən Gül bayramına xərclənən pulların xalqdan oğurlandığını və Heydər Əliyevə sitayiş etməklə ölkədə bütpərəstliliyin təbliğ edildiyini bildirib. Cənab Səmədov çıxışında bildirib ki, Azərbaycan xalqı bu məsələdə ayıq olmalı və ayağa qalxmalı, hakimiyyəti dəyişməli və bu zülmün qarşısında durmalıdır. Cənab Səmədovun bu çıxışı sosial şəbəkələrdə, xüsusən Youtube portalında geniş şəkildə yayılıb və geniş müzakirələr yaradıb.
Cənab Səmədov bu çıxışından cəmi 5 gün sonra, yanvarın 7-də öz müavini Vaqif Abdullayev, partiya üzvü Elçin Həsənov və sürücüsü Mirhüseyn Kazımovla birgə həbs edilir. Adları çəkilən şəxslərin olduğu maşın Dövlət Yol Polisi əməkdaşları

[25] http://bit.ly/1mb5txL

tərəfindən saxlanılır, polis sürücüdən sürücülük vəsiqəsini aldıqdan sonra yol polisi maşınının qarşısındakı qara rəngli maşından düşən bir neçə mülkigeyimli şəxs cənab Səmədovu və onunla birgə olanları polisə müqavimət göstərməkdə ittiham edərək saxlayıblar. Nərimanov rayonu 19-cu polis bölməsinə gətirilən cənab Səmədov və onunla birgə olan şəxslər orada izahat verdikdən sonra Binəqədi rayon Məhkəməsinə aparılıblar və məhkəmə polisə müqavimət ittihamı ilə onların barəsində 10-15 gün inzibati həbs qərarı verib (cənab Səmədov 14 gün inzibati həbs alıb). Cənab Səmədovdan başqa saxlanılanlar Binəqədi Müvəqqəti Saxlama Təcridxanasına aparılıblar, cənab Səmədovun harada saxlanması ilə bağlı bir neçə gün ərzində heç bir məlumat verilməyib (sonradan onun Milli Təhlükəsizlik Nazirliyində saxlandığı məlum olub).

Cənab Səmədov inzibati qaydada həbs edildiyi gün Daxili İşlər Nazirliyi cənab Səmədovun Qubada yaşayan əmisi oğlu Dəyanət Səmədovla birgə iğtişaşlar törətmək, ictimai təhlükəsizliyi pozmaq, insanları cihada təhrik etmək barədə tapşırıqlar verməsi ilə bağlı nazirliyə daxil olmuş məlumatlar əsasında Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən əməliyyat-axtarış tədbirlərinin həyata keçirildiyini və Dəyanət Səmədovun işlədiyi elektrik malları dükanından 3 ədəd əl qumbarası və yaşadığı evdən 7 avtomat patronun tapıldığını və faktla bağlı cinayət işinin açıldığını bəyan etmişdir. Partiyanın daha bir fəalı cənab Axundzadə, o cümlədən cənab Səmədovun əmisi oğlu Dəyanət Səmədov və qaynı Firdovsi Məmmədrzayev, yanvarın 2-də keçirilmiş Baş Məclisdə iştirak etmiş ruhanilər Fəramiz Abbasov və Zülfüqar Mikayılzadə saxlanılmış, onların evindən silah-sursatın tapıldığı bildirilmişdir. Cənab Səmədova və onunla birgə həbs edilmiş şəxslərə qarşı cənab Səmədovun məhz yanvarın 2-də etdiyi çıxışı zamanı hakimiyyətin zorla ələ keçirilməsinə çağırış edilməsi ilə bağlı ittiham və digər ittihamlar irəli sürülmüşdür. İnzibati həbs müddəti bitdikdən sonra cənab Səmədovun barəsində, o cümlədən digər həbs edilən şəxslər barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 07 oktyabr 2011-ci il tarixli qərarı ilə cənab Səmədov Mövsüm ***12 il***, cənab Axundzadə ***11 il 6 ay,*** cənab Abdullayev ***11 il,*** cənab Abbasov ***11 il***, cənab Məmmədrzayev ***10 il***, cənab Səmədov Dəyanət ***10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına*** məhkum ediliblər. Cənab Mikayılzadə isə ***5 il sınaq müddəti tətbiq olunmaqla 11 il şərti azadlıqdan məhrumetmə*** cəzasına məhkum olunub. Bakı Apellyasiya Məhkəməsi 17 may 2012-ci il tarixdə, Ali Məhkəmə isə 21 fevral 2013-cü il tarixdə bu qərarı olduğu kimi qüvvədə saxlayıb.

Məhkəmə proseslərinin müşahidəsi və yekun hökmün tədqiqi zamanı məlum olur ki, cənab Səmədov onunla birgə həbs edilən şəxslərlə əvvəlcədən heç bir cinayət əlaqəsinə girməmişdir, yanvarın 2-də etdiyi çıxışı özü hazırlamış və keçirilən tədbirdə iştirak edən partiyanın sədr müavini cənab Abdullayev, partiyanın Astara rayon şöbəsinin sədri cənab Axundzadə, tədbirə tanınmış ruhanilər olaraq qonaq kimi dəvət edilmiş cənab Abbasov və cənab Mikayılzadə bu çıxışı orada eşitmişlər. Cənab Səmədov çıxışı zamanı istintaqın iddia etdiyi kimi "cihad" sözünü ümumiyyətlə işlətmədiyini, xalqı digər müxalif siyasətçilər etdiyi kimi inandığı dəyərlər uğrunda mübarizəyə çağırdığını və hakimiyyəti sərt tənqid etdiyini bildirmişdir. Məhkəmənin istinad etdiyi bütün sübutlar hüquq-mühafizə orqanları tərəfindən təqdim edilən sənədlərə və ya ifadələrə əsaslanıb. İstintaq zamanı təqsirləndirilən şəxslərin əleyhinə ifadə vermiş şahidlərin əksəriyyəti məhkəmədə bu ifadələrindən imtina etmiş, istintaqda basqı altında olduqları üçün bu cür ifadələr verdiklərini bildirmişlər. Məhkəmə isə bu şəxslərin ifadələrini dəyişmələrini hökm çıxarılarkən şahidlərə kənar şəxslərin təsir göstərmələrinin nəticəsi kimi qiymətləndirib. Silahların tapıldığı iddia

edilən cənab Dəyanət Səmədovun çalışdığı mağazada axtarış barədə tərtib edilmiş protokolda hal şahidi kimi Güloğlanov Rasim Muxtar oğlu göstərilsə də, məhkəmədə bu şəxsin adının əslində Piroğlanov Taleh Rasim oğlu olduğu məlum olmuşdur. Digər hal şahidi Həzrət Əliyev isə axtarış protokolunu axtarış aparılan yerdə deyil, polis bölməsində imzaladığını bildirmiş, polis şöbəsinə ümumiyyətlə niyə getdiyini izah edə bilməmişdir. Cənab Məmmədrzayevlə cənab Dəyanət Səmədovun Qubadakı məsciddə söhbətlərini eşitdiyi iddia edilən şahid İlham Şərafəddinov isə məhkəmə zalında cənab Məmmədrzayevi tanımamışdır, bu söhbətləri eşitdiyini iddia edən digər şahid Natiq Məmmədov istintaqa ifadə verərkən hərbi biletini təqdim etmiş, şəxsiyyət vəsiqəsinin isə olmadığını bildirmişdir ki, bu, şahidin şəxsiyyəti ilə bağlı sual yaratsa da, məhkəmə buna əhəmiyyət verməmişdir. Özünü dindar kimi qələmə verən və mütəmadi şəkildə Qubada məscidə getdiyini deyən şahid dinlə bağlı adi suallara, məsələn, namazın neçə rükətdən ibarət olduğunu, Ramazan ayının nə olduğunu bilməyib. Cənab Səmədovun və həbs edilən digər şəxslərin Azərbaycan dövləti, milli maraqları, mənafeyi əleyhinə fəaliyyətini göstərən və İran xüsusi xidmət orqanları və ya digər qurumlarla cinayətkar əlaqədə olmasını göstərən heç bir sübut cinayət işinin materiallarında mövcud deyil.
Həbs edilən zaman səhhətində ciddi problemləri olan cənab Abdullayev saxlanma şəraiti ağır olan 12 saylı Cəzaçəkmə Müəssisəsinə köçürülmüşdü. Özünün və vəkillərinin burada qala bilməməsi və səhhətinin daha da ağırlaşması ilə bağlı dəfələrlə müraciət etməsinə baxmayaraq cənab Abdullayev azadlığa buraxılmadı. Nəticədə cənab Abdullayev 2012-ci ilin iyulunda Penitensiar Xidmətin Müalicə Müəssisəsində dünyasını dəyişdi.
Səhhətində ciddi problemləri olan cənab Axundzadə 2013-cü ilin mayında kəskin miokard infarktı keçirib, onun azadlığa buraxılmasının zəruriliyi ilə bağlı dəfələrlə müraciət edilsə də buna əhəmiyyət verilməyib. Cənab Axundzadə dəfələrlə səhhətindəki problemlərə görə Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülüb, sonuncu dəfə bu hal 25 fevral 2014-cü ildə baş verib.
Avropa İnsan Haqları Məhkəməsi bu iş üzrə verilmiş şikayəti artıq icraata götürüb.

## 42. Abbasov Fəramiz Zeynal oğlu



**Saxlanma tarixi:** 24 yanvar 2011-ci il
**İttiham:** CM-nin 28, 214.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq*), 28, 214.2.3 (*odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq*), 228.3 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*) və 278-ci (*Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq*

*hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**43. Axundzadə Rufulla Höccətullah oğlu**



**Saxlanma tarixi:** 21 yanvar 2011-ci il
**İttiham:** CM-nin 28, 214.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq*), 28, 214.2.3 (*odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq*), 228.3 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*), 278 (*Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər*) və 283.1-ci (*milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri
**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**44. Məmmədrzayev Firdovsi Teymur oğlu**



**Saxlanma tarixi:** 12 yanvar 2011-ci il
**İttiham:** CM-nin 28, 214.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq*), 28, 214.2.3 (*odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə*

*cinayətə hazırlıq*) və 228.3-cü (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*) maddələri
**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 45. Səmədov Dəyanət Ələsgər oğlu

**Saxlanma tarixi:** 08 yanvar 2011-ci il
**İttiham:** CM-nin 28, 214.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq*), 28, 214.2.3 (*odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq*) və 228.3-cü (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*) maddələri
**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 46. Səmədov Mövsüm Mərdan oğlu



**Saxlanma tarixi:** 20 yanvar 2011-ci il
**İttiham:** Cinayət Məcəlləsinin 28, 214.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq*), 28, 214.2.3 (*odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq*), 228.3 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə*) və 278-ci (*Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

### c. 2012-ci ilin mayında tutulan inanclı fəalların işi

Bu iş üzrə həbs edilən şəxslərin bir neçəsi jurnalist Nicat Əliyevlə birgə "Avroviziya 2012" mahnı müsabiqəsi ərəfəsində gey-parad keçiriləcəyi ehtimalı olduğunu və bunun islam dini üçün qəbuledilməzliyinə inanan dindar gənclərdir. Bu şəxslər 2010-cu ilin sonunda Azərbaycanda orta məktəblərdə hicab qadağan edildikdən sonra buna qarşı keçirilmiş dinc etiraz aksiyalarında iştirak ediblər. Bəziləri Nicat Əliyevin baş redaktoru olduğu saytda məqalələrlə çıxış ediblər, informasiyaların toplanmasında yardımçı olublar.
Onlar Nicat Əliyevlə birgə "Avroviziya" ərəfəsində evlərin məhkəmə qərarı və zəruri kompensasiya olmadan sökülməsinə, inanclı şəxslərin şərlənərək həbs edilməsinə, hicabın qadağan edilməsinə və gey-paradın keçirilməsinə etiraz olaraq öz mövqelərini açıq şəkildə yaymaq və təşviq etmək qərarına gəliblər. Onlar ruhanilər Abgül Süleymanov və Tale Bağırovun (hər iki şəxs saxta ittihamlarla həbsdədir) çıxışlarından, Azərbaycan Tibb Universitetinin müəllimi Rəşid Məmmədovun ANS telekanalında LGBT məsələsi ilə bağlı çıxışından, o cümlədən sosial tələblərlə keçirilən müxtəlif etiraz aksiyalarından, bəzi Azərbaycan filmlərindən görüntülərin yer aldığı disklər hazırlayaraq, məhkəmə qərarında qeyd edildiyi kimi, "aşkar surətdə" Bakı şəhərinin müxtəlif yerlərində yaymışlar. Həbs edilən bütün şəxslər istintaqa və məhkəməyə verdiyi ifadələrində bununla öz fikirlərini ifadə etmək məqsədi daşıdıqlarını bildiriblər.
"Eurovision 1" adı ilə və adsız yayılan disklərdəki kadrların və məlumatların dövlət quruluşuna, hakimiyyət orqanlarına qarşı dözümsüzlük və nifrət aşıladığı, çaxnaşma törətməyə yönəldiyi ilə bağlı rəyi 28 iyun 2012-ci ildə dövlət qurumu olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin eksperti verib, məhkəmə isə müstəqil ekspertizanın keçirilməsi ilə bağlı vəsatəti təmin etməyib. Bundan əlavə ekspert Məmmədov Nahid Qədir oğlu məhkəmə prosesi zamanı ekspertiza zamanı hansı metodologiyadan istifadə etdiyini, hansı səbəblərə görə disklərdəki materialların neqativ xarakterli olması nəticəsinə gəldiyini izah edə bilməyib, əksər suallara "yadımda deyil", "xatırlamıram" kimi cavablar verib. Vəkillər ekspertin suallara cavab verməyə hazır olmadığını və ona hazırlaşmaq üçün əlavə vaxtın verilməli olduğunu hakimin diqqətinə çatdıraraq bununla bağlı vəsatət versələr də, hakim vəsatəti təmin etməyib və ekspertin dindirilməsinin başa çatdığını elan edib.
Həbs edilmiş şəxslərə qarşı irəli sürülmüş digər ittihamlar üzrə istintaqın təqdim etdiyi sübutlar yalnız polis əməkdaşlarının və hal şahidlərinin ifadələri olub ki, məhkəmə prosesi zamanı sualları cavablandırarkən ziddiyyətli məqamlar ortaya çıxıb.
Nicat Əliyev və Elvin Nəsirov həbs edilərkən şiddətli işgəncələrə məruz qalıblar, nəticədə Əliyevin iki dişi sındırılıb və qulaq pərdəsi zədələnib. Hər iki şəxs məhkəmədə bu barədə məlumat versə də, hakim Bakı İstintaq Təcridxanasına məktub yazaraq hər iki şəxsin ora köçürülməsi zamanı bədənlərində işgəncə əlamətinin olub-olmamasını öyrənməklə kifayətlənib. Təcridxanadan daxil olan məktubda isə heç bir əlamətin olmadığı bildirilib.
Azadlıqdan məhrum edilən şəxslərdən ikisi – Valeh Abdullayev və Əli Əliyev barəsində ilkin olaraq həbs qətimkan tədbiri deyil, başqa yerə getməmək haqqında iltizam tədbiri seçilsə də, məhkəmə hökmü ilə onlara şərti məhkumetmə tətbiq edilmədi, halbuki mövcud olan hüquq praktikasına görə hər iki şəxs barəsində şərti azadlıqdan məhrumetmə haqqında qərar veriləcəyi ehtimal edilirdi.

### 47. Abdullayev Valeh Məmmədağa oğlu

**Saxlanma tarixi:** 9 dekabr 2013-cü il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*), 281.2 (*bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***8 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir.

---

### 48. Camalov Qorxmaz Hüseyn oğlu




**Saxlanma tarixi:** 18 yanvar 2013-cü il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*), 281.2 (*bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***7 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

**49. Əliyev Əli Etibar oğlu**

**Saxlanma tarixi:** 9 dekabr 2013-cü il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***4 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

**50. Hüseynov Elimxan Qurbanxan oğlu**



**Saxlanma tarixi:** 22 may 2012-ci il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***7 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

**51. Hüseynov Samir Xanpaşa oğlu**




**Saxlanma tarixi:** 23 may 2012-ci il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*), 228.1 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 228.4 (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***6 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

**52. Məmmədov Səfər Rövşən oğlu**

**Saxlanma tarixi:** 9 dekabr 2013-cü il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***3 il 4 ay müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

**53. Nəsirov Elvin Nurəddin oğlu**

**Saxlanma tarixi:** 20 may 2012-ci il
**İttiham:** CM-nin 167. 2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəst ə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*), 234.4.1 (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə),* 234.4.3 (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama, külli miqdarda törədildikdə),* 281.2 (*bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***9 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

**54. Səfərli Ceyhun Zabil oğlu**

**Saxlanma tarixi:** 20 may 2012-ci il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəst ə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*), 234.4.1 (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə),* 234.4.3 (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama, külli miqdarda törədildikdə),* 281.2 (*bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***9 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

### 55. Tofidi Emin Yadigar oğlu

**Saxlanma tarixi:** 16 yanvar 2013-cü il
**İttiham:** CM-nin 167.2.2.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma*) və 283.2.3-cü (*mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə*) maddələri
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı Təcridxanası)
**İş üzrə qısa arayış:** 09 dekabr 2013-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***3 il 6 ay müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü il tarixdə bu hökmü dəyişmədən qüvvədə saxlamışdır.

---

## *d. 2012-ci ildə Masallı rayonunda tutulan inanclı fəalların işi*

Jurnalist Araz Quliyevlə birgə həbs edilən bu şəxslərin hamısı inanclı Masallı rayon sakinləridir, onların bəziləri cənab Quliyevin dostları, bir nəfəri - cənab Əliyev Nicat jurnalistin qohumu, digərləri isə tanışlarıdır. Bu şəxslərin bir neçəsi cənab Quliyevə onun baş redaktoru olduğu saytda materialların yayılması üçün məlumatların toplanmasında kömək ediblər, bir neçəsi isə 2010-cu ilin sonunda məktəblərdə hicaba qadağa qoyulduqdan sonra keçirilmiş dinc aksiyalarda iştirak ediblər. Jurnalistin həbs edildiyi gün bu şəxslərdən yalnız Tahirov Ziya onunla birlikdə olub, digər şəxslərdən yalnız Ağalı Rza (o, cənab Quliyevlə sentyabrın 6-da saxlanılmışdı) eyni gündə, digərləri isə sonradan başqa tarixlərdə həbs ediliblər. Bununla belə onların hamısını Masallı rayonunda folklor festivalı çərçivəsində keçirilən diskoteka zamanı insanlara daş atmaqda və cənab Quliyevə qarşı irəli sürülən digər ittihamlarda təqsirli biliblər. Bu şəxslərin cənab Quliyevə yardımçı olduqlarını iddia edərək həbs edilmələri ondan qisas almağa və ittihamı daha da ağırlaşdırmağa (cinayətin mütəşəkkil dəstə tərəfindən törədildiyini iddia etmək üçün) xidmət etdiyi şübhə doğurmur.
Məhkəmə prosesi zamanı təqsirləndirilən şəxslərin xeyrinə verilmiş ifadələr deyil, şübhəli və suallar doğuran ifadələr daha mötəbər sübut kimi qiymətləndirilmişdir.

Məsələn, cənab Kazımovun hadisə yerində olduğunu cəmi bir şahid Hacəli Cavadov iddia etsə də, eyni anda həmin ərazidə olduğunu deyən digər şahidlər cənab Kazımovu orda görmədiklərini deyiblər. Bundan əlavə cənab Kazımovun evindən narkotik maddənin tapıldığı iddia edilən axtarış cənab Kazımovun və müdafiəçisinin iştirakı olmadan aparılıb.

Məhkəmənin yekun hökmündən görünür ki, təqsirləndirilən bir sıra şəxslərin konkret olaraq hansı qanunsuz hərəkət etməsi dəqiqləşdirilməyib və baş vermiş ümumi hadisəyə görə qanunsuz həbs edilmiş şəxslərə uzun müddətli azadlıqdan məhrumetmə cəzaları kəsilmişdir. Təqsirləndirilən şəxslərin bəzilərinə cinayətkar dəstə və ya birlik yaratma ittihamı verilməsi, bəzilərinə isə bu ittihamın verilməməsi, lakin hamısının eyni hadisəyə görə təqsirli bilinməsi ittihamın saxta və tələsik şəkildə hazırlandığını göstərir.

### 56. Ağalı Rza Qorxmaz oğlu



**Saxlanma tarixi:** 9 sentyabr 2012-cü il
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 14 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 05 aprel 2013-cü il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***7 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlamışdır.

---

### 57. Ağayev Surac Valeh oğlu



**Saxlanma tarixi:** 15 sentyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 05 aprel 2013-cü il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***5 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi, 04 iyul 2014-cü il tarixində isə Ali Məhkəmə bu hökmü dəyişdirmədən qüvvədə saxlamışdır.

---

**58. Əliyev Nicat Yasər oğlu**

**Saxlanma tarixi:** 18 sentyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 05 aprel 2013-cü il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***4 il 6 ay müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlamışdır.

---

**59. Kazımov Xalid Nofəl oğlu**



**Saxlanma tarixi:** 14 sentyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 234.4.3 (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 05 aprel 2013-cü il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***8 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlamışdır.

---

**60. Kişiyev Namiq Əlisa oğlu**



**Saxlanma tarixi:** 18 sentyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 05 aprel 2013-cü il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***4 il 6 ay müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlamışdır.

---

**61. Tahirov Ziya İbrahim oğlu**



**Saxlanma tarixi:** 9 sentyabr 2012
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü (*Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər*) maddələri
**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** 05 aprel 2013-cü il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***7 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlamışdır.

***e. 5 oktyabr 2012-ci il tarixli "Hicaba azadlıq" aksiyasına görə tutulan şəxslərin işi***

2010-cu ilin payızında Azərbaycan Respublikasının Təhsil Nazirliyi hicablı məktəblilərin dərslərə buraxılmasına qadağa qoydu. Bu addım Azərbaycanda olan dindar kəsimin etirazına səbəb olmuş, buna qarşı müxtəlif kampaniyaların və etiraz aksiyalarının keçirilməsinə gətirib çıxarmışdır. Qadağanın tətbiqinə qarşı

2010-cu ilin dekabrında keçirilmiş kiçik etiraz aksiyasından sonra ilk kütləvi etiraz aksiyası 6 may 2011-ci ildə qadağanı tətbiq etmiş Təhsil Nazirliyinin qarşısında təşkil edilmişdi. Dinc xarakter daşıyan həmin aksiya polislərin və mülki geyimli hüquq-mühafizə orqanlarının əməkdaşlarının müdaxiləsi ilə dağıdılmış, nəticədə çox sayda aksiya iştirakçısı saxlanılmış və onlardan 12 nəfər qanunsuz olaraq sübut edilməyən xuliqanlıq və ictimai qaydanın pozulması ittihamları ilə 1 il 6 aydan 3 ilə qədər müddətə azadlıqdan məhrum edilmişdilər. Bu aksiyaya görə saxlanılanların bir qismi azadlıqdan məhrum etmə müddətini başa vurduğundan, kiçik bir qismi də vaxtından əvvəl azadlığa buraxıldığından siyahıda adları yer almayıb. Bununla belə həmin şəxsləri keçmiş siyasi məhbuslar hesab edirik və maraqlanan şəxslərə əlavə zəruri məlumatları verməyə hazırdır.

İkinci kütləvi etiraz aksiyası 5 oktyabr 2012-ci il tarixində (Azərbaycanda Müəllimlər Günü kimi qeyd edilir və bu tarix mövcud olan problemə diqqəti daha da artırmaq üçün simvolik olaraq seçilmişdi) yenə də Təhsil Nazirliyinin qarşısında təşkil edilmişdir. Dinc şəkildə təşkil edilmiş aksiyanın polisin güc işlədərək dağıtması ciddi qarşıdurmaya səbəb olmuşdur, nəticədə 6 may 2011-ci il tarixində keçirilmiş aksiyadan fərqli olaraq daha çox iştirakçı saxlanılmış, həm aksiya iştirakçıları, həm də polis əməkdaşları fiziki xəsarətlər almışlar. Aksiyada iştiraka görə azadlıqdan məhrum edilmiş bütün şəxslər siyahıya daxil edilib.

Aksiyanın müşahidəsi, həmçinin sonradan aksiyadan olan foto və video çəkilişlərin analizi göstərir ki, aksiya dinc qaydada təşkil edilmiş, son ana qədər polis və ya digər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə qarşıdurmaya gedilməmişdir. Yalnız polisin güc tətbiq edərək müdaxiləsi nəticəsində mitinq iştirakçılarından bir neçəsi özlərini müdafiə etmək məqsədilə polislə qarşıdurmada olmuşlar. Video və foto kadrlardan aydın şəkildə görünür ki, aksiya zamanı təxribatçılardan istifadə edilib ki, məhz onlar əllərinə aksiya iştirakçılarının şüarlarının qeyd edildiyi taxta parçalarını almaqla, polisə müqaviməti imitasiya etməklə sonradan aksiyanın tam olaraq qeyri-dinc olduğunu "əsaslandırmaq" üçün fəaliyyət göstəriblər. Kadrlara düşən bu şəxslərin heç biri saxlanılmayıb. Lakin kadrlara yalnız üzləri düşən, amma polisə müqaviməti göstərdikləri əks edilməyən, hətta aksiyaya gecikən şəxslər həbs ediliblər və məhkəmənin qərarı ilə azadlıqdan məhrum ediliblər. Məhkəmə qərarları çıxarılarkən istinad edilən əsas sübut polis əməkdaşlarının ifadələri olub ki, aksiya zamanı qarşı tərəfin polis olduğunu nəzərə aldıqda bu ifadələrin mötəbərliyi şübhə doğurmaya bilmir. Polislərdən başqa şahid kimi dəvət edilmiş Təhsil Nazirliyi ətrafında fəaliyyət göstərən mağaza sahibləri və taksi sürücüləri isə təqsirləndirilən şəxsləri ümumiyyətlə görmədiklərini bildirmişlər. Polislə qarşıdurmada olmuş aksiya iştirakçılarına qeyri-adekvat cəza verilib.

Aksiyada iştiraka görə həbs edilən şəxslər barəsində uzun müddət ictimaiyyətə heç bir məlumat verilməmişdir, onları mühakiməsi qruplar şəklində həyata keçirilmişdir.

### 62. Ağadadaşov Tərlan Faiq oğlu



**Saxlanma tarixi:** 5 oktyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Nərimanov rayon Məhkəməsinin 22 aprel 2013-cü il qərarı ilə ***5 il 6 ay müddətinə*** azadlıqdan məhrum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 2013-cü il dekabrın 19-da bu qərarı qüvvədə saxlayıb.

---

## 63. Allahverdiyev Rövşən Hüseyn oğlu

**Saxlanma tarixi:** 5 oktyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Nərimanov rayon Məhkəməsinin 22 aprel 2013-cü il qərarı ilə ***5 il 6 ay müddətinə*** azadlıqdan məhrum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 2013-cü il dekabrın 19-da bu qərarı qüvvədə saxlayıb.

---

## 64. Həsənov Nəsimi Yusif oğlu



**Saxlanma tarixi:** 6 oktyabr 2012-ci il
**İttiham:** CM-nin 228.1-ci (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) və* 234.1-ci (*satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)*
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab Həsənov faktiki olaraq 5 oktyabr 2012-ci il tarixli "Hicaba azadlıq" aksiyasında iştirakına görə CM-nin digər maddələri ilə həbs edilən şəxsdir. Aksiyada iştirakdan sonra Bərdəyə qayıdan Həsənov barəsində aksiyadan bir neçə

gün sonra axtarış verilməsi ilə bağlı məlumatlar yayılıb (halbuki polislər Həsənovun evinə belə getməyiblər), bu məlumatların yayılmasından sonra cənab Həsənov könüllü şəkildə Bərdə rayon Polis Şöbəsinə getmiş və Bərdədə olduğunu bildirmişdir. Polis şöbəsində 5 oktyabr aksiyasında iştirakı ilə bağlı dindirilərkən polislər onun atasından Həsənova məxsus maşının açarlarını almaq üçün onların evinə gediblər, atası Həsənovun özünə zəng vurduqdan sonra açarı polislərə verib. Axtarışdan sonra maşından silah, könüllü şəkildə polisə gəlmiş Həsənovun cibindən isə 24 bükülü narkotik maddə aşkarlandığı bildirilib. Məhkəmə prosesində şahidlər qismində yalnız polislər və hal şahidləri çıxış ediblər ki, onların ifadələrində xeyli sayda ziddiyyətli və ilkin ifadələrlə üst-üstə düşməyən məqam olub, məsələn, maşında axtarış zamanı hal şahidi olmuş şəxslərdən biri hakim Əhməd Sarıyevin "maşın nə rəngdə idi?" sualına şahid "yadımda deyil, ya ağ, ya qara idi" cavabını verib, polislərdən biri "Həsənov nə vaxt həbs edilib?" sualına "5 oktyabrda" cavabını verib, halbuki cənab Həsənov aksiyadan sonrakı tarixdə həbs edilib. Bununla belə, o, Bərdə rayon Məhkəməsinin 27 iyul 2013-cü il qərarı ilə ***4 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilib.
1977-ci il iyulun 2-də anadan olan cənab Həsənov ailəlidir, 1 qız övladı var, qızı anadangəlmə iflicdir.

### 65. Hətəmov İlham Bəhmən oğlu

**Saxlanma tarixi:** 5 oktyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 14 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Nərimanov rayon Məhkəməsinin 22 aprel 2013-cü il qərarı ilə ***5 il 6 ay müddətinə*** azadlıqdan məhrum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 2013-cü il dekabrın 19-da bu qərarı qüvvədə saxlayıb.

---

### 66. Kərimov David Tərlan oğlu

**Saxlanma tarixi:** 5 oktyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Nərimanov rayon Məhkəməsinin 22 aprel 2013-cü il qərarı ilə ***6 il müddətinə*** azadlıqdan məhrum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 2013-cü il dekabrın 19-da bu qərarı qüvvədə saxlayıb.

---

### 67. Rzayev Elşad Fikrət oğlu



**Saxlanma tarixi:** 23 fevral 2013-cü il
**İttiham:** 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Nərimanov rayon Məhkəməsinin 3 iyun 2013-cü il qərarı ilə ***6 il müddətinə azadlıqdan məhrum edilib***. Bakı Apellyasiya Məhkəməsi qərarı 2013-cü ilin avqustunda qüvvədə saxlayıb.

---

**68. Şirəliyev Telman Şirəli oğlu**

**Saxlanma tarixi:** 05 oktyabr 2012-ci il
**İttiham:** CM-nin 233 (*ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Nərimanov rayon Məhkəməsinin 22 aprel 2013-cü il qərarı ilə ***6 il müddətinə*** azadlıqdan məhrum edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 2013-cü il dekabrın 19-da bu qərarı qüvvədə saxlayıb.

---

**f. İlahiyyatçılar**

**69. Süleymanov Abgül Neymət oğlu**



**Saxlanma tarixi:** 12 avqust 2011-ci il
**İttiham:** CM-nin 228.1 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə), 233 (*ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət*

*nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə*), 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 234.4.3 (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*) və 283.2.1-ci (*zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Saxlandığı yer:** 8 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Cənab Süleymanov Azərbaycanda inanclı fəal və nüfuzlu ruhani kimi tanınır. 2001-ci ildən səyyar şəkildə "Qurani-kərim" və İslam din üzrə dərslər deyən ruhani 2005-ci ildə "Milli-mənəvi dəyərlər" İctimai Birliyinin yaranmasında yaxından iştirak edib, elə həmin il Danimarkada Məhəmməd peyğəmbər barədə çəkilmiş karikaturalara etiraz əlaməti olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin qarşısında keçirilən aksiyanın fəallarından olub, 2006-2010-cu illər ərzində Beynəlxalq Qüds günü ilə bağlı İsrail səfirliyi qarşısında keçirilmiş dinc aksiyalarda iştirak edib, 2009-cu ildə Fatimeyi Zəhra məscidinin sökülməsi ilə bağlı İqtisad Məhkəməsinin çıxardığı qərardan sonra Bakı Şəhər İcra Hakimiyyətinin qarşısındakı dinc aksiya cənab Süleymanovun təşəbbüsü ilə keçirilib, 2009-2010-cu illərdə digər məscidlərin də sökülməsi ilə bağlı sərt tənqidi çıxışlar edib, 2010-cu ilin sonlarında Təhsil Nazirliyinin qərarı ilə orta məktəblərdə hicaba qoyulmuş qadağaya etiraz olaraq keçirilmiş hər iki aksiyada iştirak edib, mətbuatda bu qərarın qanunsuz olması ilə bağlı çıxışlar edib. 2011-ci ilin mayında keçirilmiş "Hicaba azadlıq" aksiyasından sonra təqiblərlə üzləşən cənab Süleymanov həmin ilin avqustunda həbs olunmuşdur.

Avqustun 12-də Milli Təhlükəsizlik Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayaraq cənab Süleymanovun onunla birgə həbs edilən jurnalist Bayramov Ramin Cahangir oğlu və Azərbaycan İslam Partiyasının üzvü Qəniyev Arif Gülsuvar oğlu ilə birlikdə Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda, xarici dövlətə və onun nümayəndələrinə kömək etməkdə, eləcə də ölkədə iğtişaşların törədilməsində, ictimai təhlükəsizliyin pozulmasında, insanların itaətsizliyə təhrik edilməsində şübhəli bilindiklərini bəyan etmişlər. Bu məlumatda eyni zamanda bildirilmişdi ki, cənab Süleymanov İran İslam Respublikasının Bakıda fəaliyyət göstərən Mədəniyyət Mərkəzinin maliyyə dəstəyi əsasında rəsmi dövlət qeydiyyatı olmayan "Cəfəri" adlı radikal dini qrup yaradaraq ona rəhbərlik etmişdir. Qrupun üzvləri dini radikallığı təşviq edən təbliğatlar aparmış, həmçinin belə ifrat çağırışları, eləcə də dini təfriqəni, məzhəb ayrı-seçkiliyini aşılayan vərəqələrin hazırlanmasını və dindarlar arasında paylanılmasını təşkil etmişlər. "Cəfəri" adlı radikal dini qrup tərəfindən təbliğat işinin genişləndirilməsi məqsədilə www.İslam-Azeri.az internet saytı yaradılmış və ona rəhbərlik Ramin Bayramova həvalə olunmuşdur.

Hər üç şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir və hər üç şəxs barəsində birgə istintaq aparılsa da, onların məhkəmələri avqustun 12-də yayılmış məlumata əksi olaraq ayrı-ayrılıqda keçirilmiş, rayon məhkəmələrinin qərarları ilə Ramin Bayramov və Arif Qəniyev 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişlər (Ramin

Bayramov Amnesty İnternational tərəfindən vicdan məhbusu kimi tanınmışdı, o da, Arif Qəniyev də azadlıqdadır), cənab Süleymanovun işinə isə Ağır Cinayətlər üzrə Məhkəmədə baxılmışdır. Məhkəmə prosesi 2012-ci ilin avqustunda başlanmışdır, cənab Süleymanovun barəsində həbs qətimkan tədbiri barədə sonuncu qərar Səbayel rayon Məhkəməsi tərəfindən 06 aprel 2012-ci ildə çıxarılıb və bu qərarda qeyd edilib ki, həbs müddəti 11 may 2012-ci ilə qədər artırılıb, bu faktdan aşkar şəkildə görünür ki, cənab Süleymanov 3 ay müddətində (2012-ci ilin mayından məhkəmənin başladığı 2012-ci ilin avqust ayına qədər) qanunsuz şəkildə, yəni məhkəmə qərarı olmadan həbsdə saxlanılıb.

Cənab Süleymanov Bakı Ağır Cinayətlər Məhkəməsinin 10 avqust 2012-ci il tarixli qərarı ilə ***11 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin hakimi Mirpaşa Hüseynovun 23 yanvar 2013-cü il tarixli qərarı ilə bu hökm qüvvədə saxlanılmışdır.

Məhkəmə istintaqı zamanı cənab Süleymanovun üzərindən və evindən tapıldığı iddia edilən narkotik maddənin ona məxsusluğu, üzərindən tapılan narkotik maddənin satış məqsədi olmadan, lakin evindən tapılan narkotik maddənin satış məqsədilə saxlanması ilə bağlı gəlinən nəticənin səbəbləri aşkar olunmayıb. Bundan əlavə ekspert rəsmi şəkildə cənab Süleymanovun narkotik maddə istifadəçisi olmadığı və bundan əziyyət çəkmədiyi ilə bağlı rəy vermişdir. Məhkəmə yalnız Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının, həmçinin ziddiyyətli ifadələr vermiş və məsələnin mahiyyətindən xəbərsiz olan hal şahidlərinə inanmış, əlavə araşdırmalarda maraqlı olmamışdır. Cənab Süleymanova qarşı irəli sürülmüş ittihamlardan biri həbsindən 8 ay əvvəl, yəni 10 dekabr 2010-cu ildə Təhsil Nazirliyinin qarşısında dinc şəkildə keçirilmiş orta məktəblərdə hicab qadağasına qarşı aksiya ilə bağlıdır. Həmin aksiya nəticəsində polis onlarla inanclı şəxsi həbs etsə də, onların çoxu sonradan sərbəst buraxılmış, bir neçə nəfər isə inzibati qaydada həbs edilmişdir, başqa sözlə desək, heç kim cinayət məsuliyyətinə cəlb edilməmişdir. Bu aksiyaya görə cənab Süleymanovun ittiham edilməsi onun həm məhz fəallığına görə təqib edildiyini, həm də ona qarşı ittihamın saxta olduğunu sübut edir. Cənab Süleymanovun qarşı irəli sürülmüş zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə milli, sosial, dini nifrət və düşmənçilik salma ittihamı onun həbsindən 9 ay qabaq, yəni 2010-cu ilin noyabrında keçirilmiş dini məclisdəki çıxışı ilə bağlıdır. Cənab Süleymanov həmin çıxışında məscidlərin sökülməsini və orta məktəblərdə hicab qadağasını sərt tənqid etmiş, buna qarşı etiraz aksiyalarının keçirilməsinin zəruriliyini vurğulamışdır, bu çıxış məclisdə iştirak edən şəxslər tərəfindən videoya çəkilmiş və sonradan sosial şəbəkələrdə yayılmışdır. İstintaq aksiya etməyə çağırışı zor tətbiqinə çağırış kimi qiymətləndirmiş, dövlət qurumu tərəfindən verilmiş ekspert rəyini mötəbər sübut kimi qəbul etmişdir.

MTN və Baş Prokurorluğun 12 avqust 2011-ci il tarixli birgə məlumatında qeyd edilən məsələlər, xüsusən cinayətkar qrupun yaradılması, bu qrupun İrandan təlimatlar alması, Ramin Bayramovun baş redaktoru olduğu saytın fəaliyyəti və s. kimi məsələlərə nə istintaq zamanı, nə də məhkəmədə toxunulmamışdır ki, bu fakt da cənab Süleymanovun siyasi sifarişlə tələsik həbs edildiyini göstərir (bu məlumat hazırda da MTN-nin rəsmi veb-səhifəsində qalıb[26]).

Cənab Süleymanov ilkin olaraq 13 saylı Cəzaçəkmə Müəssisəsinə köçürülsə də, o, dərhal "karser"ə salınmış və Cəzaçəkmə Müəssisəsinin rəhbərliyi cənab Süleymanovun burada daxili nizam-intizam qaydalarını pozması ilə bağlı təqdimatlar

---

[26] http://bit.ly/1hiq3vA

hazırlamışdır. Məhz bu təqdimatlar əsasında Qaradağ rayon Məhkəməsinin hakimi Fuad Həsənov 24 aprel 2013-cü il tarixdə (cənab Süleymanov cəzaçəkmə müəssisəsinə köçürüləndən 1 ay sonra) ruhaninin 6 ay müddətinə ağır saxlanma şəraiti olan Qobustan qapalı həbsxanasına köçürülməsi barədə qərar qəbul etmişdir. Qərardan verilən apellyasiya və kassasiya şikayətləri nəticəsində cənab Süleymanov Qobustana köçürülməsə də, o, 2014-cü ilin yanvarında cəzasının qalan hissəsini çəkmək üçün ciddi rejimli 8 saylı cəzaçəkmə müəssisəsinə köçürülmüşdür.

### g. "Nurçular"ın işi

1086 saylı cinayət işi Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən aparılıb. İş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmuş Məmmədov İsmayıl İsax oğlu və Hacıyev Eldəniz Balamət oğlu 2014-cü ilin 12 aprel tarixində həbs edilmiş və 14 aprel tarixində onlar barəsində 2 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir. Digər təqsirləndirilən şəxs Səbzəliyev Rəvan Həkim oğlu barəsində isə 23 may tarixində 2 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir. Sonradan hər 3 təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddəti 2 ay uzadılmışdır.
İşin materiallarında göstərilir ki, Bakı şəhəri Yasamal rayonunun bir neçə sakini polisə müraciət edərək, qonşuluqdakı həyət evində müxtəlif vaxtlarda yığışan dini qurumun üzvlərinin onların sakit yaşayışına, normal gediş-gəlişinə və rahatlığına mane olan hərəkətlər etməsindən şikayət etmişlər. Elə həmin günü, yəni 2 aprel 2014-cü ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyi həmin ünvanda birgə əməliyyat keçirmiş, orada ibadət etmək və kitab oxumaqla məşğul olan 40-dan çox şəxsi saxlamışdır. İttihama görə, bununla həmin 3 şəxs dini ayinlərin icrası adı altında digər şəxslərin hüquqlarını pozmuş və bu hərəkətlərinə 2 nəfər yetkinlik yaşına çatmayan şəxsi də cəlb etmişlər. Qonşuların məzmunca eyni olan şiakyətinin eyni gündə yazılması, şikayətə iki nazirliyin operativ və sərt reaksiya verməsi bu hadisənin hüquq-mühafizə orqanları tərəfindən qabaqcadan hazırlanması və nəyin bahasına olursa olsun dindar şəxslərin həbsinə yönəlmiş əməliyyat olmasını nümayiş etdirir. Halbuki bu qrupun əsas qayəsi heç bir siyasi məqsəd güdmədən dinc surətdə islam dininin sünni məzhəbindən olan islam alimi Səid Nursinin kitablarına əsaslanan, "Nurçu" adlandırılan cərəyanının təbliğatı olub. Təbliğatın dinc xarakterli olmasına, ittiham olunan şəxslərin hər hansı zorakı əməl həyata keçirməsi və Azərbaycan Respublikası qanunlarına zidd hərəkətlər etməsi ilə bağlı nəinki sübutların, hətta ehtimalların belə mövcud olmadığına baxmayaraq, bu iş üzrə təqsirləndirilən şəxslər haqqında ilk gündən həbs qətimkan tədbiri seçilmişdir. Təqsirləndirilən şəxslərə istinad olunan AR CM –nin 168.2-ci maddəsində cərimə və ya ən ağır cəza kimi 3 ilədək azadlıqdan məhrumetmə sanksiyaları nəzərdə tutulduğu halda, təqsirləndirilən şəxslərin dərhal həbs edilməsi, cinayət işinin materiallarında təqsirləndirilənlərin təqsirləndirilməsi üçün kifayət qədər əsasların olmamasına məhkəmənin heç bir məhəl qoymaması bu iş üzrə adı keçən şəxslərin dini inanclarına görə məsuliyyətə cəlb olunduğunu deməyə əsas verir. Bu şəxslərdən tapılmış islam alimi Səid Nursinin külliyyatının - ədəbiyyatın rəsmi

dini ekspertizası bu iş üzrə təqsirləndirilən şəxslərin oxuduğu və yaydığı kitabların qanuna zidd məzmunda olmadığını müəyyən etmişdir.
Sonradan 2014-cü ilin sentyabr ayında hər üç təqsirləndirilən şəxs barəsəində seçilmiş həbs qətimkan tədbiri ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilmişdir.
Eyni vaxtada 2014-cü ilin aprel ayında Göyçay rayonunda da Səid Nursi tərəfdarlarına cinayət təqibi başlanmış, onların Göyçay şəhəridə yığışdığı məznildə baxış və götürmə istintaq hərəkəti keçirlmiş, 2 nəfər şəxs Şahin Həsənov və Məmmədov Zəkəriyyə İsax oğlu təqsirləndirlən şəxs qismində cəlb edilmiş, ancaq onların barəsində həbs qətimkan tədbiri seçilməmiş, polisin nəzarəti altına verilmişlər.
Bakının Yasamal rayon Məhkəməsində 2014-cü ilin aprelində saxlanılmış ilahiyyatçı Səid Nursinin ardıcıllarının (nurçuların) işi üzrə məhkəmə prosesi 2014-cü ilin oktybar ayının sonlarında başlanmış, bu il oktyabrın 7-də isə başa çatmışdır (Hakim Aqşin Əfəndiyev).
Eldəniz Hacıyev, İsmayıl Məmmədov, Şahin Həsənov və Zəkəriyyə Məmmədovə qarşı AR Cinayət Məcəlləsinin 167-2.2.1 (Müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı (kağız və elektron daşıyıcılarında), audio və video materialları, mal və məmulatları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yaymaqabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə), 168.1 (Dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında fəaliyyət göstərən və bu fəaliyyətlə ictimai asayişi pozan, yaxud vətəndaşların sağlamlığına zərər vuran və ya formasından asılı olmayaraq vətəndaşların hüquqlarını pozan, habelə vətəndaşların qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməkdən yayındıran qrup təşkil etmə, ona rəhbərlik etmə və ya belə qrupda iştirak etmə) və 168.2-ci (yetkinlik yaşına çatmamış şəxslərin cəlb edilməsi ilə **Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə**) maddələri ilə, Rəvan Səbzəliyev isə yalnız AR CM-nin 168.2-ci maddəsi ilə təqsirli bilinmişdir.
Sentyabrın 23-də prokuror İ.Məmmədovu 7, E.Hacıyev, Ş.Həsənov və Z.Məmmədovu 6,5, R.Səbzəliyevi 4 il müddətinə azadlıqdan məhrum etməyi təklif edib.
Vəkil Yalçın İmanovun sözlərinə görə, oktyabrın 7-də Yasamal rayon Məhkəməsi ittiham olunanları tam günahkar sayıb. Onların hamısı məhkəmə zalında azadlıqdan məhrum edilib. Vəkil bildirib ki, həbs edilənlərin hər hansı təqsiri sübuta yetirilməyib. "Onlar sadəcə evə yığışıb "Risaleyi Nur" kitabını oxuyub, müzakirələr aparıb. Onlar hən hansı dini ayin belə icra etməyiblər, hər hansı şəxsin hüquqlarına qəsd etməyiblər, məhkəmə baxışısında onlara irəli sürülmüş ittihamlar öz təsdiqni tapmayıb".
Vəkil hesab edir ki, təqsirləndirilən şəxslərin Azərbaycan Konstitusiyasının 47-ci (fikir və söz azadlığı), 48-ci (vicdan azadlığı), 49-cu (toplaşmaq azadlığı) maddələrində zəmanət verilmiş hüquqları pozulub."Təqsirləndirilən şəxslər siyasi konyunkturanın qurbanlarıdır. Həbs edilənlər kllassik nurçuluğun ardıcıllarıdır. Amma Türkiyə və Azərbaycanda tərəfdarları təqibə məruz qoyulan Fətullah Gülənlə heç bir əlaqələri yoxdur".

**70. Məmmədov İsmayıl İsax oğlu**

**Saxlanma tarixi:** həbs qətimkan tədbiri 14 aprel 2014-cü ildə seçilib
**İttiham:** CM-nin 167-2.2.1, 168.1 və 168.2-ci maddələri.
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası.
İş üzrə qısa arayış: Cinayət işinin materiallarından Məmmədov İsmayıl İsax oğlunun sadəcə dini dərslər təşkil etmək, gizli toplantılar keçirərək, dini təbliğat aparmaqda günahlandırıldığı və dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməkdə günahlandırıldığı görünür. Onun və bu iş üzrə təqsirləndirilən digər şəxslərin dini ayinlər keçirdiyi ünvandan müsadirə olunan ədəbiyyat, audio və video materialların ekspertizası keçirilib və ekspertiza Azərbaycan qanunları ilə ziddiyyət təşkil edən məzmun aşkarlamayıb.
Bununla belə Məmmədov İsmayıl İsax oğlu və digərləri azadlıqdan məhrum edilib. İsmayıl Məmmədov vərəmdən əziyyət çəkir. Vəkili onun sağlamlığı üçün uyğun şəraitdə saxlanmadığını deyir.
İsmayıl Məmmədov 7 oktyabr 2015-ci il tarixdə Yasamal rayon Məhkəməsinin hökmü ilə 4 il 6 ay müddətinə azadlıqdan məhrum olunub.

**71. Səbzəliyev Rəvan Hakim oğlu**

**Saxlanma tarixi:** həbs qətimkan tədbiri 23 may 2014-cü ildə seçilib

**İttiham:** CM-nin 168.2-ci maddəsi.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası
İş üzrə qısa arayış: Cinayət işinin materiallarından Səbzəliyev Rəvan Həkim oğlunun yektinlik yaşına çatmayanları cəlb etməklə dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etdiyi deyilir. İş üzrə 4 nəfər zərəçəkmiş şəxs Rəvan Səbzəliyevi tanımadığını məhkəmə baxışında verdikləri ifadələrində bildiriblər.
7 oktyabr 2015-ci il tarixdə Yasamal rayon Məhkəməsinin hökmü ilə Rəvan Səbzəliyev 1 il 1 ay 29 gün müddətinə azadlıqdan məhrum edilib.

**72. Hacıyev Eldəniz Balamət oğlu**

**Saxlanma tarixi:** həbs qətimkan tədbiri 14 aprel 2014-cü ildə seçilib

**İttiham:** CM-nin 167-2.2.1, və 168.2-ci maddələri.
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası
İş üzrə qısa arayış: Eldəniz Hacıyev Səid Nursinin kitablarının tədris olunduğu dərsxananı təşkil edənlərdən biridir. Cinayət işinin materiallarından Hacıyev Eldəniz Balamət oğlunun sadəcə dini dərslər təşkil etmək, gizli toplantılar keçirərək, dini təbliğat aparmaqda günahlandırıldığı və dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməkdə günahlandırıldığı görünür. Onun və bu iş üzrə təqsirləndirilən digər şəxslərin dini ayinlər keçirdiyi ünvandan müsadirə olunan ədəbiyyat, audio və video materialların ekspertizası keçirilib və ekspertiza

Azərbaycan qanunları ilə ziddiyyət təşkil edən məzmun aşkarlamayıb. İş üzrə zərəçəkmiş şəxslər Eldəniz hacıyevin onların hər hansı hüquqlarını pozmadığını bildiriblər.
Bununla belə Eldəniz Hacıyev həbsdə saxlanmaqda davam edir.
O, 7 oktyabr 2015-ci il tarixdə Yasamal Rayon Məhkəməsinin hökmü ilə 4 il 6 ay müddətinə azadlıqdan məhrum olunub.

### 73. Həsənov Şahin Muxtar oğlu

**Saxlanma tarixi:** istintaq dövründə həbs olunmayıb, polisin nəzarətinə verilib.

**İttiham:** CM-nin 167-2.2.1, 168.1-ci maddələri.
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası.
İş üzrə qısa arayış: Həsənov Şahin Səid Nursinin kitablarının tədris olunduğu dərsxananı təşkil edənlərdən biridir. Cinayət işinin materiallarından Həsənov Şahin Muxtar oğlunun sadəcə dini dərslər təşkil etmək, gizli toplantılar keçirərək, dini təbliğat aparmaqda günahlandırıldığı və dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməkdə günahlandırıldığı görünür. Onun və bu iş üzrə təqsirləndirilən digər şəxslərin dini ayinlər keçirdiyi ünvandan müsadirə olunan ədəbiyyat, audio və video materialların ekspertizası keçirilib və ekspertiza Azərbaycan qanunları ilə ziddiyyət təşkil edən məzmun aşkarlamayıb. Eyni zamanda zərəçəkmiş 2 şəxs Şahin Həsənovun onların hər hansı hüquqlarına qəsd etmədiyini məhkəmədə verdiklərini ifadələrində göstəriblər.
Bununla belə Həsənov Şahin həbsdə saxlanmaqda davam edir.
O, 7 oktyabr 2015-ci il tarixdə Yasamal rayon Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum olunub.

### 74. Məmmədov Zəkəriyya İsax oğlu

**Saxlanma tarixi:** istintaq dövrümdə həbs olunmayıb, polisin nəzarətinə verilib.

**İttiham:** CM-nin 167-2.2.1, 168.1-ci maddələri.
**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası
İş üzrə qısa arayış: Məmmədov Zəkəriyya İsax oğlu Səid Nursinin kitablarının tədris olunduğu dərsxananı təşkil edənlərdən biridir. Cinayət işinin materiallarından. Məmmədov Zəkəriyyə İsax oğlunun sadəcə dini dərslər təşkil etmək, gizli toplantılar keçirərək, dini təbliğat aparmaqda və dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməkdə günahlandırıldığı görünür. Onun və bu iş üzrə təqsirləndirilən digər şəxslərin dini ayinlər keçirdiyi ünvandan müsadirə olunan ədəbiyyat, audio və video materialların ekspertizası keçirilib və ekspertiza Azərbaycan qanunları ilə ziddiyyət təşkil edən məzmun aşkarlamayıb. Eyni zamanda

məhkəmədə verdikləri ifadələrində 2 zərərçəkmiş şəxs Z.Məmmədovun onların hər hansı hüquqlarına qəsd etmədiyini bildiriblər.
Bununla belə Məmmədov Zəkəriyya həbsdə saxlanmaqda davam edir.
O, 7 oktyabr 2015-ci il tarixdə Yasamal Rayon Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum olunub.

## F. Ömürlüklər

### a. Keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsi (XTPD) üzvlərinin işi

Xüsusi Təyinatlı Polis Dəstəsi (XTPD) 1987-ci ildə Rövşən Cavadov və qardaşı Mahir Cavadov tərəfindən yaradılan Təkamül partiyasının əsasında qurulub. 1988-ci ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində başlanan separatçı hadisələr və nəticədə 90-cı illərin əvvəllərində Sovet İttifaqının dağılması nəticəsində müstəqillik qazanmış Azərbaycan və Ermənistan arasında başlayan müharibəyə görə Rövşən Cavadov Təkamül Partiyasının hərbi birləşməyə çevrilməsi barədə təlimat vermişdir. Münaqişə zamanı ilkin döyüşlərdən sonra cənab Cavadov polkovnik rütbəsi almış və onun rəhbərlik etdiyi hərbi birləşmə XTPD adını almışdır. 1991-ci ildə müharibədə göstərdikləri qəhrəmanlığa görə bir sıra XTPD-çilər Milli Qəhrəman adı almışlar. Cənab Cavadov 1993-cü ildə hakimiyyətə gəlməsində misilsiz rol oynamış keçmiş prezident Heydər Əliyev (hazırkı Prezident İlham Əliyevin atası) tərəfindən daxili işlər nazirinin müavini təyin edilmiş, XTPD isə nazirliyin tərkibində saxlanılmışdır. Siyahıda adı olan Elçin Əmiraslanov XTPD-nin Qazax bölməsinin komandiri təyin edilib. Bununla belə, bir müddətdən sonra cənab Cavadovla cənab Heydər Əliyev arasında ciddi fikir ayrılıqları yaranmış və bu getdikcə dərinləşməyə başlamışdır. 1995-ci ilin yanvarında Elçin Əmiraslanov və Qazax XTPD-çiləri rayonun Şıxlı kəndindən Ermənistan ərazisinə neft keçirilməsinin qarşısını almış, 22 sisterni Qazax rayon Polis Şöbəsinə təhvil vermiş və bununla bağlı cənab Əmiraslanov dövlət televiziyasında çıxış edərək neft keçirmək istəyən şəxslərin tutulmamasına görə tənqidi fikirlər səsləndirmişdir. Məhz bundan sonra XTPD-çilərlə Heydər Əliyev arasında ziddiyyətlər açıq mübarizə xəttinə keçmişdir, 1995-ci il matın 13-də XTPD-nin Qazax bölməsinə hücum olmuş və qanlı döyüş baş vermişdir. Martın 14-də daxili işlər naziri Ramil Usubov (hazırda da bu vəzifəni daşıyır) XTPD-nin buraxılması və 3 gün ərzində silahların təhvil verilməsi barədə əmr imzalamışdır. Bununla belə martın 16-dan 17-ə keçən gecə XTPD-nin Bakıdakı qərargahı ətrafında XTPD-çilərlə daxili qoşunlar arasında silahlı toqquşma baş vermiş, nəticədə XTPD-nin rəisi cənab Cavadov aldığı yaralar nəticəsində Daxili İşlər Nazirliyinin hospitalında dünyasını dəyişmişdir.
Bundan sonra ölkə boyu XTPD üzvlərinin həbsi həyata keçirilmişdir. Həbs edilən və sonradan azadlıqdan məhrum edilən çoxsaylı XTPD-çilərə qarşı qiyam ittihamı ilə yanaşı müxtəlif illərdə törədilmiş səs-küylü qətllərin törədilməsi ittihamları da irəli sürülmüşdür. Azadlıqdan məhrum edilmiş XTPD-çilər ya həbsxanalarda dünyalarını dəyişmiş, ya da sonrakı illərdə siyasi və ya ehtimal edilən siyasi məhbuslar qismində bir qayda olaraq əfv vasitəsilə azadlığa buraxılmışlar. Sonuncu dəfə əfv fərmanı ilə XTPD üzvü olmuş Şəmsi Abdullayev 2012-ci ilin dekabrında azadlığa buraxılmışdır. Bununla belə, bir neçə XTPD-çi hələ də həbsdə saxlanılırlar.

Məhbusların üzərinə qoyulmuş əsas ittihama əsasən, Elçin Əmiraslanovun tapşırığı ilə Səfa Poladov və Arif Kazımov Qazax rayonunda yerləşən "Akasiya" restoranında Qazax rayon Polis Şöbəsinin rəisini və Qazax-Ağstafa rayonları üzrə MTN idarəsinin rəisini öldürmüşlər. Hər 3 məhbus vətənə xəyanət maddəsi ilə təqsirli bilinərək ölüm cəzasına məhkum edilsələr də, bu ittihamın mahiyyəti nə istintaq tərəfindən, nə də məhkəmə tərəfindən sübut edilməmişdir. Daha sonra cənab Əmiraslanov Xüsusi İdarənin rəisi Şəmsi Rəhimovun və Milli Məclisin sədr müavini Afiyəddin Cəlilovun qətlində iştirakçılıqda da ittiham edilmişdir.

Məhkəmə iclaslarında Qazax rayonunda baş vermiş hadisə ilə bağlı ittiham sübuta yetməmiş, vəfat etmiş şəxslərin yaxınları həbs edilənlərə qarşı heç bir şikayət və tələblərinin olmadığını və bu şəxslərin onların yaxın qohumlarını öldürmədiklərini, vəfat etmiş şəxslərin Ermənistana neft keçirilməsi ilə bağlı istintaqla əlaqədar öldürüldüklərini bildirmişlər.
Bununla belə, cənab Əmiraslanov, cənab Kazımov və cənab Poladov Azərbaycan Respublikası Ali Məhkəməsinin 28 noyabr 1997-ci il tarixli qərarı ilə Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsinə əsasən ***ölüm cəzasına məhkum edildilər***. Ərizəçilər məhkum edilən vaxt onların hökmündən apellyasiya şikayətinin verilməsi qanunla nəzərdə tutulmurdu. Bundan əlavə, cənab Əmiraslanov Ali Məhkəmənin 22 sentyabr 2000-ci il tarixli qərarı ilə ***15 il müddətinə azadlıqdan məhrum*** edilmiş, bununla belə həmin qərara əsasən onun əvvəlki ömürlük azadlıqdan məhrumetmə cəzası (ölüm cəzası bu cəza ilə əvəz edilmişdi) saxlanılmışdır.
Fransada yaşayan və siyasi sığınacaq alan MTN-nin keçmiş əməkdaşı Ramin Nağıyev 2010-2011-ci illərdə mətbuata verdiyi açıqlamalarında və yazılarında, XTPD-çilərin ittiham edildiyi qətllərin onlar tərəfindən deyil, 2005-ci ildə həbs edilmiş DİN-nin Baş Cinayət Axtarış İdarəsinin sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov və onun dəstəsi tərəfindən törədildiyini bəyan etmişdir. Cənab Nağıyev Şəmsi Rəhimov və Afiyəddin Cəlilovun qətli ilə bağlı istintaq qrupunun üzvlərindən biri olub və 1995-ci ildə heç bir səbəb göstərilmədən istintaqdan kənarlaşdırılmışdı[27]. Cənab Nağıyevin bəyanatları rəsmi şəkildə təkzib edilməmişdir.

## Ömürlük azadlıqdan məhrumetmə cəzası tətbiq oluna bilməzdi

10.02.1998-ci il tarixdə Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında Milli Məclis tərəfindən Qanun qəbul edilmişdir. Bu Qanunun 4-cü bəndində göstərilmişdir ki, bu Qanun qüvvəyə mindiyi günədək ölüm cəzasına məhkum olunmuş şəxslərin cəzası ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilsin**.** Faktiki olaraq ölüm cəzası həmin dövr üçün heç bir qanunvericilik aktında mövcud olmayan cəza növü ilə əvəz edildi.

1995-ci ilin noyabr ayının 12-də qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır. Konstitusiyasının 149-cu maddəsinin 7-ci hissəsinə əsasən fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir. XTPD-çilərin məhkum olunduqları Cinayət Məcəlləsinin 23-cü maddəsinə əsasən ölüm cəzası bağışlama qaydasında azadlıqdan məhrumetmə ilə əvəz edildikdə,

[27] http://bit.ly/1f0C3kt

azadlıqdan məhrumetmə 15 ildən çox müddətə, lakin 20 ildən çox olmayaraq təyin edilə bilərdi.
Göründüyü kimi, ölüm cəzasının ömürlük azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilməsi XTPD-çilərin məhkum olunduğu Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş alternativ cəzalara nisbətdə onların hüquqi vəziyyətlərini ağırlaşdırır. Belə ki, Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsində ölüm cəzası hər-hansı bir formada ləğv edildikdə (bağışlandıqda, əfv edildikdə) həmin cəza 15 ildən çox, lakin 20 ildən çox olmayan azadlıqdan məhrumetmə cəzası ilə əvəz oluna bilərdi. Deməli, Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsində ölüm cəzasının alternativi cəza 15 ildən çox, lakin 20 ildən çox olmayan azadlıqdan məhrumetmə cəzası olmuşdur. Yəni 1998-ci ildə ölüm cəzası maksimum 20 il müddətinə azadlıqdan məhrumetmə cəzası ilə dəyişdirilməli idi.
Konstitusiyanın 149-cu maddəsinin 7-ci hissəsinə əsasən, Milli Məclis 10 fevral 1998-ci il tarixli qanunla ölüm cəzasına məhkum olunan şəxslərin cəzasını ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edə bilməzdi. Çünki 10 fevral 1998-ci il tarixli qanun XTPD-çilərin məhkum olunduqları Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsində nəzərdə tutulanlara əsasən məhbusların hüquqi vəziyyətlərini ağırlaşdırıb.
Bundan başqa XTPD-çilərin ölüm cəzasını ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edən 10 fevral 1998-ci il tarixli qanun yeni Cinayət Məcəlləsinin qüvvəyə minməsi ilə 01 sentyabr 2000-ci ildən qüvvədən düşüb. Hazırda XTPD-çilərin ölüm cəzalarının ömürlük azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunması barədə qanun qüvvədən düşdüyündən onların ömürlük azadlıqdan məhrumetmə cəzalarının çəkməyə məcbur edilməsi qanunsuzdur. Çünki 10 fevral 1998-ci il tarixli qanununun özü artıq qüvvədən düşmüşdür.

## Avropa Şurası bu 3 şəxsi artıq siyasi məhbus hesab edir

Azərbaycan və Ermənistan 2001-ci il yanvarın 25-də Avropa Şurasının (AŞ) üzvü olduqdan bir neçə gün sonra, yəni yanvarın 31-də AŞ Nazirlər Komitəsinin Baş Katib Valter Şvimmerin Azərbaycanda siyasi məhbus olduğu ehtimal edilən 716 nəfərlik siyahının araşdırılması üçün 3 müstəqil ekspertin təyin etməsi ilə bağlı təşəbbüsünü təsdiqlədi və 2001-ci ilin fevralında Baş Katib bu ekspertləri təyin etdi. Ekspertlər 2001-ci ilin iyulunda Azərbaycan və Ermənistanda ehtimal edilən siyasi məhbuslarla bağlı araşdırmalarının nəticələrini əks etdirən hesabat hazırlayaraq yaydılar. Bu hesabatın 19-cu bəndində ekspertlər qrupunun siyasi məhbus hesab etdiyi və etmədiyi 23 şəxsin siyahısı (vaxt məhdudiyyəti və zəruri informasiyalar olmadığından yalnız bu qədər iş araşdırılmışdı) verilmişdir ki, cənab Əmiraslanov və cənab Kazımov burada yer almış və onlar siyasi məhbus hesab edilmişlər[28]. Avropa Şurasının Parlament Assambleyası 2002-ci il yanvarın 24-də "Azərbaycanda siyasi məhbuslar" adlanan 1272 saylı Qətnamə qəbul edib və həmin Qətnamənin 10-cu bəndində AŞ PA Azərbaycan hakimiyyətini digər siyasi məhbuslar kimi cənab Əmiraslanov və cənab Kazımovu azad etməyə çağırmışdır[29].

---
[28] http://bit.ly/1hEhLL3
[29] http://bit.ly/1h3hjoL

Yeni mandatı üzrə fəaliyyətini davam etdirən müstəqil ekspertlər 12 may 2003-cü ildə hazırladıqları rəydə cənab Poladovun da siyasi məhbus olduğu qənaətinə gəlmişlər[30]. AŞ PA 27 yanvar 2004-cü ildə "Azərbaycanda siyasi məhbuslar" adlanan 1359 saylı Qətnamə qəbul etmiş və bu sənəddə müstəqil ekspertlər tərəfindən siyasi məhbus kimi tanınan şəxslərin azadlığa buraxılmasına çağırış yer almışdır[31]. AŞ PA 31 may 2005-ci ildə 1359 saylı Qətnamənin davamı olaraq hesabat qəbul etmişdir və bu sənədin 26-cı bəndində müstəqil ekspertlərin müəyyən etdiyi 3 siyasi məhbus – cənab Əmiraslanov, cənab Kazımov və cənab Poladovun hələ də həbsdə qaldığı vurğulanmış və bundan narahatlıq ifadə edilmişdir[32]. AŞ PA-nın sonrakı illərdəki sənədlərində də hər 3 şəxsin siyasi məhbus olduğu vurğulanmışdır.
Müstəqil ekspertlər qrupu tərəfindən siyasi məhbus hesab edilməyən şəxslərin böyük hissəsi müxtəlif illərdə azadlığa buraxılmış, ömürlük azadlıqdan məhrum edilmiş digər XTPD-çi Dəyanət Kərimovun və keçmiş Baş nazir Sürət Hüseynovun dayısı oğlu Kəramət Kərimovun bu cəzaları əfv fərmanı ilə 25 il müddətinə azadlıqdan məhrum edilmə ilə əvəzlənsə də, bu münasibət cənab Əmiraslanova, cənab Kazımova və cənab Poladova göstərilməyib.
Hər üç məhbus Avropa Məhkəməsinə müraciət ediblər, səhhətlərində ciddi problemləri var, cənab Əmiraslanov epilepsiya xəstəliyindən əziyyət çəkir, bir dəfə əməliyyat olunub, cənab Kazımov və Poladov da müvafiq olaraq baş və bel nahiyələrindən əməliyyat olunublar.

**75. Əmiraslanov Elçin Səməd oğlu**



**Saxlanma tarixi:** 10 dekabr 1996-cı il
**İttiham:** 1960-cı il CM-nin 57 (*vətənə xəyanət*); 57-1-ci maddənin 2-ci hissəsi (*Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və ya konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə, ağır nəticələrə səbəb olduqda*); 15 (*cinayətə hazırlıq və cinayətə sui-qəsd*), 59-cu maddəsinin 1-ci hissəsi (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 17 (*iştirakçılıq*), 59-cu maddəsinin 1-ci hissəsi (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 15 (*cinayətə hazırlıq və cinayətə sui-qəsd*), 17 (*iştirakçılıq*), 59 (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 70 (dövlət müəssisələrinə, idarələrinə, təşkilatlarına və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə məqsədilə silahlı bandalar təşkil etmə, habelə belə bandalarda və onların etdikləri basqınlarda iştirak etmə); 70-2-ci

[30] http://bit.ly/P93b7e
[31] http://bit.ly/1dUqbwR
[32] http://bit.ly/1gJUxIg

maddənin 1-ci hissəsi (*qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə*); 70-2-ci maddənin 3-cü hissəsi (*adamların həlak olmasına və ya başqa ağır nəticələrə səbəb olan qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qrupların tərkibində dövlət və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə*); 71 (*qaçaqmalçılıq, yəni malların və ya sair qiymətli şeylərin xüsusi saxlanc yerlərində gizlədilməsilə, yaxud gömrükxana sənədlərindən və başqa sənədlərdən aldatma yolu ilə istifadə etməklə, ya külli miqdarda, ya da kontrabanda ilə məşğul olmaq üçün təşkil olunmuş bir dəstə şəxs tərəfindən, ya qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən qanunsuz olaraq Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi, habelə partlayıcı, bihuşedici, güclü təsir edən və zəhərləyici maddələrin, silah və döyüş sursatı, hərbi ləvazimatın qaçaqmalçılığı);* 15 (*cinayətə hazırlıq və cinayətə sui-qəsd*), 17 (*iştirakçılıq*), 94-cü maddənin 3-cü bəndi (zərər çəkmiş şəxsi öz qulluq və ya ictimai vəzifəsini yerinə yetirməsilə əlaqədar öldürmə); 95 (*Bu Məcəllənin 94-cü maddəsində göstərilən ağırlaşdırıcı əlamətlər (tamah, xuliqanlıq, zərər çəkmiş şəxsi öz qulluq və ya ictimai vəzifəsini yerinə yetirməsilə əlaqədar öldürmə, iki və ya bir neçə şəxsi öldürmə, müqəssir üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə, xüsusi amansızlıqla və ya bir çox şəxsin həyatı üçün təhlükəli olan üsulla adamöldürmə, başqa cinayəti gizlətmə və ya onun edilməsini yüngülləşdirmə məqsədilə, habelə zorlamaqla əlaqədar adamöldürmə, xüsusi təhlükəli residivist tərəfindən, yaxud əvvəllər qəsdən adam öldürmüş olan şəxs tərəfindən adamöldürmə) olmadan qəsdən adamöldürmə*); 120-ci maddənin 2-ci hissəsi (*zərər çəkən şəxsin həyatı və ya səhhəti üçün təhlükəli üsulla və ya ona fiziki iztirab verməklə azadlıqdan məhrumetmə);* 145-ci maddənin 2-ci hissəsinin 1, 2, 5 və 6-cı bəndləri (*qabaqcadan əlbir olan bir dəstə şəxs tərəfindən, silah və ya silah kimi istifadə olunan digər predmetlər işlətməklə, dövlət əmlakına və ya ictimai əmlaka və ya vətəndaşların şəxsi əmlakına sahib olmaq məqsədilə əvvəllər quldurluq etmiş, yaxud banditizm etmiş şəxs tərəfindən edil*ən, *zərər çəkənə külli miqdarda zərər vuran quldurluq, yəni vətəndaşların şəxsi əmlakına sahib olma məqsədilə hücuma məruz qalmış şəxsin həyatı və ya səhhəti üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın);* 146 (*hədə-qorxu ilə tələb etmə, yəni zərər çəkən şəxsin və ya onun yaxın adamlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumat yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə vətəndaşların şəxsi əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan hər hansı hərəkətlər etməsini tələb etmə);* 194-cü maddənin 1-ci hissəsi (*hüquq verən və ya vəzifələrdən azad edən rəsmi sənədləri hazırlama, saxtalaşdırma, satma və ya saxtalaşdırılmış sənədlərdən bilə-bilə istifadə etmə, habelə saxta sənədlər tərtib etmə məqsədilə dövlət müəssisələrinin, idarələrinin, təşkilatlarının və ya ictimai müəssisələrin, idarələrin, təşkilatların saxta ştamplarını, möhürlərini və ya blanklarını hazırlama, satma və ya əldə etmə*), 207-ci maddənin 2-ci hissəsi (*qərəzli xuliqanlıq, yəni öz məzmununa görə müstəsna dərəcədə həyasızlıq və ya xüsusi azğınlıqla fərqlənən, yaxud hakimiyyət nümayəndəsinə və ya ictimai qaydanı qorumaq vəzifəsini yerinə yetirən ictimaiyyət nümayəndəsinə, yaxud da xuliqanlıq hərəkətlərini dəf edən başqa vətəndaşlara müqavimət göstərməklə əlaqədar olan, habelə əvvəllər xuliqanlıq üstündə məhkum olunmuş şəxs tərəfindən edilən hərəkətlər*); 207-ci maddənin 3-cü hissəsi (*odlu silah, yaxud bıçaq, beşbarmaq və ya digər soyuq silah, habelə bədənə xəsarət yetirmək üçün xüsusi düzəldilmiş başqa*

*şeylər işlətmə və ya işlətməyə cəhd göstərmə ilə törədilən xuliqanlıq*); 220-ci maddəsinin 1-ci hissəsi (*müvafiq icazə olmadan odlu silah (yivsiz lüləli ov tüfəngindən başqa), döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldə etmə, hazırlama və ya satma*); 220-ci maddəsinin 2-ci hissəsi (*milli geyim ləvazimatı hesab olunan hallar istisna edilməklə xəncər, fin bıçağı və sair soyuq silahı müvafiq icazə olmadan gəzdirmə, hazırlama və ya satma);* 220-1-ci maddəsinin 3-cü hissəsi (*odlu silahın (yivsiz lüləli ov silahından başqa), döyüş sursatının və ya partlayıcı maddələrin quldurcasına basqın yolu ilə, yaxud xüsusi təhlükəli residivist tərəfindən oğurlanması*)
**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

**76. Kazımov Arif Nazir oğlu**



**Saxlanma tarixi:** 10 dekabr 1996-cı il
**İttiham:** 1960-cı il CM-nin 57 (*vətənə xəyanət*); 59-cu maddəsinin 1-ci hissəsi (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 15 (*cinayətə hazırlıq və cinayətə sui-qəsd*), 59-cu maddəsinin 1-ci hissəsi (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 70 (dövlət müəssisələrinə, idarələrinə, təşkilatlarına və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə məqsədilə silahlı bandalar təşkil etmə, habelə belə bandalarda və onların etdikləri basqınlarda iştirak etmə); 70-2-ci maddənin 1-ci hissəsi (*qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə*); 70-2-ci maddənin 3-cü hissəsi (*adamların həlak olmasına və ya başqa ağır nəticələrə səbəb olan qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qrupların tərkibində dövlət və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə*); 71 (*qaçaqmalçılıq, yəni malların və ya sair qiymətli şeylərin xüsusi saxlanc yerlərində gizlədilməsilə, yaxud gömrükxana sənədlərindən və başqa sənədlərdən aldatma yolu ilə istifadə etməklə, ya külli miqdarda, ya da kontrabanda ilə məşğul olmaq üçün təşkil olunmuş bir dəstə şəxs tərəfindən, ya qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən qanunsuz olaraq Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi, habelə partlayıcı, bihuşedici, güclü təsir edən və zəhərləyici maddələrin, silah və döyüş sursatı, hərbi ləvazimatın qaçaqmalçılığı);* 145-ci maddənin 2-ci hissəsinin 1,2,5 və 6-cı bəndləri (*qabaqcadan əlbir olan bir dəstə şəxs tərəfindən, silah və ya silah kimi istifadə olunan digər predmetlər işlətməklə, dövlət əmlakına və ya ictimai əmlaka və ya vətəndaşların şəxsi əmlakına sahib olmaq məqsədilə əvvəllər quldurluq etmiş, yaxud banditizm etmiş şəxs tərəfindən edil*ən, *zərər çəkənə külli miqdarda zərər vuran quldurluq, yəni vətəndaşların şəxsi əmlakına sahib olma məqsədilə hücuma məruz qalmış şəxsin*

*həyatı və ya səhhəti üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın);* 146 (*hədə-qorxu ilə tələb etmə, yəni zərər çəkən şəxsin və ya onun yaxın adamlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumat yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə vətəndaşların şəxsi əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan hər hansı hərəkətlər etməsini tələb etmə);* 207-ci maddənin 2-ci hissəsi (*qərəzli xuliqanlıq, yəni öz məzmununa görə müstəsna dərəcədə həyasızlıq və ya xüsusi azğınlıqla fərqlənən, yaxud hakimiyyət nümayəndəsinə və ya ictimai qaydanı qorumaq vəzifəsini yerinə yetirən ictimaiyyət nümayəndəsinə, yaxud da xuliqanlıq hərəkətlərini dəf edən başqa vətəndaşlara müqavimət göstərməklə əlaqədar olan, habelə əvvəllər xuliqanlıq üstündə məhkum olunmuş şəxs tərəfindən edilən hərəkətlər*); 220-ci maddəsinin 1-ci hissəsi (*müvafiq icazə olmadan odlu silah (yivsiz lüləli ov tüfəngindən başqa), döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldə etmə, hazırlama və ya satma*); 220-ci maddəsinin 2-ci hissəsi (*milli geyim ləvazimatı hesab olunan hallar istisna edilməklə xəncər, fin bıçağı və sair soyuq silahı müvafiq icazə olmadan gəzdirmə, hazırlama və ya satma);* 220-1-ci maddəsinin 3-cü hissəsi (*odlu silahın (yivsiz lüləli ov silahından başqa), döyüş sursatının və ya partlayıcı maddələrin quldurcasına basqın yolu ilə, yaxud xüsusi təhlükəli residivist tərəfindən oğurlanması*)
**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

**77. Poladov Səfa Alim oğlu**



**Saxlanma tarixi:** 10 dekabr 1996
**İttiham:** 1960-cı il CM-nin 59-cu maddəsinin 1-ci hissəsi (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 15 (*cinayətə hazırlıq və cinayətə sui-qəsd*), 59-cu maddəsinin 1-ci hissəsi (*dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə*); 70-2-ci maddənin 1-ci hissəsi (*qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə*); 71 (*qaçaqmalçılıq, yəni malların və ya sair qiymətli şeylərin xüsusi saxlanc yerlərində gizlədilməsilə, yaxud gömrükxana sənədlərindən və başqa sənədlərdən aldatma yolu ilə istifadə etməklə, ya külli miqdarda, ya da kontrabanda ilə məşğul olmaq üçün təşkil olunmuş bir dəstə şəxs tərəfindən, ya qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən qanunsuz olaraq Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi, habelə partlayıcı, bihuşedici, güclü təsir edən və zəhərləyici maddələrin, silah və döyüş sursatı, hərbi ləvazimatın qaçaqmalçılığı);* 220-ci maddəsinin 1-ci hissəsi (*müvafiq icazə olmadan*

*odlu silah (yivsiz lüləli ov tüfəngindən başqa), döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldə etmə, hazırlama və ya satma*); 120-ci maddənin 2-ci hissəsi (*zərər çəkən şəxsin həyatı və ya səhhəti üçün təhlükəli üsulla və ya ona fiziki iztirab verməklə azadlıqdan məhrumetmə);*

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

## *G. Digər işlər*

### a. *İsmayıllı etirazlarına görə həbs edilənlərin işi*

2013-cü il yanvarın 23-ü axşam saatlarında İsmayıllıda yerləşən keçmiş Əmək və Əhalinin Müdafiə naziri Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərova məxsus olan "Çıraq" otelinin (bunu həmin hadisələrə görə həbs edilən İlqar Məmmədov rəsmi sənədlər yayaraq sübut etmişdi) inzibatçısı Emil Şəmdinov və onun tanışı Elməddin Məmmədov içkili vəziyyətdə yerli taksi sürücüsünün maşınını vurduqdan sonra taksi sürücüsünün özünə də zərbələr endiriblər. Hər iki şəxs hadisə yerinə yığışan çoxsaylı İsmayıllı sakinlərini təhqir etmişlər. Bu, hadisə yerində olan və sonradan gələn İsmayıllı sakinlərinin etirazına səbəb olmuş, qəzəblənmiş kütlə "Çıraq" otelinə daşlar atmağa başlamış və otel yandırılmışdır. Etiraz edənlər nazir Füzuli Ələkbərovun qardaşı olan yerli icra hakimiyyətinin başçısı Nizami Ələkbərovun da istefasını tələb etmişlər və onun evinə tərəf gedərək etirazlarını burada davam etdirmiş, evi və həyətdə olan avtomobilləri yandırmışlar. Etirazlara görə Bakıdan və qonşu rayonlarından çoxsaylı polis qüvvələri və Daxili Qoşun əsgərləri İsmayıllı rayonuna yeridilmiş və həbslər aparılmışdır. Hadisələrə görə cinayət işi açılmış və yanvarın 23-də Emil Şəmdinov və Elməddin Məmmədovdan başqa 8 İsmayıllı sakini barədə həbs qətimkan tədbiri seçilmiş, 23 nəfər inzibati qaydada müxtəlif müddətlərə həbs edilmişlər. Yanvarın 24-də həbs edilənlərin azadlığa buraxılması və icra başçısının istefaya göndərilməsi çağırışları ilə aksiyalar davam etdirilmiş, etirazları yatırmaq üçün polis gözyaşardıcı qazdan və rezin güllələrdən istifadə etmişdir.

Cinayət işi çərçivəsində hadisələrə görə ümumilikdə 18 nəfər həbs edilmişdir ki, onların 16-ı İsmayıllı sakini, 2 nəfər isə hadisələri yerində öyrənmək üçün İsmayıllıya səfər etmiş Respublikaçı Alternativ Hərəkatının sədri İlqar Məmmədov və jurnalist Tofiq Yaqubludur (hər ikisinin işi ilə müvafiq olaraq "Siyasətçilər", "Jurnalistlər və bloggerlər" bölməsindən tanış ola bilərsiniz).

Barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərə ilkin olaraq polisə müqavimət və ictimai qaydanı kobud surətdə pozmaq ittihamları irəli sürülsə də, sonradan ictimai qaydanı pozma daha ağır ittihamla - kütləvi iğtişaşlar törətmə və ya bu iğtişaşlarda iştirak etmə ilə əvəz edilmişdir.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi Rəşid Hüseynovun 17 mart 2014-cü il qərarı ilə həbs edilmiş şəxslərdən 10 nəfər 4 ildən 8 ilə qədər müddətlərə azadlıqdan məhrumetmə cəzalarına məhkum edilmiş, 8 nəfərə şərti cəza kəsilərək onlar məhkəmə zalından azadlığa buraxılmışlar.

Təqsirləndirilən şəxslərin bir neçəsi özlərini qismən təqsirli bilsələr də, onların arasında saxta və sifarişli ittihamlarla həbs edilən şəxslər də var. Başqa sözlə, İlqar Məmmədov və Tofiq Yaqublu ilə yanaşı, İsmayıllı sakinlərindən də açıq siyasi motivlərlə həbslər edilənlər olmuşdur. Bu şəxslərin cinayət əməllərində iştirakı məhkəmədə sübuta yetirilməmişdir, hətta şahid kimi ifadə verən çoxsaylı polislər yanğın törədən və daş atan şəxslərin üzlərini görmədiklərini, çoxsaylı ümumi etirazların getdiyini vurğulayıblar. Otelin sahibləri və oteldə qalanlar zərərçəkmiş kimi tanınsalar da, onlar təqsirləndirilənlərə qarşı heç bir iddialarının olmadığını məhkəmə proseslərində qeyd ediblər.

## 78. İbrahimov Vasif Ədalət oğlu




**Saxlanma tarixi:** 25 fevral 2013-cü il
**İttiham:** CM-nin 220.1 (*zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə*) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmə, zor tətbiq etməklə müqavimət göstərmə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmə*) maddələri
**Saxlandığı yer:** Şəki Penitensiar Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab İbrahimov İsmayıllı rayonunda baş verən haqsızlıqlara qarşı cıxış edən və bu haqsızlıqlara görə tənqidlər səsləndirən sakinlərdən biri olub. Heç bir müxalifət partiyasının üzvü olmasa da, ölkədə, xüsusən yaşadığı İsmayıllı rayonunda yerli icra strukturlarına müxalif olub. Cənab İbrahimov sahibkarlara qarşı təzyiqlər, onların günlərlə işıqsız qalması, sahibkarlara məxsus mağazaların qapadılması, o cümlədən müxtəlif sosial problemləri ANS telekanalı və çap mətbuatı vasitəsilə ictimailəşdirmiş, İsmayıllıda yaşayan jurnalist Elçin İsmayıllıya rayonun müxtəlif yerlərində olan qanunsuzluqlar və sosial problemlər barədə məlumatlar ötürmüş, bunların nəticəsində cənab İbrahimov yerli icra strukturlarının hədəfinə çevrilmişdir.

Cənab İbrahimov İsmayıllı etirazlarının başlandığı gün, yəni yanvarın 23-də əraziyə gəlmiş jurnalistlərə müsahibə vermiş və müsahibəsində "Çıraq" otelinin tikintisini qanunsuz adlandırmış, otelin olduğu tikilidə 35 aztəminatlı ailənin məskunlaşmasına baxmayaraq onların oradan məcburi çıxarıldığını, bu işdə yerli strukturlarının iştirak etdiyini bildirərək yerli icra qurumlarını tənqid etmişdir[33]. Müsahibəsinin efirə verilməyən hissəsində o icra başçısı və sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin oğlunun bu hadisələrdə günahkar olduğunu bildirmişdir.

Cənab İbrahimov etirazlar və qarşıdurmalarda birbaşa iştirak etməmiş və o, ilk günlər deyil, hadisədən 1 ay sonra yerli icra strukturlarının təkidi ilə həbs edilmiş və ona qarşı ittihamlar irəli sürülmüşdür.

Şəki Ağır Cinayətlər Məhkəməsinin 17 mart 2014-cü il qərarı ilə ***8 il müddətinə azadlıqdan məhrumetmə*** cəzasına məhkum edilmişdir.

[33] http://bit.ly/1mb5UIx

***b. Keçmiş dövlət məmurları***

**79. İnsanov Əli Binnət oğlu**



**Saxlanma tarixi:** 20 oktyabr 2005
**İttiham:** CM-nin 179.3.2 (*mənimsəmə və israf etmə külli miqdarda törədildikdə*), 306.2 (*məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə vəzifəli şəxs tərəfindən təkrar törədildikdə*), 308.1 (*vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda*), 311.3.1 (*rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə*), 311.3.2 (*rüşvət alma təkrar törədildikdə*), 311.3.3 (*rüşvət alma külli miqdarda törədildikdə*) və 313-cü (*vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə*) maddələri
**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab İnsanov hakim Yeni Azərbaycan Partiyasının (YAP) qurucularından biri hesab edilir, o, 1993-cü ildən həbs edilənə qədər Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəsində çalışmışdır.
2005-ci ilin noyabrında keçirilmiş parlament seçkilərindən əvvəl və seçkilər ərəfəsində cənab İnsanov YAP-ın İdarə Heyətinin iclaslarında kəskin tənqidi çıxışlar etmiş, hakimiyyətdə cinayətkarların təmsil olunduğunu, aparılan siyasətin yanlışlığını və dəyişdirilməli olduğunu, əks halda xalqı aldatmış olacaqlarını bildirmişdir. YAP-ın qurultayından əvvəl keçirilən idarə heyətinin iclasında tənqidi fikirlərini davam etdirərək, partiyaya dəvət etdiyi və ona görə partiyaya qoşulan şəxslərdən buraxılan səhvlərə və yanlış siyasətə görə üzr istəmək dərəcəsinə çatdırıldığını vurğulayıb. Cənab İnsanov həbsindən 7 ay əvvəl, yəni 2005-ci ilin mart ayında həm YAP-dan, həm də səhiyyə naziri vəzifəsindən istefa vermək üçün ərizə ilə Prezident İlham Əliyevə müraciət etsə də, onun istefası qəbul edilməmişdir. Həbsindən iki ay əvvəl cənab İnsanov izləndiyini, hətta Bakıdan çıxdıqdan sonra da bu izləmənin davam etdiyini və bununla da bağlı prezidentə müraciət etdiyini bəyan etmişdir. Müraciətdə elə hakimiyyətdə təmsil olunan qruplar tərəfindən izləndiyini vurğulamışdır.
Parlament seçkilərinə 16 gün qalmış cənab İnsanov həbs edilərkən ona qarşı ilkin olaraq dövlət çevrilişi etməyə hazırlıq ittihamı sürülsə də (dövlət mediası da bu barədə məlumatlar yayırdı), sonradan bu ittiham sırf iqtisadi cinayətlər üzrə

ittihamlara çevrildi. Onun həbsi Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilib və barəsində dərhal həbs qətimkan tədbiri seçilib.

Keçmiş nazir həbs edilərkən işgəncəyə məruz qaldığını, işgəncələrin Bayıl həbsxanasında, 5 saylı istintaq təcridxanasında, 13 saylı cəzaçəkmə müəssisəsində davam etdiyini bildirmişdir.

2007-ci ildə cənab İnsanovun cinayət işi üzrə istintaq yekunlaşıb, ancaq onun vəkillərinə iş materialları ilə tanış olmaq və surətlər götürməyə imkan verilməyib. O, 20 aprel 2007-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə ***11 il müddətinə azadlıqdan məhrum edilib***. 2007-ci il sentyabrın 21-də Bakı Apellyasiya Məhkəməsi, 16 yanvar 2008-ci ildə isə Ali Məhkəmə bu qərardan verilən şikayətləri təmin etməyib.

Cinayət işinin materiallarında mənimsənildiyi iddia edilən məbləğlə həbs zamanı Baş Prokurorluğun məlumatlarında açıqlanan məbləğlər arasında ciddi fərqlər olub. Cənab İnsanov bütün vergiləri ödədiyini və təkcə 2005-ci ildə 85000 manat vergi ödədiyini sübut edən qəbzləri məhkəməyə təqdim edib. Qanunsuz özəlləşdirmə həyata keçirməkdə ittiham edilən cənab İnsanov bu prosesin Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov və keçmiş İqtisadi İnkişaf naziri Fərhad Əliyev tərəfindən həyata keçirildiyini bildirib və onların şahid kimi məhkəməyə gətirilməsi ilə bağlı vəsatət versə də, bu, təmin edilməyib. Cənab İnsanovun həbs edildiyi gün verdiyi ifadənin böyük bir hissəsi itirilmiş, nəticə etibarilə cinayət işinin materiallarına əlavə edilməmişdir.

Keçmiş nazirin İnsan Hüquq və Əsas Azadlıqları haqqında Avropa Konvensiyanın 3-cü (işgəncəyə məruz qalmamaq) və 6-cı (ədalətli məhkəmə hüququ) maddəsində nəzərdə tutulmuş hüququnun pozulması ilə bağlı Avropa Məhkəməsinə şikayət verilmişdir. 2013-cü ilin martın 14-də Avropa Məhkəməsi keçmiş nazirin hər iki hüququnun pozuntusunu tanıyıb[34]. Məhkəmə keçmiş nazirin müdafiə hüququ və digər prosessual qaydaların pozulduğunu, əlavə araşdırma aparılmasına ehtiyac olduğunu və Azərbaycan hökumətinin 10 min avro cərimə ödəməli olduğunu qət edib. 2013-cü il noyabrın 15-də Ali Məhkəmə Avropa Məhkəməsinin qərarına əsasən işin yenidən baxılması üçün Bakı Apellyasiya məhkəməsinə göndərib. Apellyasiya məhkəməsində işə baxılarkən cənab İnsanov hakimiyyət, konkret prezident İlham Əliyev barədə kəskin tənqidi fikirlər səsləndirib. Növbəti məhkəmə zamanı Əli İnsanov şüşə qəfəsə salınıb və hakim onun danışmasına icazə verməyib (keçmiş nazir tənqidi fikirlər səsləndirərkən hakim səsin eşidilməsini təmin edən mikrofonu söndürüb). 25 fevral 2014-cü ildə Apellyasiya Məhkəməsi Əli İnsanov barəsində çıxarılan 11 illik azadlıqdan məhrum edilmə barədə hökmü qüvvədə saxlayıb. AŞ PA-nın 2007-ci ildə qəbul etdiyi 1545 saylı qətnaməsində Əli İnsanov barəsində ədalətli məhkəmə keçirilməsi tövsiyə olunmuşdur [35] . AŞ PA-nın Azərbaycan üzrə keçmiş həmməruzəçiləri cənab Andres Herkel və xanım Jivkovanın apardıqları monitorinqin nəticələrinə dair 2008-ci il mart ayında yayılmış hesabatda və AŞ PA-nın 2008-ci il 24 iyul tarixli qətnaməsində də cənab İnsanovla bağlı narahatlıq əks olunmuşdur.

---

[34] http://bit.ly/1myxEK1
[35] http://bit.ly/P93hLW

**80. Quliyev Nicat Əmir oğlu**



**Saxlanma tarixi:** 07 avqust 2013-cü il
**İttiham:** CM-nin 228.1-ci (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla) partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* maddəsi
**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab Quliyev 1993-95-ci illərdə xarici iqtisadi əlaqələr naziri vəzifəsini müvəqqəti icra edib. Sonra Acarıstana gedib, 2004-cü ilədək orada prezident Aslan Abaşidzenin müşaviri postunda çalışıb. Bundan sonra Azərbaycana qayıdıb, Türkiyə və Azərbaycanda bizneslə məşğul olub. N.Quliyev 2005-ci il oktyabrın 19-da parlament seçkilərindən əvvəl həbs edilmiş, ona qarşı dövlət çevrilişinə cəhddə iştirak ittihamı irəli sürülsə də, az sonra azadlığa buraxılıb. O, 2013-cü il prezident seçkilərinə 2 ay qalmış 2005-ci ildə olduğu kimi yenidən MTN əməkdaşları tərəfindən Abşeronda yerləşən bağ evində həbs edilib. Həbsindən əvvəl prezident seçkiləri üçün müxalifətin ilkin vahid namizəd seçilmiş tanınmış kinorejissor Rüstəm İbrahimbəyovla telefonla danışmış və təzyiqlərlə üzləşən İbrahimbəyova dəstəyini ifadə etmişdir. Cənab İbrahimbəyov da öz müsahibələrində cənab Quliyevlə çoxdan tanış olduğunu və Quliyevin ona zəng edərək hal-əhval tutduğunu və məhz buna görə də həbs edildiyini bildirmişdir.
Nicat Quliyevin evində axtarış aparılıb, həyat yoldaşı bağa girənlərin hərəkətlərinə nəzarət etmək iqtidarında olmayıb. Ailə üzvlərinin mobil telefonları əllərindən alınıb, onlara evdən çıxmaq qadağan edilib. Nə axtardıqlarını izah etməyən MTN əməkdaşları Nicat Quliyevin sənədlərini, evdəki kompüterləri, foto və video materialları, dəmir seyfi müsadirə ediblər. O cümlədən bağın həyətində olan yardımçı tikilidən və cənab Quliyevə məxsus avtomobildən silahın tapıldığı iddia edilib.
Nicat Quliyev saxlandıqdan dərhal sonra öz vəkili ilə təmin edilmək və evə zəng etmək hüququndan məhrum edilib. Avtomobilə baxış zamanı cənab Quliyevin iştirakı təmin edilməyib. saxlandıqdan sonra avtomobili onun nəzarətindən kənarda - MTN əməkdaşlarının sərəncamında olub. Cənab Quliyev ittihamın saxta hesab edərək, ifadə verməkdən imtina edib. Abşeron rayon Məhkəməsinin 02 aprel 2014-cü il tarixli qərarı ilə cənab Quliyev ***3 il müddətinə azadlıqdan məhrum etmə*** cəzasına məhkum edilmişdir.

---

**81. Lətifov Asif Aydın oğlu**



**Saxlanma tarixi:** 29 avqust 2012-ci il
**İttiham:** CM-nin 228.1 (*qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla) partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə , satma, saxlama, daşıma və ya gəzdirmə)* və 232.1-ci (*odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama, yaxud hədə-qorxu ilə tələb etmə)* maddələri
**Saxlandığı yer:** 9 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab Lətifov Dövlət Xüsusi Mühafizə Xidmətinin (DXMX) zabiti, prezidentin mühafizəçisi olub, 17 il Xüsusi Təyinatlı "Beta" dəstəsində xidmət edib. Bu müddət ərzində dəfələrlə mükafatlara layiq görülüb. 2011-ci il martın 5-də cənab Lətifovun həmin gün hava limanında birgə xidmət etdiyi həmkarı Emin Ələkbərov tabeçiliyində olan patronu itirib, cənab Lətifov isə patronu tapıb. Ziddiyyətdə olduğu üçün patronu "Beta" dəstəsinin komandirinə yox, DXMX Müfəttiş Təşkilat İdarəsinə təhvil verib, bu hadisədən 4 gün sonra, o, Mülki Məcəllənin 156-cı (xidməti uyğunsuzluq) maddəsi əsas gətirilərək işdən azad edilib. "Beta" dəstəsinin komandiri Fikrət Rzayevlə cənab Lətifov arasında ziddiyyət sonuncunun XDMX-də baş verən qanunsuzluqlara, xüsusən "Beta" dəstəsinin komandiri Fikrət Rzayevin qanunsuz əməllərinə etiraz etməsi nəticəsində yaranıb. Fikrət Rzayev hər ay "Beta" dəstəsinin üzvlərindən 30 manat tələb etmiş, cənab Lətifov buna etiraz edərək XDMX-nin Müfəttiş Təşkilat İdarəsinə şikayət etmişdir. İşdən çıxarılmağı ilə barışmayan cənab Lətifov həm bu, həm də üzləşdiyi digər qanunsuzluqları ictimailəşdirməyə başlamış, müxalifət və müstəqil qəzetlərdə müsahibələr və yazılarla çıxış etmiş, bir neçə dəfə ictimaiyyət üçün mətbuat konfransları keçirmişdir. O, XDMX-nin rəhbərliyini məhkəməyə vermişdir.
Bir neçə dəfə xəbərdarlıq alan cənab Lətifov tənqidlərindən və ictimailəşdirmə fəaliyyətindən vaz keçmədiyi üçün, üstündən 1 il 3 ay ötməsinə baxmayaraq, patronun itməsi və sonradan cənab Lətifov tərəfindən tapılması hadisəsi onun əleyhinə yönəldilmiş, o, patronun qəsdən oğurlanmasında və vəzifələrini aşmaqda ittiham edilərək, barəsində Hərbi Prokurorluq tərəfindən cinayət işi başlanılmışdır.

Cənab Lətifov 2013-cü il yanvarın 28-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə ***5 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına*** məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin hakimi Camal Ramazanovun 17 iyul 2013-cü il tarixli qərarı ilə bu hökm dəyişdirilmədən qüvvədə saxlasa da, Ali Məhkəmənin hakimi İnqilab Nəsirovun 27 mart 2014-cü il qərarı ilə cənab Lətifovun cəzası ***4 il 6 aya endirilmişdir***.
Məhkəmə prosesində dindirilən şahidlərin heç biri faktiki olaraq patronun cənab Lətifov tərəfindən oğurlandığını sübut edən ifadələr işlətməmişlər, onlar patronun

itməsinə deyil, onu cənab Lətifov tərəfindən oğurlanmasına inandıqlarını, başqa heç bir halda patronun itməsinin mümkün olmadığını bildirmişlər. Ümumilikdə oğurlanma faktını sübut edəcək heç bir dəlil nə istintaqda, nə də məhkəmədə araşdırılmayıb, hökm üçün cənab Lətifovun həbsində maraqlı olan və XDMX-də iş yerini itirmək istəməyən şəxslərin şahid ifadələri əsas götürülmüşdür.

---

**82. Muradverdiyev Akif Şəmsəddin oğlu**



**Saxlanma tarixi:** 20 iyun 2013-cü il
**İttiham:** CM-nin 206.1-ci (*qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə ... malların və digər əşyaların külli miqdarda keçirilməsi)* maddəsi
**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Cənab Muradverdiyev Prezident Aparatının İşlər İdarəsinin keçmiş müdiri olub. 1995-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.
2013-cü il iyunun 20-i səhər saatlarında cənab Muradverdiyev Moskvaya yola düşməyə hazırlaşırmış. O, aeroportun təhlükəsizlik xidmətinin yoxlamasından, gömrük yoxlamasından və sərhəd yoxlamasından keçib, təyyarəyə miniyə gəldikdə isə mülki geyimli bir nəfər ona yaxınlaşıb, nəzakətlə "bir işlə bağlı" yubanmağı və onunla gəlməyi xahiş edib. Muradverdiyevi bir otağa gətiriblər, amma girişdə ondan çantasını təslim etməyi xahiş ediblər. Daha sonra onu otağa dəvət ediblər və onunla söhbət etməyə başlayıblar. Sonra Muradverdiyevin çantasını otağa gətiriblər və içərisində nə olduğunu soruşublar. O, təxminən 1400 dollar, 900 manat pul, bank kartı və geyim əşyaları olduğunu deyib. Çantanı açıblar və içərisində qızıl sikkələr olan torba aşkar etdiklərini bildiriblər. Cənab Muradverdiyev qaçaqmalçılıqda ittiham edilərək təqsirləndirilən şəxs qismində cəlb edilib və barəsində həbs qətimkan tədbiri seçilib. Əməliyyatın MTN tərəfindən aparıldığı sonradan məlum olub.
Keçmiş dövlət məmuru prezident seçkiləri üçün Moskvada yaşayan müxalifətin ilkin vahid namizədi Rüstəm İbrahimbəyovun yanına getməsi ehtimalına görə həbs edildiyini etiraf etsə də, bunu cəfəngiyat adlandırıb, İbrahimbəyovla heç bir ciddi əlaqəsinin olmadığını bəyan edib.

Cənab Muradverdiyev Xəzər Rayon Məhkəməsinin 13 dekabr 2013-cü il tarixli qərarı ilə ***4 il müddətinə azadlıqdan məhrum edilmiş***, Bakı Apellyasiya Məhkəməsi 12 fevral 2014-cü il tarixdə bu qərarı qüvvədə saxlamışdır.
Məhkəmə araşdırması zamanı cənab Muradverdiyevin çantasında qadağan edilmiş qızıl külçələrinin mənbəyi, onun haradan əldə edilməsi və çantada olub-olmaması araşdırılmayıb. Cənab Muradverdiyev həmin çanta ilə aeroporta daxil olarkən yoxlamadan keçib, sonradan gömrük və təhlükəsizlik əməkdaşları tərəfindən diqqətli yoxlamaya məruz qalıb və onun çantasında heç bir qadağan edilən əşya aşkarlanmayıb, lakin təyyarəyə mindikdə saxlanılandan sonra bu külçələr çantada aşkarlanıb. Məhkəmə bu məsələni də araşdırmaqdan faktiki imtina edib. Axtarışı aparan və külçələrin tapıldığını bildirən MTN əməkdaşlarının ifadələri azadlıqdan məhrumetmə cəzası verilməsi üçün kifayət edib.
Cənab Muradverdiyev 2005-ci ilin oktyabrında parlament seçkilərindən əvvəl hakimiyyəti zorla ələ keçirmə və kütləvi iğtişaşlara hazırlıq ittihamı ilə həbs edilmiş, sonradan bu ittihamlar dövlət vəsaitlərini mənimsəmək və vəzifə səlahiyyətlərindən sui-istifadə ilə əvəzlənmiş, nəticədə o, 6 il müddətinə azadlıqdan məhrum edilmiş, yuxarı instansiya məhkəməsi bu müddəti 5 ilə endirmiş, 2008-ci il yanvarın 15-də isə səhhətində olan ciddi problemlərlə əlaqədar cəzası şərti hesab edilərək azadlığa buraxılmışdı. Cənab Muradverdiyev həmin dövrdəki həbsi ilə bağlı Avropa Məhkəməsinə müraciət etmiş, Strasburq Məhkəməsi onun azadlıq və ədalətli məhkəmə hüquqlarının pozuntusunu müəyyən etmişdir[36].
Cənab Muradverdiyevin səhhətindəki problemlər yenidən kəskinləşdiyindən, o, hazırda Ədliyyə Nazirliyinin Müalicə Müəssisəsində saxlanılır, hətta səhhəti imkan vermədiyi üçün apellyasiya şikayət üzrə keçirilmiş prosesdə iştirak edə bilməyib. Onun onurğasında iki yırtıq əmələ gəlib və mədəaltı vəzində yara mövcuddur.

**83. Pənahlı Nemət Əhəd oğlu**



**Saxlanma tarixi:** 8 yanvar 2011-ci il

[36] http://bit.ly/1dUqnw3

**İttiham:** CM-nin 221.3-cü (*xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə*) maddəsi
**Saxlandığı yer:** Qobustan Həbsxanası
**İş üzrə qısa arayış:** Milli Dövlətçilik Partiyasının sədri olan cənab Pənahlı həbsindən bir müddət əvvəl "Nota P.S" qəzetində Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevi və onun oğlu, hazırkı prezident İlham Əliyevi kəskin tənqid edən materiallarla çıxış edirdi. O, 2010-cu ilin noyabrında keçirilmiş parlament seçkilərində namizəd olmuş, seçkilərin nəticələrinin saxtalaşdırıldığını bəyan etmişdi.
Cənab Pənahlı maşın satdığı şəxs Eldəniz Rzayevin şikayəti əsasında həbs edilib. Şikayətçi aldığı maşında nasazlıqla bağlı bildirdiyi irada görə cənab Pənahlı və dostu Ceyhun Fərzullayev tərəfindən döyüldüyünü, ona dəmir əşya ilə xəsarət yetirildiyini iddia edib. Həbsindən sonra cənab Pənahlının evində soyuq silahın olması ehtimalı ilə axtarış aparılıb, bununla belə evdən soyuq silah əvəzinə, cənab Pənahlıya məxsus bütün arxivi, sənədləri, diskləri, kompüterləri və fləş-kartları götürülərək aparılıb.
Nəsimi rayon Məhkəməsi 17 iyun 2011-ci ***ildə Nemət Pənahlının 6 il, dostu Ceyhun Fərzullayevin 4 il müddətinə azadlıqdan məhrum edilməsi*** ilə bağlı qərar çıxarıb. Bu qərar Bakı Apellyasiya Məhkəməsi tərəfindən 14 noyabr 2011-ci il, Ali Məhkəmə tərəfindən isə 20 iyun 2012-ci il tarixlərində dəyişdirilmədən qüvvədə saxlanılıb. Ceyhun Fərzullayev 26 dekabr 2012-ci ildə verilmiş əfv fərmanı ilə azadlığa buraxılıb.
Məhkəmə istintaqı zamanı şikayətçinin istintaqda və məhkəmədə verdiyi ifadələr arasında ciddi ziddiyyətlər və anlaşılmayan məqamlar ortaya çıxıb. Hadisənin baş verdiyi iddia edilən ərazidə işləyən şəxslərdən 8 nəfər prosesə şahid kimi cəlb edilmiş, onlardan 7-i heç bir dava və ya kiməsə xəsarətin yetirildiyini görməyiblər, yalnız bir nəfər ifadəsində bildirib ki, cənab Pənahlı Eldəniz Rzayevin saçından tutaraq onu yerə çırpıb və yerdə vurub, halbuki döyüldüyü iddia edilən şəxs keçəldir.
Cənab Pənahlı 17 saylı Cəzaçəkmə Müəssisəsinə köçürüldükdən sonra digər məhbuslara kömək etdiyi, əsasən də onların şikayətlərini qaldırdığı üçün təzyiqlərə məruz qalıb, dəfələrlə "kars"a salınıb, bir neçə dəfə etiraz əlaməti olaraq aclıq aksiyası keçirib. Bunun nəticəsində 17 saylı Cəzaçəkmə Müəssisəsinin rəisi Arif Mirzəyev (hazırda o bu vəzifədən azad edilib) cənab Pənahlının daha ağır saxlanma şərtləri olan Qobustan Qapalı Həbsxanasına köçürülməsi ilə bağlı təqdimatla məhkəməyə müraciət edib. Təqdimatda cənab Pənahlının daxili nizam-intizamı dəfələrlə pozduğu iddia olunsa da, bununla bağlı ciddi sübutlar təqdimata əlavə edilməyib. Xəzər rayon Məhkəməsi bu təqdimat əsasında 2013-cü il fevralın 25-də cənab Pənahlının Qobustandakı həbsxanaya köçürülməsi barədə qərar çıxarıb. Bakı Apellyasiya Məhkəməsi bu qərarı 14 iyun 2013-cü ildə qüvvədə saxladıqdan sonra köçürülmə həyata keçirilib.

### *b. Siyasi girovlar*

### 84. Seyidov Elnur Rafiq oğlu

**Saxlanma tarixi:** 27 mart 2012-ci il
**İttiham:** CM-nin 178.3.1 (*dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə mütəşəkkil dəstə tərəfindən törədildikdə*) 178.3.2 (*dələduzluq külli miqdarda ziyan vurmaqla*

*törədildikdə*), 179.3.1 (*mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama mütəşəkkil dəstə tərəfindən törədildikdə*), 179.3.2 (*mənimsəmə və israf etmə külli miqdarda törədildikə*), 308.2-ci (*vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə*), 313.1 (*vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə*) və 320.2-ci (*hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankdan bilərəkdən istifadə etmə*) maddələri

**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Cənab Seyidov müxalif və Azərbaycan hakimiyyətinin sərt tənqidçilərindən olan Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlinin qaynıdır, **"**Texnikabank"ın Yasamal filialının sabiq müdir müavini vəzifəsində çalışıb. Cənab Seyidov Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həbs edilib, ona əvvəl yalnız dələduzluq ittihamı irəli sürülmüş, sonradan ittiham ağırlaşdırılmışdır. Cənab Seyidovun həbsindən 9 ay keçənədək heç bir istintaq hərəkəti aparılmamış, həbs müddəti isə əsassız olaraq uzadılmışdı, halbuki bu cinayətlərə görə uzadılma müstəsna hallarda baş verə bilər.

Cinayət Prosessual Məcəllənin tələblərinə görə, dələduzluq ittiham üzrə istintaq hərəkətləri aparmaq DİN-in səlahiyyətindədir, amma cənab Seyidova münasibətdə qanunun bu tələbi kobud şəkildə pozulub, o, MTN tərəfindən həbs olunub, MTN təcridxanasında saxlanılıb və istintaqı da MTN aparıb.

Cənab Seyidov "Texnikabank"ın İdarə Heyətinin sədri Etibar Əliyev və digərlərinin cinayət işi üzrə onlardan 20 gün sonra həbs edilmişdir. Rəsmi ittihama görə, cənab Seyidov bank rəhbərliyinin göstərişi ilə və onların mənafeyi üçün qanunları pozmaqda günahlandırılır. E.Əliyev, eləcə də bankın bu iş üzrə həbs edilmiş digər əməkdaşları azadlığa çıxsalar da, cənab Seyidov hələ də həbsdə saxlanılır.

Cənab Seyidov dağınıq skleroz xəstəliyindən əziyyət çəkir, bu barədə müstəqil və özəl tibb müəssisələrinin rəyi var. Dağınıq skleroz xəstələrinin təcridxana kimi qapalı mühitdə saxlanması yolverilməzdir və bu xəstəlikdən əziyyət çəkənlərə dövlət qayğısı haqqında Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu da var. Qanunda belə xəstələrə qayğı və onların müdafiəsi üzrə bir sıra tədbirlər, o cümlədən azadlıqdan məhrum edilmiş belə xəstələrin azad edilməsi nəzərdə tutulur. Lakin bu xəstəlikdən əziyyət çəkən cənab Seyidov həbsdə saxlanılır. Cənab Seyidov Bakı Ağır Cinayətlər Məhkəməsinin 29 oktyabr 2013-cü il tarixli qərarı ilə ***7 il 6 ay müddətinə azadlıqdan məhrum*** edilmişdir. Bakı Apellyasiya Məhkəməsi 03 aprel

2014-cü il tarixində bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.

Məhkəmə zamanı şahidlərin verdiyi ifadələr ziddiyyətli olub, bəzi şahidlər isə cənab Seyidovun təqsiri olmadığını bildiriblər. Ancaq məhkəmə bunları nəzərə almayıb.

Cənab Seyidovu ilkin həbsi və ağır xəstəlikdən əziyyət çəkməsi ilə bağlı Avropa Məhkəməsinə şikayət göndərilib. Cənab Seyidovun işi ABŞ Dövlət Departamentinin Azərbaycanda 2013-cü ildə insan haqları üzrə hesabatında müxalif qüvvələrin ailə üzlərinə edilən təzyiq nümunəsi kimi göstərilib[37].

**85. Kərimli Sirac Raqif oğlu**



**Saxlanma tarixi:** 17 iyul 2014-cü il

**İttiham:** CM-nin 234.4.3-cü maddəsi (külli miqdarda narkotik əldə etmə, saxlama və ya satma)

**Saxlandığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Sirac Kərimli ixtisasca mühasibdir, siyasi fəaliyyətlə məşğul deyil. Lakin onun atası və qardaşı Müsavat Partiyasının fəallarıdırlar. Atası Raqif Kərimli 1980-ci illərin sonundan siyasi proseslərin iştirakçısıdır və Müsavat Partiyasının Laçın rayon şöbəsinin təsisçilərindən olub. Qardaşı Fərəc Kərimov Müsavat partiyasının internet səhifəsinin admini, bağlanana qədər 350 min nəfərə qədər üzvü olmuş "İstefa!" Facebook qrupunun yaradıcısı və idarəçisi, həbsinə qədər "Basta" Facebook qrupunun admini olub. Sirac Kərimli iş yerinin yaxınlığındakı çayxanada qəfil, maskalı şəxslər tərəfindən həbs olunub. Onu Narkotiklərlə Mübarizə İdarəsinə aparıblar. Həmin idarəyə gedən atasına evdə axtarış aparılmasının zəruri olduğunu bildirib, bu barədə razılıq ərizəsi imzaladıblar. Evdə axtarış aparılan zaman kompüteri götürüblər və evdəki kitabların – "Demokratiya uğrunda mübarizənin taktikası və strategiyası" və "Halkla ilişkilər" kitablarının şəkillərini çəkiblər. Yenidən idarəyə gedən atası Raqif Kərimova oğlunun cibindən narkotik tapıldığı və evdən müsadirə olunan kompüterdən də narkotik tapıldığı bildirilib. Ertəsi gün Sirac Kərimli haqqında üç ay həbs qətimkan tədbiri seçilib. Sirac Kərimlinin həbsinin siyasi

[37] http://1.usa.gov/18BOn4u

məqsədi onun qardaşına təzyiq göstərmək olub. Belə ki, qardaşı Fərəc Kərimli iyulun 23-də Siracın həbsindən sarsıntı keçirən anasını xəstəxanaya apararkən Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin dəstəsi tərəfindən həbs olunub. Fərəc Kərimlinin vəkilinə söylədiklərinə görə, onu ailə üzvləri, o cümlədən, qardaşının işgəncə olunacağı ilə hədələyərək, cibindən narkotik tapılması barədə protokola imza atmağa sövq ediblər. Hüquq müdafiə təşkilatlarının yekdil rəyinə görə, Sirac Kərimov Fərəc Kərimlini zərərsizləşdirmək üçün girov götürülüb.

2015-ci ilin mart ayının 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində Sirac Kərimliyə hökm oxunub. Məhkəmə onun 6 il azadlıqdan məhrum edilməsi haqda hökm çıxarıb.

**86. Adilov Murad Güləhməd oğlu.**



**Saxlanma tarixi:** 11 avqust 2014.
**İttiham:** CM-nin 234.4.3-cü (külli miqdarda narkotik əldə etmə, saxlama və ya satma) maddəsi.
**Saxlandığı yer**: 10 saylı Cəzaçəkmə Müəssisəsi
**İş üzrə qısa arayış:** Azərbaycan Xalq Cəbhəsi Partiyanın (AXCP) fəal üzvi, AXCP-nin mətbuat katibinin Natiq Adilovun qardaşıdır.

Sabirabad rayonu Xəlfəli kənd sakini, AXCP üzvü Murad Ədilov avqustun 11-də Azərbaycan Daxili İşlər Nazirliynin Baş Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanıb. M.Ədilov məhkəmədə çıxışı zamanı Sabirabad rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılarkən fiziki zorakığa məruz qaldığını bildirib, narkotika saxlamqla bağlı ittihamları qəbul etməyib.
Hüquq mühafizə orqanlarının məlumatına görə, Murad Ədilovdan 114,2 qram həşiş, 7,4 qram marixuana götürüb. M.Ədilovun evinə baxış zamanı isə 685 qram marixuana götürülüb. İşçi Qrupu apardığı araşdırmalara uyğun olaraq hesab edir ki, Ədilova qarşı irəli sürülən ittihamlar əsassızdır.
2014-cü ilin avqust ayının 13-də Bakı şəhər Nərimanov rayon Məhkəməsi Murad Ədilov barəsində narkotik maddə saxlamaq ittihamı ilə 3 aylıq həbs qərarı çıxarıb.
14 may 2015-ci il tarixdə Lənkəran Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən Murad Ədilova hökm oxunub.
AXCP-nin mətbuat katibi Natiq Ədilovun qardaşı olan Murad Ədilov 6 il müddətinə azadlıqdan məhrum edilib.

**87. Abdullayev Mübariz Əslan oğlun**



**Saxlanma tarixi**: 21 avqust 2013- cü ildə
**İttiham:** CM-in 182.3.2- ci (Hədə-qorxu ilə tələb etmə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə)
**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssiəsi.
**İş üzrə qısa arayış:** Abdullayev Mübariz Əslan oğlu 25 oktyabr 1967-ci ildə Kürdəmir rayonunun Şahsevən kəndində anadan olub. Cinayət Məcəlləsinin 182.3.2- ci maddəsi ilə təqsirli bilinərək haqqında 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası çıxarılıb. Məhkəmə hökmü 21 avqust 2013- cü ildə Lənkəran Ağır Cinayətlər Məhkəməsində (hakimlər Cəlilov Oruc Yusif oğlu-sədr, Quliyev Nizami Fərzi oğlu və Hüseynov Rəşid İnqilab oğlu) çıxarılıb.
Məhkəmə Abdullayev Mübariz Əslan oğlunu külli miqdarda əmlak əldə etmək məqsədi ilə Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Abdullayev Elşad İslam oğlunun 13 oktyabr 2003- cü ildə naməlum şəkildə oğurlanmış qardaşı, MTN mayoru Abdullayev Mahir İslam oğlunun şəxsiyyəti üzərində zor göstərmə hədəsi ilə birincinin əmlakını hədə- qorxu ilə tələb etməkdə təqsirli bilib. Mübariz Abdullayev ABU- nun sabiq rektoru Elşad Abdullayevin qardaşı oğludur. Maraqlıdır ki, onun həbsi Mahir Abdullayevin oğurlanmasından- cinayət hadisəsindən 10 il sonra əmisi Elşad Abdullayevin yaydığı mandat alveri və digər qalmaqallı videolardan sonra həyata keçirilib.
Mübariz Abdullayevlə bağlı cinayət işində zərərçəkmiş şəxs kimi tanınan Elşad Abdullayev istintaqın bu qərarına etiraz edib. O, Respublika Prokurorluğuna və digər aidiyyatı qurumlara yazdığı müraciətində bildirib ki, qardaşı Mahir Abdullayevin oğurlanması və geri qaytralmasında ondan pul, əmlak və s. tələb edənlər arasında qohumu Mübariz Abdullayev olmayıb və ola da bilməz. Əksinə qardaşının oğurlanması və geri qaytarılması müqabilində ondan pul tələb edilməsi hakimiyyətin yuxarı eşalonunda himayə olunan mütəşəkkil adam oğurluğu şəbəkəsi tərəfindən həyata keçirilib. O, qardaşı oğlunun həbsini zərərçəkənləri susdurmaq üçün atılmış adekvat iyrənc addım kimi qiymətləndirib.
Elşad Abdullayevin və Mübariz Abdullayevin ailə üzvlərinin verdiyi məlumata görə ona qarşı elan olunan ittihamı qəbul etməsi üçün sonuncu şəxs öncə aldadılıb, sonra ailə üzvləri ilə təhdid olunub, daha sonra isə ağır işgəncələrə məruz qalıb. Polis şöbəsində onu ölümcül vəziyyətdə döyərək bütün dişlərini qırıblar.
Mübariz Abdullayevin işi ilə bağlı Azərbaycanda bütün məhkəmə prosesləri keçirilib və Avropa İnsan haqları Məhkəməsinə müraciət olunub.

## 88. Həsənli Günel Cəmil qızı




**Saxlanma tarixi**: 23 fevral 2015-ci ildə Yasamal Rayon Məhkəməsinin hökmü ilə Günel Həsənli 1 il 6 ay müddətinə məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkməyə məhkum edib. 19 noyabr 2015-ci ildə Bakı Apelyasiya Məhkəməsi bu hökm qüvvədə saxlanılıb.

**İttiham:** Cinayət məcəlləsinin 263.1 maddəsi - Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulması

**İş üzrə arayış:** Günel Həsənli müxalif mövqeli Demokratik qüvvələrin Milli Şurasının sədri Cəmil Həsənlinin qızıdır. Cəmil Həsənli 2013-cü il prezident seçkilərində müxalifətin vahid namizədi olub və prezident İlham Əliyevə, hakim siyasi qüvvəyə qarşı çox sərt tənqidləri ilə yadda qalıb. Hazırda eyni mövqeni davam etdirir.

Məhkəmə Günel Həsənovanı 2014-cü ilin sentyabrında 87 yaşlı Adilə Səlimovanı maşınla vurmaqda təqsirli bilib. Adilə Səlimova məhkəmə prosesində bildirib ki, polislər onu şikayət etməyə məcbur edib. Onun heç bir xəsarəti yoxdur. Maşın çox aşağı sürət hərəkət edərkən, o özü yandan maşına toxunub və sürücü Günel Həsənova onu xəstəxanaya aparıb, müayinə elətdirib. Onda heç bir xəsarət aşkarlanmayıb. Adilə İsmayılova dəfələrlə video-müsahibə verərək, Günel Həsənovanın günahsız olduğunu, ona heç bir ziyan və xəsarət dəymədiyini söyləyib. Məhkəmədə Günel Həsənovanın təqsirli olmadığını söyləyib.

Onun vəkil Adil İsmayılov bildirib ki, ibtidai istintaq ədalətsiz və qərəzli aparılıb, məhkəmə isə qanunların pozulması ilə keçib: "Tibbi ekspertizalar aparılarkən qanunvericilik ciddi pozulub. Eyni şəxs iki dəfə tibbi ekspertiza təyin edib. Ekspertizanın məcburi və ya könüllü keçirilməsi ilə bağlı iş materiallarında sənəd yoxdur. Ekspert rəyini təsdiq edən tibbi sənədlər rəyə əlavə edilməyib. Ekspert rəyi reallığı əks etdirmir, sənədlərə söykənmir və qərəzlidir".

23 fevral 2015-ci ildə Yasamal Rayon Məhkəməsinin hökmü ilə Günel Həsənli 1 il 6 ay müddətinə məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkməyə məhkum edib. 19 noyabr 2015-ci ildə Bakı Apelyasiya Məhkəməsi bu hökm qüvvədə saxlanılıb.

Cəmil Həsənli qızının onun siyasi fəaliyyətinə görə cəzalandırıldığını bildirib.

Yerli və beynəlxalq hüquq müdafiə təşkilatları, o cümlədən İşçi Qrupu 2 uşaq anası Günel Həsənovaya qarşı çıxarılmış məhkəmə hökmünü siyasi motivli hesab edir.

**89. Zahidov Rüfət Fərasət oğlu**

**Saxlanma tarixi:** 20 iyul 2015-ci il

**İttiham:** Cinayət Məcəlləsinin 234.4.1-ci (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma – qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi.
**Saxlandığı yer:** Bak (Kürdəxanı) İstintaq Təcridxanası.
**İş üzrə qısa arayış:** Hazırda Fransada yaşayan müxalif "Azadlıq" qəzetinin baş redaktoru, "Azərbaycan saatı" proqramının rəhbəri Qənimət Zahidin qardaşı oğlu Rüfət Zahidova iyul ayının 20-də Bakının Yasamal rayonunda işlədiyi şirkətdə Daxili İşlər Nazirliyinin Baş Narkotiklə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Polis onun cibindən və avtomobilindən 5 qram heroin götürüldüyünü iddia edib, ona qarşı Cinayət Məcəlləsinin 234.4.1 maddəsi ilə ittiham irəli sürülüb və barəsində məhkəmə qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Oğlunun günahsız olduğunu və heç bir cinayət törətmədiyini deyən Fərasət Quliyev bildirib ki, oğlunun həbsindən öncə onların evləri naməlum şəxslər tərəfindən izlənilib.

Qənimət Zahidin qohumlarına qarşı təqiblər onun Azərbaycan hakimiyyətini sərt tənqid edən televiziya verilişindən sonraya təsadüf edir. Qənimət Zahid Azadlıq Radiosuna açıqlamasında baş verənlərin "Azərbaycan saatı" ilə bağlı olduğundan əminliyini bildirib: "Şübhə etmirəm ki, bu həbs və təqiblər "Azərbaycan saatı" ilə bağlıdır. Başqa heç bir səbəb yoxdur. Hər kəs bilir ki, "Azərbaycan saatı" getdikcə populyarlaşır və əsl həqiqətləri ölkə əhalisinə çatdırır. Buna görə də, hökumət qohumlarıma qarşı təqiblərlə mənə təsir etmək istəyir".

**90. Zahidov Rövşən**

**Saxlanma tarixi:** 20 iyul 2015-ci il
**İttiham:** Cinayət Məcəlləsinin 234.4.1-ci (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma – qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi.
**Saxlandığı yer:** Bakı (Kürdəxanı) İstintaq Təcridxanası.
**İş üzrə qısa arayış**: İyulun 24-də Fransada yaşayan, müxalif "Azadlıq" qəzetinin baş redaktoru və "Azərbaycan saatı" televiziya proqramının rəhbəri Qənimət Zahidin Şamaxı rayonunun Meysəri kəndində (Bakıdan 120 kilometr qərb) yaşayan anası Xədicə xanımın, qardaşı Nemət Zahidovun oğlu Xəqani Zahidovun və Şamaxı rayonunun Qurdtəpə kəndində yaşayan əmisi oğlu Rövşən Zahidovun evlərində axtarış aparılıb.
Rövşən Zahidov axtarışdan bir neçə gün öncə - iyulun 20-də polis tərəfindən saxlanılaraq 25 sutka inzibati həbs edilmişdi.
Axtarışın konkret hansı hüquq mühafizə orqanı tərəfindən aparılması məlum olmayıb.
Ailə üzvləri "Amerikanın Səsi" radiosuna bildirib ki, Zahidovların anası Xədicə xanımın evindən ailə üzvləri ilə əlaqə saxlamaq üçün istifadə etdiyi komputer götürülüb. Xəqani Zahidovun isə evindən heç nə tapılmayıb.
Rövşən Zahidovun evində axtarış zamanı narkotik tapıldığı bildirilib.
Rövşən Zahidovun qardaşı Ağasadıq Zahidov "Amerikanın Səsi"nə bildirib ki, axtarışda 15-dək çox mülki və polis forması geyimində olan şəxslər iştirak edib. "Qardaşımın evinə heç kimi buraxmadılar. Evdə yalnız Rövşənin həyat yoldaşı Leyla xanım vardı. O dedi ki, gözümün qabağında Rövşənin iş pencəyinin cibinə kağıza bükülü nə isə qoydular, sonra isə dedilər burada narkotik var", o qeyd edib.
Ağasadıq Zahidovun dediyinə görə, qardaşı Rövşən ümumiyyətlə siqaret belə çəkmir. "Qardaşımın evində axtarış aparıb, guya narkotik tapmaqla onun barəsində cinayət işi qaldırmaq istəyirlər. Amma, hamı bilir ki, qardaşıma və qohumlarıma qarşı bu təqiblər Qənimət Zahidin jurnalist fəaliyyəti ilə bağlıdır", o qeyd edib.
Qənimət Zahidin qohumlarına qarşı təqiblər onun Azərbaycan hakimiyyətini sərt tənqid edən televiziya verilişindən sonraya təsadüf edir. Qənimət Zahid Azadlıq Radiosuna açıqlamasında baş verənlərin "Azərbaycan saatı" ilə bağlı olduğundan əminliyini bildirib: "Şübhə etmirəm ki, bu həbs və təqiblər "Azərbaycan saatı" ilə bağlıdır. Başqa heç bir səbəb yoxdur. Hər kəs bilir ki, "Azərbaycan saatı" getdikcə populyarlaşır və əsl həqiqətləri ölkə əhalisinə çatdırır. Buna görə də, hökumət qohumlarıma qarşı təqiblərlə mənə təsir etmək istəyir".

**91. Ağabəyov Nazim Mais oğlu**

**Saxlanma tarixi:** 23 iyul 2015-ci il

**İttiham:** Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma külli miqdarda törədildikdə) maddəsi.
**Saxlandığı yer:** Bakı (Kürdəxanı) İstintaq Təcridxanası
**İş üzrə qısa arayış:** Nazim Ağabəyov iyulun 23-də evdən çıxıb idarə etdiyi avtomobillə işə gedərkən Binəqədi rayonu ərazisində, Mir Cəlal küçəsində yerləşən "Bol market" ticarət mərkəzinin yaxınlığında Bakı Şəhər Baş Polis İdarəsi Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılaraq Bakı Şəhər Baş Polis İdarəsinə aparılıb. Onun üzərinə və maşınına baxış keçirilərkən külli miqdarda (6,213 qram) heroin aşkar edilərək götürüldüyü bildirilib. 24 iyulda N.Ağabəyova 234.4.3-cü maddə ilə ittiham elan edilmiş, Xətai rayon Məhkəməsinin ( hakim İbrahim İbrahimli) qərarı ilə onun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilmiş və o, saxlanılması üçün Kürdəxanıda yerləşən istintaq təcridxanasına göndərilmişdir. Onun vəkili Adil İsmayılovun həbsdən verdiyim apellyasiya şikayətinə 29 iyulda Bakı Apellyasiya Məhkəməsində ( sədrlik edən İlqar Murğuzov) baxılıb və rayon məhkəməsinin qərarı qüvvəsində saxlanılıb.
Nazim Ağabəyov Almaniyada yaşayan Meydan TV rəhbəri, keçmiş vicdan məhbusu Emin Abdullayevin (Millinin) qaynıdır. O, Emin Milinin ictimai, həmçinin jurnalistika fəaliyyətinə görə həbs edilib.
Emin Milli bildirib ki, Azərbaycan hakimiyyəti onu tənqid edən jurnalistləri, siyasi fəalları yaxınlarının həbsilə, girov götürməklə cəzalandırmaq praktikasını davam etdirir. Qaynının həbsi də onu və rəhbərlik etdiyi "Meydan TV"ni susdurmaq məqsədi daşıyır. Nazim Ağabəyov IT mütəxəssisidir, heç vaxt içtimai-siyasi fəaliyyətlə məşğul olmayıb. Ona qarşı irəli sürülşüm ittiham - Azərbaycan Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik) maddə üzrə 5 ildən 12 ilə qədər həbs cəzası nəzərdə tutulub.

2013-cü ildən fəaliyyət göstərən Meydan TV müstəqil və müxalif fikirli onlayn televiziyadır. Az müddətdə Meydan TV Azərbaycanda populyarlıq qazanıb, TV-də hakimiyyətin korrupsiya əməlləri ilə bağlı yazılar, videolar və digər hakimiyyəti tənqid edən materiallar yayılıb.

Televiziyanın Bakı bürosu 2014-cü il dekabrın 9-da fəaliyyətini dayandırıb. Rəhbərlik bunu, əməkdaşlarının təhlükəsizliyini təmin etmək üçün etdiyini bildirib.

2015-ci ilin yayında Bakıda keçirilən I Avropa Oyunlarından sonra Meydan TV-yə qarşı təzyiqlər daha da artıb, bu TV ilə əməkdaşlıq edən jurnalistlər, yazarlar davamlı olaraq istintaqa (prokurorluq və polisə) çağırılıb, jurnalistlərə və onların ailə üzvlərinə, qohumlarına hədə-qorxular edilib, bir neçə jurnalistin ölkədən çıxışına qadağa qoyulub.

Meydan TV-ilə əməkdaşlıq edən jurnalist Şirin Abbasov 16 sentyabr 2015-ci il tarixdə "ünvansız söyüş söymə" və "polisə müqavimət" ittihamları ilə Azərbaycan Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və məhkəmə qərarı ilə 30 sutkalıq həbs cəzası verilib.

**Xüsusi qeyd: Nazim Ağabəyovun ailə üzvləri onun işini siyasiləşdirilməsini, adının siyasi məhbus siyahısına salınmasını istəməsələr də, İşçi Qrupu apardığı müşahidə və araşdırmalara zamanı bu işin siyasi motivli olduğu qənaətinə gəlib.**

**92. İmanov Raci Vəzir oğlu**

**Saxlanma tarixi:** 13 oktyabr 2015-ci il.

**İttiham:** Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma külli miqdarda törədildikdə) maddəsi.

**Saxlandığı yer:** Şüvəlan İstintaq Təcridxanası.

**İş üzrə qısa arayış:** Sumqayıt şəhərində yaşayan Raci İmanovun həyat yoldaşı Gülsu İmanova ideyib ki, həyat yoldaşı tutulan gün əvvəl Sumqayıtdakı 3-cü Polis Bölməsindən onlara zəng vurublar, Raci İmanovun şəxsiyyət vəsiqəsini istəyiblər. Xanımının atası şəxsiyyət vəsiqəsini ora aparanda deyiblər ki, R. İmanovu Sumqayıt Şəhər Polis Şöbəsinə aparıblar. R.İmanovun qayınatası ora getsə də, R.İmanovun nə saxlanılmasının səbəbini deyiblər, nə görüşə icazə veriblər. Sonra hüquq-mühafizə orqanları Raci İmanovun üzərindən 10 qram qurudulmuş marixana aşkar etdiklərini deyiblər və məhkəmə qərarı ilə onun barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Onun vəkili Fariz Namazlı bu ittihamın əsassız olduğunu qeyd edib.
Raci İmanov Gürcüstanda yaşayan yazıçı-publisist Günel Mövludun (İmanovanın) qardaşıdır. Günel Movlud Azadlıq Radiosunun Bakı bürosu və Meydan TV ilə əməkdaşlıq edir. G.Mövlud qardaşlarının həbsini jurnalistika, o cümlədən Meydan TV və Azadlıq Radiosu ilə əməkdaşlıq etməsi ilə bağlı olduğunu bildirir. G. Mövlud bəyan edib ki, qardaşları həbs edilməmişdən öncə Azadlıq Radiosu və Meydan TV ilə əməkdaşlıq etdiyi üçün onun ailə üzvlərinə, yaxınlarına təzyiqlər edilib, atası işdən çıxarılıb.Qardaşları həbs ediləndən sonra ailə üzvləri bəyanat yayaraq Günel Mövluddan imtina ediblər.

Qeyd edək ki, 2015-ci ilin yayında Bakıda keçirilən I Avropa Oyunlarından sonra Meydan TV-yə qarşı təzyiqlər daha da artıb, bu TV ilə əməkdaşlıq edən jurnalistlər, yazarlar davamlı olaraq istintaqa (prokurorluq və polisə) çağırılıb, jurnalistlərə və onların ailə üzvlərinə, qohumlarına hədə-qorxular edilib, bir neçə jurnalistin ölkədən çıxışına qadağa qoyulub.

**Xüsusi qeyd: Raci İmanovun ailə üzvləri onun işini siyasiləşdirilməsini, adının siyasi məhbus siyahısına salınmasını istəməsələr də, İşçi Qrupu apardığı müşahidə və araşdırmalara zamanı bu işin siyasi motivli olduğu qənaətinə gəlib.**

**93. İmanov Vəkil Vəzir oğlu**

**Saxlanma tarixi:** 13 oktyabr 2015-ci il.

**İttiham:** Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma külli miqdarda törədildikdə) maddəsi.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası (Kürdəxanı təcridxanası).
**İş üzrə qısa arayış:** Vəkil İmanov saxlanıldığı gün yaşadığı Biləsuvar rayonunda axşam saatlarında iş yoldaşlarıyla eyni maşında işdən evə gəlirmiş. İş yoldaşlarının dediyinə görə, maşında 4 nəfər olublar. İş yerlərindən bir az uzaqlaşandan sonra polis onların olduğu maşını saxlayıb və İmanov Vəkilin kim olduğunu soruşub. Vəkil İmanov özünü təqdim edəndən sonra onu Biləsuvar Rayon Polis Şöbəsinə aparıblar. Ailə üzvləri polis şöbəsinə getsələr də, onlara V.İmanovla görüşə icazə verməyiblər və saxlanılma səbəbini deməyiblər. Sonra məhkəmə qərarı ilə Vəkil İmanov barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.
Həmin vaxt onun vəkil olmuş Nemət Kərimli BBC Azərbaycancaya bildirib ki, Biləsuvarda saxlanılan Vəkil İmanov barəsində qərarda onun gödəkcəsinin sağ cibindən 6.48 qram qurudulmuş marixuana çıxarıldığı yazılıb. "Siyasi sifarişdir, digər işlərdən köçürüblər. Qərarın yuxarısında marixuanadan, aşağısında isə heroindən danışılır", cənab Kərimli əlavə edib.
Vəkil İmanov Gürcüstanda yaşayan yazıçı-publisist Günel Mövludun (İmanovanın) qardaşıdır. Günel Movlud Azadlıq Radiosunun Bakı bürosu və Meydan TV ilə əməkdaşlıq edir. G.Mövlud qardaşlarının həbsini jurnalistika, o cümlədən Meydan TV və Azadlıq Radiosu ilə əməkdaşlıq etməsi ilə bağlı olduğunu bildirir. G. Mövlud bəyan edib ki, qardaşları həbs edilməmişdən öncə Azadlıq Radiosu və Meydan TV ilə əməkdaşlıq etdiyi üçün onun ailə üzvlərinə, yaxınlarına təzyiqlər edilib, atası işdən çıxarılıb. Qardaşları həbs ediləndən sonra ailə üzvləri bəyanat yayaraq Günel Mövluddan imtina ediblər.
22 dekabr 2015-ci ildə Vəkil İmanov Biləsuvar rayon Məhkəməsinin qərarı ilə 1 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, 2015-ci ilin yayında Bakıda keçirilən I Avropa Oyunlarından sonra Meydan TV-yə qarşı təzyiqlər daha da artıb, bu TV ilə əməkdaşlıq edən jurnalistlər, yazarlar davamlı olaraq istintaqa (prokurorluq və polisə) çağırılıb, jurnalistlərə və onların ailə üzvlərinə, qohumlarına hədə-qorxular edilib, bir neçə jurnalistin ölkədən çıxışına qadağa qoyulub.

**Xüsusi qeyd: Vəkil İmanovun ailə üzvləri onun işini siyasiləşdirilməsini, adının siyasi məhbus siyahısına salınmasını istəməsələr də, İşçi Qrupu apardığı müşahidə və araşdırmalara zamanı bu işin siyasi motivli olduğu qənaətinə gəlib.**